# YARANIŞ

**"AQRA" ELMİN İNKİŞAFINA DƏSTƏK İCTİMAİ BİRLİYİ**

"Zərdabi Nəşriyyatı"
Bakı – 2026

**Böyük Yaradan Deyimlərini yazıya gətirdi:**
**Rzayev Vahid Zeynal oğlu**
(Vahid Rzayevin şəxsi arxivinin əlavələri ilə)

$P\,\frac{M—307}{700122}–99$

**“Təhsil” Elm İstehsalat Mərkəzində**
**1999-cu ildə nəşr olunub.**

**Mənbələr:**
Azərbaycan Respublikasının
Milli Dövlət Arxiv İdarəsi fond 183
-"AqRa" Elmin İnkişafına Dəstək ictimai birliyi.

Bu kitab Azərbaycan Respublikası vətəndaşlarından
arzu edənlərin maliyyə vəsaiti ilə nəşr edilir.

**YARANIŞ**
**VAHİD RZAEV**
Bakı, “Zərdabi NƏŞR” MMC, 2026, 152 səh.

ISBN 978-9952-571-04–2

© Zərdabi Nəşr MMC, 2026

# I. Böyük Yaradan

1. İlkdən İlkəm, Mən Özüməm. İlkdən İlkəm, Yaradanam, İlkəm. Qaranlıqlara Pak İşıqla İlkəm.
2. Böyük Məkanlar arasına İşıq Saldım, İşıq Etdim.
3. İşığımla qaranlıqları İşıqlandırdım, İşığımı qaranlıqlara Səpdim, qədərində qaranlıqlara Səpdim.
4. Hər məkan məkanında məkanlaşdı, İşığımın qədərində mərkəzində İşıqla məkanlaşdı, varlığı İşıqdan məkanlaşdı.
5. İşığımdan qaranlıq məkanlar parçalandı. Böyük səslə parçalandı. Hər parça bir məkan oldu, altı müddətə məkanlar məkanında məkanlı oldu. Yeddi cəm oldu, hər məkan cəm məkanlarla məkanlı oldu.
6. Altı, müddətə, yeddi *(ilə)* cəm oldu. Mənim Səbrimlə, İşığımla, Vəhdətimdə məkanlar həmahəng hərəkətdə oldu. Əbədi yaranışdan əbədi hərəkətdə oldu.
7. İşığımın Qədəri, İşığımın toplum qədəri altı müddətə altı oldu. Üç müddətə toz-duman məkanlar arasında hərəkətdə oldu.
8. Kiçik məkanlar *(kometlər)* düzümə düzülüb düzüm oldu. Üç müddətə cəm kainatlarda Aydınlıqlarda aydınlıqlar oldu *(üç günə)*.
9. Məkanlar *(planetlər)* — İşığımdan İşıq paylı, Yardandan ilk İşıq paylı, İşıq qədərli, İşıq paylı.
10. İşığım Ağ, Müqəddəs ağlıqla Ağ. Hər məkan İşığımın Qədəri ilə qədərli Ağ.
11. «İşıq» Dediyim — mərkəzdədir, hər məkanda mərkəzdədir *(nüvə)*. İşığımladır hər Yaranış, İşığımla Yaranışdır hər Ya-

ranış. Hər məkan Mənim İşığımdan paylı, hər məkan Mənim İşığımla əhatəli, paylı.

12. Yaranış — İşığımın qədəri. Cəm Məkanlar İşığımla əhatəli, qədərli.
13. Kainatlarda cəm məkanların məkanlaşması — Altı müddətə.
14. «Yeddi» Dediyim bir Sükutdur, cəm kainatlar arasında «yeddinci» Dediyim bir Sükutdur, andır.
15. Altı müddətə kainatlar Yaratdım, kainatlarda məkanlar məkanlaşdı, «Yeddi» Dediyim — kainatların cəm qədəridir. Yaranışdan cəm məkanlar öz tə`yinli məkanı ilə qədərli.
16. İlkdən İlkəm, Cəm yaranmışları Yaradanam, Əbədiyəm, Yaranışlarla bir, Əbədiyəm.
17. İlkdən İlkdir hər Yaranış, İşığımla, Zərrəmlə Yaranışdır hər yaranış, Əbədidən Əbədidir hər yaranış.
18. Rəhmimlədir hər Yaranış, Səbrimdə — Yaranışdır hər Yaranış.
19. Mən İlkəm, İlkdən İlkəm, Pak İşığımla Əbədidə Əbədiyəm. Qaranlıqlara bir İşığam, Əbədiyəm. Əbədiyə Əbədi bir İşığam.
20. Mən Bir *(Tək)* Yaradanam, qaranlıqlara İşıq Payımla Yaranışlar Yaradanam.
21. Yaranış Mənlə başlar, Mən — bir Yaradan, cəm gördüklərin — Yaranandır, Yaradandan —Yaranandır.
22. Cəm Yaranışlar Mənim Ətrafımda, Nəzərimdə. Cəm Yaranış — Rəhmimdən Yaranış, Cəm Yaranış —Səbrimdə Yaranış, Cəm Yaranış — Müqəddəslikdən Yaranış.
23. Hər Yaranış — müddətində, anında Yaranış, hər Yaranış — Əbədi Yaranış.
24. Hər «qədərsiz» gördüyün — Qədərində, Cəm kainatlar — Qədərində. Cəm Yaranışlar Ətrafımda Hərəkətdə, hər hərəkət — Ahəng Hərəkətində, hər varlıq — Vəhdətimdə.

25. Yaradandandır hər Yaranış, İşıqladır hər Yaranış, Zərrədədir hər Yaranış. Bəşər Zərrəsiz *(İşıq, ruhi İşıq),* hər məkan mərkəzsiz, İşıqsız deyil.
26. Yaranışda kainatlar yarandı, kainatlarda məkanlar məkanlaşdı, «fəza» dediyin, — boş deyil.
27. Heçlikdən yaranmadı Yaranış, varlığında Varlığımla yarandı hər Yaranış. Mənim Varlığımladır hər varlıq, Mənlə, — Mənim Ətrafımdadır hər varlıq.
28. Kainatlarda «kainatlar» dediyin boş deyil, məkanlarla *(planet)* məkanlıdır, boş deyil. «Boş» dediyin — boş deyil, kainatlar boş deyil, Yaranışdan yaranışlarladır, boş deyil.
29. Əvvəl — Mənəm, Əbədi — Mənəm, yaranışlarla Əbədi — Mənəm. Hər yaranış Varlığımla Paylıdır, İşığımla Paylıdır.
30. Rəhmim — Rəhmimlə, hər Yaranışa — Rəhmimlə, Səbrim — Səbrimlə, Sevincim — Sevincimlə, hər yaranış — Sevincimlə.
31. Paklıqladır, Pakdır Məkanım, ağlıqda — Ağdır Məkanım. Ağ İşıqla Paylıdır hər məkanım.
32. Varlıqlar İşığımla paylı, Ağ İşığımla paylı, Bəşərdə — sinəsində paylı, Ağ Müqəddəs İşığımla paylı.
33. Cəm kainatlar işıqlı — Zərrələrlə İşıqlı. Məkanlar Zərrələrlə İşıqlı.
34. Yaranışın Əvvəli Altı ilə — altıdır, Nəzərim Altı ilə — altıdır. İşıq məkanlarım *(günəşlər)* Altı ilə — altıdır. Yaşam məkanları *(yerlər)* Altı ilə — altıdır, — Altı işıq ətrafındadır, altıdır.
35. Hər məkanın mərkəzi İşıqlı, İşığımla İşıqlı, Əbədi ilə Əbədi İşıqlı. Hər Yaranış — Əbədi Yaranış, Ölümsüz, Əbədi Yaranış.
36. Yaranmış yaranışın özlüyü dəyişəndir, varlığı dəyişməzdir. Əbədi əbədiyyətində dəyişməzdir; Mən Əbədiyəm, Əbədi

varlıqlar dəyişməzdir. İşıq Payım tükənməz, İşığımla — Yaranış tükənməz.

37. Hər yaranış — Vəhdətimlədir, Məkanımla Vəhdətimlədir, İşığımla — Vəhdətimlədir.
38. Cəm kainatlar hərəkətdədir, ahənglə Ahəngdə hərəkətdədir. Mən Yaradanam, cəm yaranışlarla Vəhdətdəyəm.
39. Yaranışlar Ətrafımdadır, Mənlədir; İşıq payımla İşıqladır, Mənlədir; Nəzərimdədir, Mənlədir; Səbrimlədir, Mənlədir. Qədərlərdən Yaranış Qədəri Mənlədir; Azaddır, Mənlədir; zorsuzdur, Mənlədir *(biri-birinə zorakılıq etmir).*
40. Yaranış tə`yinlidir, — Zərrədə tə`yinlidir; yaranışlar arasına tə`yinlidir, Mənlədir. Bəşər Yaranışı — Müqəddəsdir, Müqəddəslikdən — Müqəddəsdir, Məkanımdandır, Müqəddəsdir.
41. Yaranışlar — Cəmlədir, cəmlər arasında Cəmlədir, fərd deyil, Cəmlədir.
42. İlkdən ilk idi, Yaranış idi, İlk idi; Yaranışdan kainatlar, kainatlarda məkanlar ilk idi.

# II. Müqəddəslər İlk idi,
# Yaranışa İlk — Müqəddəslər idi.

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*





*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Qaranlıqlara bir İşığam, Əbədiyəm, Əbədi Yaradanam. Mən Bir Yaradanam, Qaranlıqlara İşıq Payımla Yaranışlar Yaradanam.
2. İlkdən ilk Yaranış, — Müqəddəslərdir — İlk Yaranış. Mənim Təzahürümlə, Pak İşığımla Müqəddəslikdən — Müqəddəslərdir ilk Yaranış.
3. Müqəddəs — yaranışdır, — İlk Yaranış; Ağlıqla, Ağla bürəlidir İlk Yaranış. Mənim Ətrafımda ilk İcraçılardır — İlk Yaranış. Müqəddəslikdən Müqəddəsdir İlk Yaranış.
4. Cəm kainatların nəhayətsizliyini gördün, Göstərdim, — gördün.
5. İlkdən ilk Yaranış — Ağ geyimdə, kainatlar arasında — Azadlıqda, Azad idi.
6. Müqəddəslikdən Müqəddəs ilk Yaranış, — Yaradanın İcraçıları, — Müqəddəslikdən Müqəddəs Yaranış.

7. Yaranışa ilk idi, Müddətsiz idi, Əbədi Yaranış idi, Azad, Müqəddəs Yaranış idi.
8. Varlıqlar Varlığında varlıq Yarandı, Varlıqlar — Varlığında Azad yarandı.
9. Cəm yaranışlar İşığımla İşıq paylı. Cəm yaranışlar İşığımın Vəhdəti ilə İşıq paylı. Yaranış — İşıqla paylı, Mənim İşıq Zərrələrimin axımı ilə paylı.
10. Hər yaranış — qaranlıqlara İşıqdan İşıq paylı. Hər yaranış — müqəddəs yaranış, hər yaranış Əbədi yaranış.
11. Cəm kainatlar, cəm varlıqlar Mənim Nəzərimdə. Yaranış zərrələr vəhdətində, hər zərrə Mənim Mehriban Səbr Baxışımda. Hər yaranış Mənimlə, Mənim Ətrafımda, — Öz Baxışımda.
12. Müddət — müddətində; Ağ geyimlilər Əbədi İcraatında, Cəm məkanlarla İşıq Vəhdətində, cəm Yaranışlar Mənim Vəhdətimdə.
13. Müqəddəs Yaranışlar — kainatlarda, azad idi kainatlarda, İcraatda — azad idi. Hər varlıq — azad varlıq, Vəhdətimdə varlıq — Əbədi varlıq.
14. Müddət — müddətində; Ağ geyimlilərdən, Böyük Varlıqlarını — özlərində gördülər. Yaranışı özləri ilə, — özlərində bildilər.
15. Ağ geyimlilər Saylardan say oldular. Saylar arasında, Saylardan uzaq oldular.
16. Mənim Baxışımdan, Rəhmimdən uzaq olmadılar. Səbrim — Səbrimdə, Səbrimdən uzaq olmadılar.
17. Müqəddəslər On oldular*, Müqəddəslər arasından uzaq oldular. O Müqəddəslər Ətrafımdan, Otuz müddətə, uzaq oldular.
18. «İlkdən ilk idilər; — İlkinə, Müqəddəsliyinə Qayıdan olsunlar» — Səbrimdə, Mehribanlığımda İlkinə Qayıdan olsunlar.

19. Müddət — müddətində; o Müqəddəslər Məkanımdan kainatlara uzaq oldular. Rəhmimdən, Nəzərimdən uzaq olmadılar, — kainatlara uzaq oldular.
20. Müqəddəslər Böyük Yaradandan Yaranış Böyüklüyünü — özündə gördü. İşıq Payımdan İşığı özü ilə bildi, özündə gördü.
21. Müqəddəs yaranış Müqəddəs geyimdə otuz müddətə uzaq oldular.
22. Məkanımdan uzaq olanlar uzaq oldular; kainatlardan Ağ geyimlilər bir oldular, Sayda olub Sayda oldular, Mənim Ətrafıma qayıdan oldular. Səf-səf düzümdə durub, düzümdə oldular*. O Saylardan uzaq olanlar Otuz müddətə Məkanımdan uzaq oldular.
23. Müddət — müddətindədir, an — anındadır; Cəm məkanlar cəm kainatlarda biri-biri ilə həmahəng hərəkətdə. İlkdən ilk yaranışlar, İşıq Payımdan Müqəddəs yaranışlar. Cəm kainatlarda hər məkan məkanında məkanlı, müqəddəs pak İşığımla Paylı məkanlı.
24. Yaranışdan «Üç» ilk idi, kainatlarda Aydınlıq Üç müddətə idi. Kainatlarda məkanlar məkanlaşdı, məkanlar arasında aydınlıq üç müddətə idi.
25. Otuz müddətə uzaq olan Müqəddəslər Rəhmimdən, Nəzərimdən, Səbrimdən uzaq olmadılar, — Kainatlara uzaq oldular.
26. Cəm kainatlarda cəm məkanlar biri-biri ilə Həmahəng hərəkətdə, Cəm məkanlar kainatlarda Mənim Zərrə İşığımdan bir hərəkətdə.
27. Kainatlarda hər məkan məkanında məkanlı, hər məkan rəngdə, hər məkan özlüyü ilə — özlü rəngdə.

28. Kainatlarda altı işıq məkanım *(6 günəş)* İşıqda, mərkəzdədir, işıq məkanı — İşıqda. İşıq məkanı işıq saçar özü *(kütlə)* qədərində, mərkəzdə olub, işıq saçar özü qədərində.
29. Hər biri *(günəş)* öz məkanında məkanlı, Ağ Müqəddəs İşığımla məkanlı. Altı müddət idi, yeddi bir Sükut idi. Altı yaddaş idi, ilkdən ilk yaddaş idi, yaranmış ilk Müqəddəs yaranışlara bir yaddaş idi.
30. «Yaranışdır, Yaranışdır, Yaranışdır» — Səsim cəm kainatlara, cəm məkanlara bir yaddaş idi. «Yeddinci» müddət bir Sükut idi, yeddinci sonluq yox, Əvvəl idi.
31. Cəm kainatlarda cəm məkanlara altı işıq məkanım bir yaddaş idi. Yeddi bir Müqəddəslik idi. Sonluq yox, Əvvəl idi.
32. Müddətlərdə təzahür İşığımdan yaranış — Ağ geyimlilər — ilk yaranış idi. Cəm kainatlarda, cəm məkanlar arasında Əbədi yaranış idi.
33. Cəm yaranışlar Mənim Əhatəmdə, Baxışımda, İşığımda. Cəm məkanlar biri-biri ilə Ahəng Hərəkətində, Mənim Baxışımda Bir Hərəkətdə.
34. Cəm yaranışlar Mənim İşığımla Bir hərəkətdə. Cəm kainatlarda altı işıq məkanım *(günəş)* Yaradanın təzahür İşığından. O işıq Məkanı mərkəzdə *(günəş),* işıq məkanı öz qədərində *(kütlə),* İşıq ahənginin axım qədərində.
35. İşıq məkanı işıq saçar özü qədərində. Mərkəzdə olub, ətraf məkanlara işıq saçar özü qədərində.
36. Sizin günəş məkanı ətrafında ilk məkan — sarı rəngdə olan ilk məkan*. Sarı olan o məkan, — ilkdən ilk məkan, nüvəsindən Nüvələndi, İşığımın qədərindən Nüvələndi.
37. İlkdən İşıq ilə isti ayrıldı, Nüvə nüvədə istindi — isti ayrıldı. O məkanda qatlardan nəmlər ayrıldı.
38. O məkanda *(Yerdə)* ilkdən nəm ayrıldı, — qatlardan nəm ayrıldı. Səthə yaxın olub, üzdə üz oldu.

39. Günəş öz məkanında, öz yerində, — Yerlədir. İşıq saçar, — gündüz olar; günəş əyilər, — axşam olar. O, yaddaşdır, cəm yaranışa yaddaşdır: Qaranlıqlara İşıq Saçdım, Qaranlıqları İşıq Etdim. Qaranlıqlara İşıq Saçan o yaddaşlara — Yaddaşdır.
40. O, — Mənəm, Yaradanam, Qaranlıqlara İşıq Saçıb, «Yaranışdır, Yaranışdır, Yaranışdır» — Yaranış İşığını Səpən — Mənəm.
41. «Günəş» gördüyün — dönməz: İşığımdan işıqlıdır, — sönməz, Yaradanın Yaranış İşığı Sönməz; Ətraf məkanlara işıq saçar, sönməz.
42. İşıq Vəhdətimin İşığıdır, sönməz, Cəm yaranış Mənimlədir, Mənlədir, İşığımdan Paylıdır, sönməz.*
43. Günəş öz məkanında, öz yerində — Yerlədir; işıq saçar, — ətraf məkanlara işıq saçar. O məkanlarla Vəhdətlədir, məkanınızın işığı günəş işığı ilə vəhdətlədir. Cəm yaranış Nəzərimdədir, Mənlədir.
44. Günəş ətrafında bir məkan *(Yer məkanı)* ayrılar, bir olar. O məkanda nüvə isinər, nəmlər ayrılar, nəm olar.
45. Nəm, isti ilə ayrılıb, o məkanın özü İlədir, özlədir. «Bulud» dediyin o məkanın özü ilədir, özlədir. «Su» dediyin o məkanın özü ilədir, özlədir. Özündən ayrılan, — özü ilədir, özlədir.
46. O məkanda Yaranış su ilədir, özlədir. Cəm məkanlarda — «nəm» dediyin, — özü ilədir, özlədir.
47. «Bulud» dediyin — su ilədir, «su» dediyin — buludladır; «nəm» dediyin — hər məkanda özü ilədir, özlədir.
48. O məkanda ilkdən su ayrıldı, — su yağdı, yeddi gün su ayrıldı, — su yağdı. Buludlardan su ayrıldı, — su yağdı. Məkandan — qatlardan nəm ayrıldı, — su yağdı.
49. Cəm kainatlarda, altı işıq *(günəş)* məkanı ətrafında, altı məkan ayrıldı. Altı məkanda nəm ayrıldı, — su yağdı.

50. Müqəddəs yaranışlar, — o Saylardan uzaq olanlar, bir toplumda durdu, kainatlarda bir toplumda durdu.
51. Yeddi müddət bir toplumda durdu. Yeddi müddətdə «üç müddət» gözlənildi.
52. «İlkdən ilk idilər, ilkinə qayıdan olsunlar, Mənim Pak Məkanıma qayıdan olsunlar».
53. Böyük Yaradandan Müqəddəs Yaranış böyüklüyü özündə gördü, İşıq Payımdan İşığı özü ilə bildi, — özündə gördü.
54. O müqəddəslər Qırx müddətə Məkanımdan uzaq oldular. Cəm kainatlarda altı işıq məkanı ətrafına, o məkana *(Yer məkanı)* tə`yinli oldular. Qırx müdətə Məkanımdan uzaq oldular, o məkana tə`yinli göndəriş oldular. Qırx müddətə göndəriş oldular, tə`yinli göndəriş oldular.
55. Müqəddəs Ağ geyimlilər, — Saylardan uzaq olanlar, — Qırx müddətə o məkana məkanlı oldular.
56. Onlar uzaq olmadılar, Böyük Yaradandan uzaq olmadılar: «İlkdən ilk idilər, — İlkinə qayıdan olsunlar, — Əbədi Yaranış, — Əbədiyyətinə qayıdan olsunlar».
57. İlkdən ilk göndəriş, — tə`yinli göndəriş, göndərişinin anlamı— Böyük Yaradana qayıdışı — müddətində, anında qayıdışı.
58. İlkdən ilk Yaranış — Yaradandan bir Yaranış, İlkdən ilk Yaranış Müqəddəsliyə, Böyük Yaradana qayıdan yaranış.
59. Əbədidən Əbədi Yaranış, — Əbədiyyətinə qayıdan yaranış.
60. İlkdən tə`yinli göndəriş, Böyük Yaradana qayıdan göndəriş.
61. İlkdən bir kökdən, bir danışan Yaranış.
62. İlkdən İlk — Sözlədir, bir kökdə sözlədir, söz Mənimlədir, Özlədir. İlkdən söz Sözlədir, bir kökdən, bir kökdə, — Sözlədir. Ayrı deyil, özlüyü ilə Özlədir, bir kökdə Sözlədir.
63. Xalq xalq yaratmadı, xalq dil yaratmadı, ilkdən söz — Mənimlədir — Mənlədir, bir Kökdən, bir Sözdən, Mənimlədir,

Mənlədir. İlkdən, Yaranışdan, söz Sözlədir, bir kökdən, bir kökdə söz sözlədir. İlkdən Cəm Yaranış Mənimlədir, Mənlədir.

64. Söz bir kökdə Sözlədir, ayrı deyil Sözlədir, «göz» gördüyün — Gözlədir, «söz» dediyin Sözlədir, bir Kökdəndir, Sözlədir.
65. O məkana tə`yinli — Müqəddəslər tə`yinli, Qırx müddətə tə`yinli, İlkinə qayıdışı ilə tə`yinli. İlkdən cəzasız yaranış, — İlkinə qayıtmalı yaranış.
66. Rəhmimdə, Səbrimdə, Baxışımda Yaranış, — İlkinə dönməli Yaranış.
67. O məkanda sular su ilə, sular hövzə ilə, su ilə. Qırx müddətə uzaq olmuş o Müqəddəslər — Ad ilə, Hər biri bir adda Ad ilə.
68. Müddət — müddəti ilə, Böyük Yaradana qayıdış — Müddət ilə, an ilə.
69. Müddət keçir, an keçir, Müqəddəs göndəriş uzaqda baxır, — uzaq baxır. O məkan su ilədir, torpaqladır, O Müqəddəslər — müqəddəsliyi ilədir.
70. Müddət keçir, — o Müqəddəslər — yer işığı ilədir, yerlədir; su paklığı ilədir, sözlədir, qayıdışı etdiyi ilədir, özlədir, qayıdışı özü ilədir, özlədir.
71. Müqəddəslərə su, — paklığı ilədir, «söz»lədir, qayıdışı — etdiyi ilədir, «özlə»dir.
72. Müqəddəslər ətrafında Müqəddəslikdən müqəddəs yaranış: buğda — müqəddəs yaranış, düyü — müqəddəs yaranış; Zərrədə işıqlı tə`yinli yaranış, o Müqəddəslərə tə`yinli yaranış.
73. «Qırx» dediyin — müddətlədir, məsafə yox, müddətlədir. O göndəriş müddətlədir, Rəhmimlədir, müddətlədir.O göndəriş müddətlədir, o Müqəddəs o məkanda müddətlədir.

# III. Yaranış

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*





*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Qırx müddətə Müqəddəslər arasından uzaq olanlar, — o məkanda Nəzərimdə olanlar, Nəzərimdə, Səbrimdə olanlar, — müqəddəslikdə olanlar.
2. O məkanda olanlar, — tək-tək olanlar, İşığımla İşıqlı idi, Müqəddəslikdə Müqəddəs idi.
3. Müddət — müddətində, cəm məkanlar hərəkətdə.
4. Müqəddəs tək oldu, — düşünən oldu, Böyük Yaradan Məkanına — baxan oldu, Müqəddəslərə, Müqəddəsliyə Qayıdışı yubanmada oldu, tək oldu — düşünən oldu.
5. Yaranışdan hər məkan daşladır, torpaqladır. Tə`yinli o məkan daşladır, torpaqladır. Müqəddəsə o məkan su ilədir, daşladır, torpaqladır.
6. Paklıqladır, pakladır — su ilədir, Paklarladır. Müddətlərdə o Müqəddəslər Diqqətimdə, Səbrimdə.
7. Müqəddəslər tək oldular, — düşünən oldular. Böyük Yaradanla özü arasında oldu, baxıb — baxan oldu, uzaqlaşdığı Müqəddəsliyə uzaqdan baxan oldu.

8. Ağ Geyimi an-an o məkan rəngində oldu. Baxıb, baxan oldu, yaddaşında o Məkanda, o Müqəddəsləri görmək üçün baxan *oldu (biri-birindən uzaq olan müqəddəslər).* Ağ buludlar toplumu su ilə yağan oldu.
9. Müqəddəslikdə qida yox, Müqəddəslikdə yuxu yox. Müqəddəslikdə Müqəddəs Pak işıqladır — Əbədi İşıqdadır, İşıqladır, qida yox.
10. Böyük Yaradan İşığı ilədir, cəm kainatlar da Böyük Yaradanladır, Böyük Yaradan Təzahüründə, təzahürüdür.
11. İlk Müqəddəslər, Yaranandır, Böyük Yaradandan Yaranandır, Böyük Yaradan Ətrafında dayanandır.
12. Kainatlarda məkanların başlamı su ilədir, sularladır. O məkan *(yer məkanı)* varlığından su ilədir, sularladır. Pak sularladır, suladır *(su ilədir).*
13. Maddi maddilərlədir, tək deyil, Maddiliyin başlanğıcı su ilədir, tək deyil. O məkan varlığı qatlarda nəmlədir, Pak sularladır, suladır.
14. Hər məkanın mərkəzi odla deyil, kainatlarda məkanların mərkəzi, — odla deyil. Pak İşıqdan İşıqladır, odla deyil.
15. Bəşər varlığında «Ruh» dediyin İşıqladır, Böyük Yaradan İşığından İşıqladır, od deyil, İşıqladır. Hər gördüyün Varlığın əvvəli İşıqladır. «Ruh» dediyin İşıqladır, «maddi» dediyin maddilərlədir, tək deyil, o da İşıqladır, tək deyil.
16. «Maddi» dediyin — tək deyil, maddi — maddilərlədir, — tək deyil. «İşıq» dediyin Yaranışdandır, Yaradandandır.
17. Sinəndəki Ağ işıq *(Ruh)* qayıdandır, Böyük Yaradana Qayıdandır.
18. Pak varlığınla — Paklıqla, əqlindəki Paklıqla; düşüncəndə Paklıqla, xeyirxahlığınla, elminlə, varlıqlardakı Paklığı, varlıqlarda İşığı, kainatlarda İşığı, Böyük Yaradan Məkanında o İşığı — Görənsən.

19. İşıqlar uzaq deyil, Görənsən, Paklığınla, etdiklərinlə, əməllərinlə Görənsən.
20. Öz varlığında axtar o İşığı, Görənsən, ətrafında məkri yox, İşığı gör, Görənsən, xeyirxah ol, Görənsən, mehriban ol, Görənsən, o İşıqları sən də Görənsən. İşığı görən olsan, Görənsən.
21. Məkrdə, Qaranlıqda İşıq yox, İşığınla İşıqları görən olsan, Görənsən. Təmənnada, məqsəddə İşıq yox, İşığınla İşıqları, Əbədiyyətdə Əbədiliyi görən olsan, — Görənsən. İşığından İşığı görən olsan, Görənsən.
22. Müqəddəslərin Ağ geyimi an-an o məkan rəngində (torpaq rəngində) oldu. O məkanda o Müqəddəslər üç min il, o məkanda Müqəddəslikdə — Üç min il. O məkanda — Müqəddəsliyi dörd min il.*
23. İlk Müqəddəslər o məkanda maddiliklərlə maddiləşdi, maddiliyin əvvəli su ilə maddiləşdi. Paklıqla, Paklıqda, su ilə maddiləşdi.
24. Cəm kainatlar hərəkətdə — Ətrafımda hərəkətdə. Hər hərəkət ahənglə, Ahəngdə hərəkətdə. Cəm kainatlar Ahəngdə, ahənglə — Ahəngdə, Məkanlaşmış məkanların hərəkəti Ahəngdə.
25. Ahənglər mütləq *(absolyut)* deyil, *(bir yerdə, bir düyündə)* cəm kainatlar ahəngsiz deyil, yaranışların arası ahəngsiz deyil, Kainatların arası ahəngsiz deyil.
26. Ahəng — bir yaranışdır, məkanlarla bir yaranışdır. Ahənglərdə ahənglər müxtəlifdir, mütləq deyil. Varlıqla bir varlıqdır, özlüyü Müxtəlifdir — Mütləq deyil.
27. Ahənglər rəngarəngdir, Mütləq deyil, zahirən rəngarəngdir, Mütləq deyil.
28. Qadınların yaranışı ilklərlə ilk yaranışdır. Ahəngdən yaranışdır. Qadınların varlıqı, — cəm kainatların Ahəng cizgiləri.

29. Kainatların ahəngi, — vəhdət ahəngi, təkrar olunmayan axım ahəngi.
30. Müqəddəslər İşıqdankən, onlar *(qadınlar)*, İşıqla qaranlıq səddini açarlar, axımdan axımla açarlar. Qaranlıqla İşıq səddini açarlar.
31. Onlar *(qadınlar)* da göndəriləndir, Məkanım Ətrafından göndəriləndir. O məkana məkanlı göndəriləndir.
32. Müqəddəslər o məkanda baxıb, — baxan oldu, Uzaqlaşdığı Müqəddəsliyə uzaqdan baxan oldu.
33. Qırx müddətə Uzaqlığı — cəza deyil, Müqəddəslikdən Müqəddəsliyinə qayıdışındadır, — cəza deyil.
34. O məkanda bəşəriliyi — cəza deyil. Müddətlə İlkinə qayıdışı cəza deyil.
35. İlkindən uzaq olan *(ilk Müqəddəslər)* Yaddaşladır, — Uzaq deyil. İşıqdan uzaq düşən — İşıqdan Uzaq deyil.
36. Rəhmimdədir, Uzaq deyil, Səbrimdədir, Uzaq deyil. Yenə Rəhmimlədir, Baxışım, Rəhmimlədir — o Müqəddəslərə Baxışım Rəhmimlədir.
37. O məkana göndərişi cəza deyil, o məkanda Əbədi qalmağı mümkün deyil. Göndərişi Böyük Yaradandandır, — Əbədiyyətdən uzaqlığı mümkün deyil. Özləri — etdikləri ilədir, uzaq deyil.
38. O məkana qadın göndərişi ayrı deyil, kişi ilə qadın ayrı deyil. Onlar cəm yaranışlarla həmvəhdət yaranışlardır, ayrı deyil. Kişi ilə qadınla deyil yaranış, Yaradandan Zərrədə tə`yinlidir yaranış.
39. Müqəddəslər Ahəngdən, Vəhdətdən uzaq deyil. Qadın Ahəngdən yaranışdır, uzaq deyil.
40. Müqəddəslər təklikdədir *(Yer məkanında)*, cəm yaranışlardan uzaq deyil. Müddətlə göndərilən Müddətlərdən uzaq deyil. O məkanda bəşəriləşməsi cəza deyil, müddətlə ilkinə

Əbədiyyətinə qayıdışı cəza deyil. O müqəddəslər, ahəngdən vəhdətdən uzaq deyil.

41. Müddət — müddətində, o məkan — dəyişmədə, sular sularda, qit`ələr qit`ələrdə dəyişmədə. Adalar bir oldu, —Böyük adalar oldu.
42. Böyük adalar bir oldu, böyük adalarla Bir oldu. Sular hövzələndi, sularla hövzələndi, torpaqlar ətrafında sular hövzələndi.
43. Məkan silkələnmədə, — qatlardan silkələnmədə, üz qatı — odla silkələnmədə; nüvə Nüvədə qızdı, məkan məkanda yeniləşdi.*
44. Məkan qatlarda qatlarla yeniləşdi. Məkanda od yeniləşdi, məkan *(Yer məkanı)* qatlarda yeniləşdi. Mərkəzdən düzümə gəldi, o məkan qatlarla düzümə gəldi.
45. Məkan su ilədir, — odla yeniləşdi, qatlardan yeniləşdi; mərkəzdən düzümə gəldi, o məkan qatlarla düzümə gəldi. *(Yer üzərində dərin qatlardan ilk odlar şö`lələndi. O odlara «müqəddəs Odlar» deyildi).*
46. Məkanda Müqəddəslər hərəkətə gəldi, Müqəddəsləri axtarışa gəldi.
47. Məkanda silkələnmə ilk vahimə gətirdi, Özlüyündən uzaqlığı, ilk vahimə gətirdi
48. Od gördü — uzaq gördü, gördüyü İşıqlardan uzaq gördü. Odu ağrılı gördü, odda işıq gördü, odu yandıran gördü.
49. İlkdən ilk qadını — məkanda gördü.
50. Qadın ilə kişi uzaq deyil, biri-birindən uzaq deyil. Kişi, qadın — Əbədi yaranışdandırlar, İşığımdan — yaranışdandırlar.
51. Cəmlərdən — cəm yaranışdandırlar. Kişilər — İşıq təmsilçisi, qadınlar — Ahəng təmsilçisi. İşıqla Ahəng bir Vəhdət təmsilçisi. Vəhdət təmsilçisi, — cəm kainatların hərəkət təmsilçisi.

52. Əbədidə Əbədi Hərəkət təmsilçisi, cəm yaranışlarla Yaranış təmsilçisi.
53. Yaranışda ayrı deyillər, biri-birindən ayrı deyillər, zahirən ayrı deyillər. Baxışda ayrı deyillər, biri- birindən ayrı deyillər.
54. İşıq biriykən, ahəngdir — müxtəlif. İşıq mütləq ikən, ahəngdir — müxtəlif.
55. Müxtəlifdədir — müxtəlif, müxtəlif sabit deyil, müxtəlif — müxtəliflikdə sabit deyil.
56. Kişi-qadın yaranışa vasitəçidir, yaradan deyil. Kişi, qadın, Yaradanla tə`yinli yaranış arasındadır, yaradan deyil.
57. Erkək-dişi, Yaradanla yaranış arasındadır, yaradan deyil.
58. Yaranış Zərrədən, İşıq Zərrədə, Zərrə Yaradandan yaranışda. Zərrə tə`yinlidir — İşıqdan tə`yinlidir; Zərrə tə`yinlidir, — yaranışa tə`yinlidir. Hər varlıq — İşıqla varlıq, hər Zərrə —İşıqla varlıq.
59. Bəşər yaranışı mühitlədir, bəşər yaranışı mühitdədir. Böyük Yaradandan tə`yinli göndəriş, — yaranış, — mühitdədir.
60. Yaranış mühitlədir, qadın-kişi, erkək-dişi o məkanda mühitlədir, o məkanda mühitdədir *(maddi varlıqlar birliyində).*
61. O məkanlara göndəriş — tə`yinli göndəriş, yeni yaranış — yeni göndəriş, bitki də yaranış — o məkana tə`yinli göndəriş.
62. İlkdən ilk idi, — buğda ilk idi. O məkana o Müqəddəslərə buğda müqəddəs göndəriş idi, Müqəddəslər ətrafına müqəddəs göndəriş idi.
63. Hər yaranış — zərrədə yaranış, hər göndəriş — zərrədə göndəriş. Hər zərrə tə`yinli göndəriş. O məkanda o bəşərə Müqəddəslikdən göndəriş.
64. Hər yaranış Müqəddəslikdən yaranış, hər yaranış Böyük Yaradandan yaranış, hər yaranış ilkdən İşıqlı yaranış, İşıqla yaranış.

65. Cəm Yaranış altı müddətə İşıqla yaranış *(kainatlar, planetlər).* Hər yaranış — Böyük Yaradanın Rəhmi ilə yaranış.
66. Maddilik tək deyil, vəhdətlədir, tək deyil; vəhdət ahənglədir, tək deyil. Maddi maddi ilədir, tək deyil. Hər varlıq varlıqlarladır, tək deyil.
67. O məkanda yaşıllıq — yaranış, zərrədə — göndəriş, su ilə yaranış.
68. Varlıq varlıqdan uzaq deyil, uzaq etsən də, — uzaq deyil. «Uzaq» deyib — ayırdığın, — uzaq deyil. Varlıqdan — varlıq görəcəksən, o varlıqdan — yenə varlıq görəcəksən.
69. Ayırmaq istədiyin, ayrı deyil, İlki ilədir, — ayrı deyil, ilkinə qayıdandır, — ayrı deyil.
70. O məkana İlkdən ilk göndəriş — o məkana Müqəddəslərdir Göndəriş. Kişidir, qadındır — göndəriş.
71. Söz Mənimlədir, Özlədir, ilkdən söz — Sözlədir, Bir Kökdə, Sözlədir. Danışıq — bir kökdən — sözlədir. Göndərilənlər arasında söz Sözlədir, Bir Kökdən, Sözlədir. Anlam danışıqladır, sözlədir, ünsiyyət sözlədir, bir kökdən sözlədir.
72. «Övlad» dediyin — tə`yinlidir, Böyük Yaradandan tə`yinlidir, Zərrədə tə`yinlidir, Böyük Yaradandan — Rəhmindən tə`yinlidir. «Övlad» dediyin — paydır, Böyük Yaradandan Paydır.
73. O məkana, bəşərə — bəşərdir göndəriş. Böyük Yaradan Müqəddəsliyinə qayıdışdır göndəriş. İlkinə İlki ilə Qayıdışdır göndəriş. O məkanda bəşərə bəşərdir göndəriş, ilk övladdır, göndəriş.
74. Kişi, qadın birdir, — övladları ilə birdir.
75. O məkanda ilk övladın — ilk bəşərin Yaranışına Müqəddəslər gəldilər. Böyük Yaradan Məkanından Göndərildilər, Gəldilər, səf-səf düzülən Müqəddəslərdən Seçildilər, Gəldilər. İlk bəşər yaranışına Müqəddəslər Gəldilər.

76. Bəşər Müqəddəsləri görməz, Müqəddəsləşən bəşər Müqəddəsləri Görər. Müqəddəsləşən Müqəddəsliyi Görər.
77. Müqəddəslikdən Gələnlər Müqəddəsləri Gördülər, Böyük Yaradanın Rəhmini Gördülər. İlk övladı Gördülər, — Sünnətlənmiş övladı Gördülər.
78. «Sünnətlənmək» — yaddaşdır, Yaranan bəşərə yaddaşdır. Bəşərdən deyil Yaranış, Müqəddəslikdəndir yaranış, Böyük Yaradandan, Zərrədədir yaranış.
79. «Sünnətlənmək» yaddaşdır, bəşərə yaddaşdır; kişi ilə, qadınla deyil yaranış, Böyük Yaradandandır — Yaranış.
80. Yaranış yerlə deyil, yerdə deyil, kişi ilə qadınla deyil, Yaranış — Böyük Yaradandan, Böyük Yaradanladır. Bəşər yaranışdır, müddətində müddətə yaranışdır. Hər bəşər Böyük Yaradanına qayıdandır, Müqəddəsliyə —Əbədiyyətinə Qayıdandır.
81. «Övlad» dediyin — Yaranışdır, Paklıqdan Paklıqla yaranışdır, Zərrədən zərrədə yaranışdır. Bəşərdən deyil yaranış, Müqəddəslikdəndir yaranış. Böyük Yaradandan, Zərrədəndir yaranış.
82. İlkdən tək idilər, — yer məkanında üç oldular.
83. O məkana ilk övladlar gəldi, Böyük Yaradan Baxışında gəldi. İlk övladlar o məkanı gördü, məkanda varlıqlar gördü, varlıqlara ad deyildi. Dilə dil deyildi, ilkin sözlə bir kökdən ad deyildi *(cisimlərə, varlıqlara)*. Dildən dil artdı, ünsiyyətə dil artdı, ünsiyyətə söz artdı.
84. İlk oldu, ilk tikili *(ev)* ilk oldu. İlkdən ilk oldu, ilk tikili ev oldu. Qadın yığar, ev yığar, evdə ev yığar, kişi İlki ilədir, İlklədir. İlk Müqəddəslərin azad yaranışı ilə İlklədir, kişi azad bilər çölü, dağı azad bilər, kişi Azad Yaranışını gəzintidə azad bilər. İlkdən Azad idi, o İlk Müqəddəslər Yer məkanında təkliklə azad idi.

85. O məkanda Müqəddəs tək deyildi, Müqəddəslər tək deyildi. Müqəddəslər biri birini axtarışda, o məkanda uzaq olmuş Müqəddəslər biri-birini axtarışda.
86. Axtardılar, — tapdılar, tapılanlar tapıldı, görüşənlər görüşdü. Sözə söz gəldi, o məkanada sözlərə söz gəldi. İlk övladlardan yeni söz gəldi. Hər cismə, hər varlığa, hər hərəkətə ad deyildi, ad gəldi, Müqəddəslər arasında Bir Kökdə Danışığa, o Kök üstündə yeni söz gəldi, ad deyildi, ad gəldi. İlk övladların baxışında, varlıqların özlüyünə, ad gəldi.
87. Bəşər yaranışı rəngdə deyil, rənglə deyil. Rəng — Rəngdədir, Yaranmış Bəşər rənglə deyil. Müqəddəslikdən bəşərləşən rənglə deyil. İlkindəndir *(qırx müddətə uzaq olandan)*, yeni rəngdə deyil.*
88. Yer məkanını dolaşdılar, o məkanda uzaq olanlar yenə görüşdülər. Ayrılarkən tək idilər, görüşdülər — qadınla, övladlarla biri-birini gördülər.
89. Yer məkanı bəşərlə, İlki ilə, Müqəddəslikdən — bəşərlə. Bəşərdən bəşər bəşərləşdi, Böyük Yaradan Rəhmində bəşərləşdi. Bəşər bir yaranışdır, Böyük Yaradandan bir yaranışdır. Bəşər bəşərlə bir yaranışdır.

# IV. Bəşər

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*



*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Böyük Yaradan o Müqəddəslərlə Əbədiyyətdə Əbədiykən — Böyük Yaradan Yatmaz, Mürgüləməz, cəm Yaranış yatmaz, mürgüləməz.
2. Əbədiyyətdə Müqəddəslər Yatmaz, Mürgüləməz, qida ilə Qidalanmaz.
3. Cəm yaranış yatmaz, mürgülüməz. «Yatmaq» — yatmaq deyil, «yatmaq» — bir bağlılıqdır, kainatlara bağlılıqdır. O, — bir yaddaşdır, *(yuxu)* bəşərə yaddaşdır, — müddətində yaranışından qayıdış anına yaddaşdır. Yaranış yaddaşsız, bəşər yaddaşsız deyil. «Yuxu» dediyin — hazırlığındır, yaddaşınla hazırlığındır, Böyük Yaradandan hazırlığındır *(hər bəşərə yuxu ilə Deyimlər Deyilir və anlar Göstərilir).*
4. O məkanda bəşər bəşərlədir, Müqəddəslikdən uzaq olan — bəşərləşdi, bəşər — bəşərlə bəşərləşdi.

5. O övladlar — ilk bəşər, bəşərlə bəşər bəşərləşər. İlk Müqəddəslərin Müqəddəslikləri yaddaşlarda, Müqəddəslikdən müqəddəsliyi yaddaşlarda.
6. Müqəddəslərdən — övladlar, övladlardan — övladlar. Oğullardan, qızlardan nəvələr, nəvələrdən övladlar.
7. Məkanda Müqəddəslər axtardılar, tapdılar, — biri birini tapdılar. Ayrılarkən tək idilər, — qadınla, övladla tapıldılar.
8. Bəşər bəşərləşdi, bəşərlə — bəşərləşdi. Müqəddəslər deyən, — övladlarına deyən; gəldikləri kainatları, Böyük Yaradan Müqəddəsliyini övladlarına deyən.
9. Müqəddəs Müqəddəslikdə, Paklıqla müqəddəslikdə. Müqəddəs varlığı — Pakdır varlığı. Cəm Müqəddəslərin Pakdır varlığı.
10. «Paklıqdan gəlmişik, Pak Et varlığı, Qırx müddətə uzaq idik, Pak Et varlığı». Cəm Yaranış Paklıqdan, Böyük Yaradandan — Paklıqdan.
11. Müqəddəslik — Paklıqla, Paklıq — cəm Yaranışla.
12. «Müqəddəsliyə qayıdış — Paklığa Qayıdış, Böyük Yaradan Məkanına, Əbədiyyətə Qayıdış. Qırx gün yemədin, «qırx müddəti» yad etdin, Müqəddəsliyi Paklıqda, Əbədiyyəti Paklıqda qırx gün yad etdin *(Orucluq)*. Qidan o məkanda *(Yer məkanında)*, qidalarla o məkanda, qidan o məkandan».
13. Zərrədən göndəriş, — Zərrədədir qayıdış; Zərrədə göndəriş — bəşərdir yaranış, zərrədə göndəriş — cisimdir yaranış.
14. Cisim — cisimlərlə ilkinə, Müqəddəsliyinə — bəşərdir qayıdış. Paklıqdan göndəriş, İşıqlı göndəriş, — Əbədiyyətinə İşıqla Qayıdış.
15. Əbədiyyət yaşam deyil. Əbədiyyət — Əbədiyyətlə, Paklıqda Əbədiyyətdə.
16. Əbədiyyət — Böyük Yaradan Ətrafında, Böyük Yaradan Məkanında, Əbədiyyət İşığında.

17. «Qırx gün yemədin, — İlkini yad etdin, qırx gün yemədin — Müqəddəsləri yad etdin, Müqəddəslikdən gəlişi, Müqəddəsliyə Qayıdışı, Müqəddəslərlə bir Sırada Duruşu yad etdin *(Oruclu bəşər).*
18. Varlığını Pak et, — varlığında İşıqları artıracaqsan, məkrdən uzaq, — Qaranlıqlardan uzaq olacaqsan, — Paklığa Qayıdan olacaqsan, Əbədiyyətinə Pak Qayıdan olacaqsan».
19. Pak olmadan, — qalxmır bəşər, Böyük Yaradanına Qalxmır bəşər, Böyük Yaradan Deyimlərini Eşitmir bəşər. Pak olmadan, —Müqəddəsliyə, Əbədiyyətə Qalxmır bəşər. «Pak olmaq» —məqsəd deyil, təmənna deyil. Paklıq —varlığınla, varlığındadır; Qayıdışın Paklığınla, Əbədiyyətdə Paklığınladır.
20. Bəşər qayıdışı — müqəddəslikdən Müqəddəsliyədir Qayıdışı. Bəşərin elmi, rəhmi, səbri, hər cismə, hər varlığa mehribanlığı, xeyirxahlığı, düzgünlüyü — Əbədiyyətinədir Qayıdışı, Böyük Yaradan Əbədiyyətinədir Qayıdışı.
21. Əbədidən Əbədi Yaranış, — Ölümsüzdür Yaranış. O məkana göndəriş, — qayıdışdır göndəriş. Topladıqları ilə qayıdandır hər göndəriş. Təkrar yaranışdır hər yaranış.
22. Əbədiyyət Ölümsüzdür, etdiklərin səninlədir, ölümsüzdür. Göndəriş — Əbədiyyətdən, Müqəddəslikdən, Müddətin — Ölümsüzlükdən.
23. İlk Müqəddəslər müddətində tək-tək döndülər, kainatlara döndülər. Kainatlarda o məkanlara döndülər, Ölümsüzlükdən ölümsüzlüyə döndülər, etdikləri ilə döndülər *(Qırx müddətə uzaqlığa olanlar).*
24. «Müqəddəslərin Müqəddəsliyə Qayıdışı, Böyük Yaradana Qayıdışı» — Bəşərdədir, Bəşərlədir, Bəşərdədir.
25. «Bəşərin kamilliyi» — kamilliyi ilə mehribanlığı, hər cismə, hər varlığa mehribanlığı, «Paklığı» — Müqəddəslərlə, Müqəddəsliyə, Böyük Yaradan Əbədiyyətinə Qayıdışıdır.

26. «Bəşər» — kamil yaranış, kamilliklə — Kamil yaranış, cahilliklə — təkrar yaranış.
27. «Yaranış» — cəm yaranışlarla Bir yaranış. Hər yaranış — Cəm yaranışlarla Vəhdətdə yaranış.
28. Bəşərlədir çox yaranış, bəşərədir — çox yaranış.
29. Yaranışın Anı var, Kainatların, məkanların məkanlaşma Anı var. Yaranışın İlk Anı var. Cəm kainatlarda məkanların məkan anı, cəm kainatların hərəkətinin anı var. Cəm kainatlar bayramda, — o anda bayramda *(İlk Yaranış Anı — altı müddətə yaranış Anı)*.
30. Kainatlarda bayramdır — o anda bayramdır. Yaranışın İlk Anı var, — o an bayramdır, — kainatlarda cəm məkanlarda, hər varlıqda, hər cisimdə, hər məkanın nüvəsində bayramdır, sevincdir, bayramdır *(Novruz bayramı)*.
31. O gün azaddır — Cəm kainatlar azaddır, Müqəddəslər azaddır, «O dünya» dediyində cəm qayıdanlara bayramdır. Yaranışın ilk Anı — bayramdır.
32. Məkanların mərkəzi *(nüvə)* — İşıq Paylı mərkəzi, Payı ilə özlüyü, hərəkətlərdə özlüyü, — cəm kainatlar — bayramda, o anda bayramda.
33. Bayramın anı var, başlanğıcına — anı var, bəşərə — yaddaşdır — başlanğıca yaddaşdır. «On ikisi» — «başlanğıc», — kainatlarda Başlanğıc. Kainatlar məkanlaşdı, altı müddətə məkanlaşdı, «on səkkizinə» məkanlaşdı *(Yer üzərində olan indiki təqvimlə 12 Martda başladı, 18 Martda cəm kainatların yaranışı, kainatlarda isə məkanların məkanlaşması başa çatdı).*
34. Cəm məkanlar hərəkətdə, ilk anı ilə hərəkətdə, «on səkkizinə» hərəkətdə (mart ayı 17,5, 18 tam idi) .
35. Sizə görə «üçdür», «on ikidə» «üçdür» (*üçüncü ay — mart ayı, «on iki» — bir ilin on iki ayı*).

36. Kainatlarda, o məkanda ilk Bayram o Müqəddəslərin yaddaşında, Həmin Gün yaddaşında, Cəm kainatlardakı o Bayram — o An — yaddaşında.
37. «Bayram» dediyin — İşıqla, Rəmzi — odla, işıqla. Kainatlarda yeniləşmə — O gün yeniləşmə. İlk bəşər daş yığdı, ətrafdan daş yığdı, rəngarəng daş yığdı. O, bir yaddaşdır, ilk yaranışa yaddaşdır: — «kainatlar — məkanlarla, — rənglərlə, məkanlarla». Kainatlarda yeniləşmə, — o gün yeniləşmə.
38. O an — bayramdır, cəm kainatlarda Bayramdır. Bayramın anı var, — günəşin zenitdən sonrakı anı var, altı dəqiqə bir oxda tuş duran anı var.*
39. Yaranışın Anı var, kainatların Anı var, Cəm kainatların Böyük Yaradana Səcdədə duran anı var — Bayramın anı var *(17,5 - 18 mart).*
40. O an cəm Yaranışlarla Vəhdət Anıdır, ayrı deyil. Bayram Cəm kainatlarladır, ayrı deyil; O gün «o dünya»da olanlara bayramdır, Bayramdan ayrı deyil; bayramdır — Bağışlanma müddətidir, bayramdır.
41. Yaranış İşığımla başlar, Mənlədir, Cəmlər yaranandır, Mənlədir.
42. Məkanda bəşər Bir idi, birlikdə Bir idi, şadlıqda Bir idi, ruzi qədərində Bir idi *(İlkdən, ilk bəşərlər arasında).*
43. Bəşərləşmiş bəşərdən oğullar, qızlar artdı. Bəşərdən bəşər bəşərləşdi, bəşərlə, — bəşər bəşərləşdi. Bir bəşər ətrafında — nə qədər yaranış, tə`yinat — Böyük Yaradan Rəhmindən tə`yinat. Müqəddəslərlə, Müqəddəsliyə Qayıdışıdır — tə`yinat.
44. Müqəddəslərdən *(məkanınızda ilk Müqəddəslərdən)* yaddaşda — o bəşərə yaddaşda: «İşıq *(günəş)* ortada duranda, Gün ortada duranda» — Bəşər Səcdədə, Böyük Yaradanına Səcdədə, Günəşlə bir Səcdədə, dörd gün Səcdədə».

45. Yaradanın İstiqaməti, — Əbədiyyətin İstiqaməti — Müqəddəslərin gəlişi istiqaməti (*Yer məkanına* görə *istiqamət*: Şimali - *Şərq*).
46. Bəşər — mehriban, biri-birinə mehriban, cəm yaranışa, hər varlığa mehriban.
47. İşıq *(Günəş)* — istiqamətdə, Gün orta istiqamətdə, Qara varlıq o səmtdə, o istiqamətdə. Qara varlıq, —rəngarəngliyi ilə — Özlüyü, Rəngarəngliyi ilə, — Qaranlıqlardan gəldi, Kainatlara Qara gəldi, bəşəriyyət arasına qaranlıqlar gəldi. O istiqamətə gəldi, — bəşər arasına sədd gətirdi, sədd gəldi.
48. Qara Varlıq — Sədd, Böyük Yaradanla bəşər arasına Sədd.
49. Qara varlıq istəklədir: «Bəşər qara varlıqla Qarada qalsın, İşıq azalsın, Qara qalsın; hər varlıq qara ilə qarada qalsın».
50. Qarada İşıq yox, Qara varlıqda kinayə çox: «Qara varlıq qalibdir». Kainatlara yox, hər Varlığa yox, — Bəşərə qalibdir.
51. İşıqdan yaranan bəşərdir, İşığa qayıdan bəşərdir. Bəşər İşıqla, — Cəm kainatlarla, İşıqla.
52. Bəşər Müqəddəsliyinə Qayıdar, — çox olar, İşığa — İşıqlı çox olar, Kainatların Hüdudları daha geniş olar.
53. İşıqdan İşıq artar, Kainatlarda İşıq artar, Oval (*Ellipsoid — formalı Kainat*) böyüyər, — Böyük olar, Qaranlıqlara İşıqlıq daha çox olar.
54. Qara varlıq Qaradır, Geyimi ilə qaradır, varlığı Varlığı kimi qaradır. Qara varlıq bir varlıq, — Sifətləri saysız varlıq.
55. Böyük Yaradan Baxar, Gözlər, — Yaranışa Baxar, Gözlər, Səbrlə Baxar, Gözlər. Kamil yaranışı, Kamilliyinə Qayıdışını Gözlər.
56. Müqəddəslikdə Rəng yox, Pak İşıqda rəng yox, Əbədiyyət — İşıqla, Ağ Pak İşıqla.
57. Böyük Yaradan, — Yaradan. Qara varlıq — Dağıdan. Dağıtdığını dağıdar, — bəşəri Özü ilə dağıdar: «Pak İşığı az et-

sin, Bəşəri Əbədiyyətdən etsin. Bəşər təkrar yaranış olsun, kiçikdən kiçik olsun, — İşıqlar — az olsun, Vəhdətlər — uzaq olsun, ahənglər — dayanan. İşıq — varlıqlarda qara olsun, qaranlıqla — qara olsun.

58. Kamil Yaranış, — İşıqdan uzaq, cahillikdə — cahil olsun, Qara varlıqla bir olsun. İşıq olmasın, Kamillik olmasın, Elm olmasın, Qara ilə, — qaranlıqlar olsun. Bəşəri kamillikdən uzaq etsin, bəşər bəşəri, varlığına hakim, qaranlıqla məhv etsin». Bəşər dağıdar, məhv edər, Böyük Yaradan — məkanı İşıqlı Edər.
59. Bəşər kamilliyi məhv edib, — Özünü məhv edər; Böyük Yaradan Kamillikdən İşıqlı kamillik tə`yin edər, İşığından Zərrədə tə`yin edər (*daha kamil bəşər, elmli, yaradıcılığa xidmət edən bəşər*).
60. Böyük Yaradan — Yaradan, Qara varlıq — dağıdan, kamil yaranışı qaranlıqları ilə məhv edən.
61. Qara varlıq hakim bildi, — özünü bəşərə hakim bildi: «İşıq azalsın, yox olsun, Qaranlıq Hakim olsun. Elmdən uzaq, Zəkadan uzaq bəşər özü-özünü məhv etsin. Özünə qaranlıq, ətrafına qaranlıq, ərazini qaranlıq etsin».
62. Bəşər istədi, Məkri — Qara Varlıqdan, Rəhmi — Böyük Yaradandan, axtardı.
63. Axtardı, Böyük Yaradanı axtardı, Rəhmi Böyük Yaradandan axtardı.
64. Bəşər məkri başqasına istədi, — məkri ilə qaranlığı özünə istədi. Cəzalardan özü özünə cəza istədi. Məkri məkri ilə, — məkri — özü ilə.
65. Bəşər — bəşərlə, kamilliklə bəşərlə, mehribanlıq bəşərlə, sevinc də bəşərlə.
66. Rəhmi Böyük Yaradandan *(bağışlanma)*, məkri Qara varlıqdan axtardı. Axtarar, bəşər Böyük Yaradanı axtarar, Rəhmi Yaradandan axtarar.

67. Saysız illər keçirdi, bəşər Müqəddəsliyə gedirdi. Müddətlər müddətlərdə keçirdi, Bəşər Müqəddəsliyə gedirdi. Mehribanlıq bəşərlə, — ruzilər bəşərlə, Bəşər — Bəşərlə (*aralarında sərhədd yox*).
68. «Sizlərin» yox, «bizlərin» yox, hər ruzi qədəri — bəşərlə, mehribanlıq — bəşərlə, rahat yaşam — bəşərlə, Ölümsüzlük — Bəşərlə, Müqəddəsliyə qayıdış — Bəşərlə. Hər bəşər işıqlı, varlığında İşıqlı.
69. Hər cismə hədd yox, hər cismə sərhədd yox.
70. Özündə İşığı, cisimdə işığı, kainatlarda işığı, Böyük Yaradandan İşığı, Əbədi İşığı Anlamağa hədd yox, sərhədd yox. Kamilliyi kamilliklə, elmlərə kamilliklə, Müqəddəsliyi dərk etmək — Elmlə, kamilliklə; ona hədd yox, sərhədd yox.
71. Bəşər, Cəm yaranışlarla bir yaranış, Yaranışdan yaranış, Müqəddəslikdən yaranış, o məkana göndərişsiniz.
72. Tə`yinlənmiş işıq məkanı *(Günəş)* ətrafına, o məkana göndərişsiniz. Günəş ətrafında bir hərəkət, Mənim Ətrafımda Cəm hərəkət (*Cəm Kainat, Cəm Yaranış*).
73. Sizlər (bəşər) kamilkən, — cahilləşər, özünə bəla toplar, ətrafınıza bəla yığarsınız.
74. Varlığınıza qaranlıq, — ətrafınıza qaranlıq, işıq məkanınıza *(Günəş)* qaranlıq gətirərsiniz. Varlığınıza qaranlıq, — ətrafınıza qaranlıq, ahənglərə qaranlıq.
75. Sizin cahilliklə qaranlığınız — ətraf məkanlara qaranlığınız. Bəşər qaranlıq toplar, — Mən İşıqdan İşıq Artıraram, Zərrələrlə Artıraram. Vəhdət Pozulmaz, Ahəng Pozulmaz. İşığımın Qədəri Pozulmaz, bəşər azaldar, Mən Artıraram.
76. Qaranlıq qədərlərindən qədərlər toplayan bəşər cəzasız qalmaz. Cəza istəyində cəzasız qalmaz.
77. İşığımladır Yaranış, Qaranlıqla yox yaranış Qaranlıqdan qaranlıqlar gətirən qaranlıqlardan kənarda qalmaz.

78. Qaranlıqlardan qaranlıq gətirən bəşər qaranlıqla kənarda qalmaz, Qaranlıqlar toplayan qaranlıqlarda qalmaz, İşığımdan Zərrələrdən kənarda qalmaz. İşıqdan yaranış kənarda qalmaz. Hər yaranış Cəm Yaranışdan uzaqda qalmaz. Ətrafındakı cisimlərdə, varlıqlarda olan İşıqlardan, yaranış İşığından kənarda qalmaz.
79. Bəşər ətrafına qaranlıqlar gətirər, ətrafında cisimlərə, varlıqlara İşıq Artıraram. Yaranış Qaranlıqlarla qalmaz. İşıqdan yaranış kənarda qalmaz, hər yaranış, hər yaranışdan uzaqda qalmaz.
80. Cəza toplayıb, — cəza tələb edən — cəzasız qalmaz.
81. Cəm Yaranışı İşığımdan, Rəhmimdən, Sevincimdən, Səbrimdən Yaratdım. Mən Cəzaverən Deyiləm. İşığımdan, Rəhmimdəndir Yaranış. Yaranış Yaratdım, yaranışı Cəzaya Yaratmadım. Kamillikdən kamil yaranışlar Yaratdım. Mən Cəzaverən deyiləm, yaranış — İşığımdan, Rəhmimdən yaranış.
82. Bəşər cahilləşib, — Qaranlıq toplar, Mən — İşığımdan daha kamil Yaranış Tə`yinləşdirib Göndərərəm. Bəşər *(sizlər)* azaldar, Mən Artıraram, qədərləri qədərində *(ruzi qədəri, uğur qədəri)* Artıraram. Kamilləşdikcə, kamilləşər bəşər. Elmlərlə elmləşər bəşər, Elmlərlə kainatlara qalxar bəşər.
83. Bəşərsiniz, yaranışa bəşərsiniz, qədərlərdən qədərli bəşərsiniz *(hər bəşərin özlüyü, öz kamillik qədəri var)*. İşıq Zərrəmdən göndəriş, bəşərlə bəşər arasına göndərişsiniz, sizlər Yaradandan yaranışsınız.
84. Yaranmış bəşər — o məkana tə`yinli bəşər. Hər gördüyün canlı varlıq, — o məkana canlı varlıq, Mənim Baxışımda tə`yinli varlıq.
85. Mənlədir Yaranış, yaranışlaradır Yaranış. Yaranmış Yaranış yarada bilməz. Kişi ilə qadınla deyil yaranış.

86. O məkana, o bəşərə *(Bəşər)* topladıqları cəzaların qədəri gələrkən, bəşər bəşəri, varlıq varlığı hifz edə bilməz.
87. Rəhmli Mənəm, Hifz edən Mənəm, Qədərlərdən qədərləri Bilən Mənəm, Qədərlərdən qədərləri Görən Mənəm.
88. Nəhayətsiz kainatlarda fərd yoxdur, Yaranışa fərd yoxdur. Vəhdətlərə, ahənglərə fərd yoxdur, Cəmlər arasına fərd yoxdur.
89. Cisimlərdə fərd, bəşərə fərd *(tək özü)* yoxdur.
90. Baxışımda, — Səbrli Baxışımda, Yaranışlar arasına fərd yoxdur. Vəhdət axımında fərd yoxdur, cəmlər arasında cəmdir yaranış, Yaranış arasına fərq yoxdur.
91. Kainatlarda məkanlara fərd yoxdur, işıq məkanı *(günəş)* ətrafında o məkanlara fərd *(tək)* yoxdur.
92. Fərdlər Yaratmadım, Cəmlər Yaratdım, Yaranışa bəşərə fərq yoxdur.
93. Kamilliyə fərq yoxdur, Elmlərdə elmlərə fərd *(tək)* yoxdur. Cəm yaranış — Vəhdətimdə yaranış, yaranışa fərq yoxdur.
94. Bəşəri bəşərdən ayırmayın, — özünüzü Özünüzdən ayırmayın; özünüzə ayırmaq istəyəcəksiniz, — özünüzü Özünüzdən ayırmayın.
95. Cəm Elmlər — fərdə deyil, elmlər elmlərlədir, fərdə deyil.
96. Gələcək, gələcək elmlərə elmlər gələcək, bəşər elmlərlə kainatlara qalxacaq, İşıqdan İşıqla qalxacaq.
97. Gördüyün bəşər dönəndir, daha kamil bəşər göndəriləndir. Elmlərə elmlilər, elmlərə İşıq göndəriləndir.
98. Uzaq məkanlardan məkanınıza gələnlər olacaq. Elmlərinizə Elmlə gələn olacaq. O gələnlər görəcək, — elmlərinizi, özünüzü məhv etmədə görəcək.
99. Bəşər Yaranışı qarşısında sədd yoxdur.
100. Böyük Yaradan Qarşısında sədd yoxdur. Rəhmimə sərhədd, hədd yoxdur. Baxışıma sərhədd, hədd yoxdur. Mehribançılığıma sərhədd yoxdur.

101. Yaranışın Qədərinə hədd yoxdur. Yaranışa qədər var, hədd yoxdur.
102. Cəm yaranışa Baxışımın Qədəri var, hədd yoxdur. Qədər Qədərindədir, hədd yoxdur. Yaranış Qədərindədir, say yoxdur.
103. Yığdığınızın qədəri var, hədd yoxdur. Rəhmimə Sərhədd yoxdur. Cəm yaranışa Rəhmim Qədərindədir, hədd yoxdur, cəza istəyiniz qədərindədir, hədd yoxdur. Etdiklərinizlə cəza istəklərinizə qədər var, hədd yoxdur.
104. Mənim İşıq Zərrələrimdən paylıdır hər yaranış.
105. İşıq yoxsa, Zərrə yoxsa, Böyük Yaradandan yaranış yox, varlıq yox.
106. Hər varlıq kamilliklə, Elmlə böyümək istəməsə, Yaranışın Baxışımda kiçiyi, böyügü yoxdur.
107. Mən toplayıb yığan Deyiləm; Səbrimlə, Rəhmimlə Cəm yaranışlar arasında yaranışdır hər yaranış. Varidatlardan Varidatım — kainatlar, varlıqlar, yaranışlar, bəşərdir Varidatım.

     Nəzərimdə Yoxdur yaranışın kiçiyi, böyügü Yoxdur. Ətrafımdadırlar Ağ geyimlilər, — Əbədidən Əbədi yaranışlar, Müqəddəs yaranışlar, Əbədidə Əbədi İcraçılar — onlar, o Müqəddəslər.
108. Öz kamilliyi ilə varlıqlarda kamilliyi axtarsın bəşər. Kamillik bəşərin varlığında, özündədir. Kamillik yaddaşındadır, kamillik qədərini özündə axtarsın bəşər.
109. Məni cəm yaranış səslə çağırar, — hər yaranış varlığını Eşidər, Görərəm.
110. Zərrədə göndərişi zərrələr əhatəsində Görərəm. O ərazilərə qaranlıq gətirən bəşərləri Görərəm. Özlərində qaranlıqları ilə Görərəm.
111. Qaranlıq toplayanların cəza istəyinin qədərlərini Görərəm. Zərrələr ahəngini pozanları Görərəm.

112. Müddət — müddətindədir, an — anındadır, Səbrlə Baxıb Gözlərəm. Bəşər ziyankarlıqla qaranlıq topladıqlarına, Zərrələr paylarından zərrələr Ayıraram, İşığımdan İşıq Payı Göndərərəm.
113. Bəşər Yer məkanına yalan, iftira, qan gətirdikcə, işıq məkanında *(günəş)* zərrələr axımının ahəngini pozarlar. İşıq məkanında ahəng pozular, ətraf məkanlarda da zərrələr axımının hərəkət ahəngi pozular.
114. Hər varlıq öz İşıq qədəri ilə ahəng qədərini bölüşər.
115. Qaranlıqları gətirməyin, — varlıqlarınıza qaranlıq, o məkanınıza qaranlıqlar gətirməyin.
116. Bölünəcək bölünəniniz yoxdur, bir varlığın varlığı bölməyə böləni yoxdur. Sizlər bölər, — İşıq payınızdan İşıq sərf edərsiniz, Zərrə ahəngi pozulmaz, qədərlərdən qədər pozulmaz.
117. Kamillikdən uzaqdır o Qara varlıq, Cahilliyə çox yaxındır o Qara varlıq, Kamillikdən uzaqdadır o Qara varlıq.
118. Kamillik ətrafında dolaşar o Qara varlıq, cahilləşən cahilin varlığına hakim olar o Qara varlıq. Kamilləşənin ətrafında dolaşar o Qara varlıq.
119. Rəhmimdədir hər yaranış, Diqqətimdədir hər yaranış, Mənə qayıdandır hər yaranış.
120. Müqəddəslikdən müqəddəsdir hər yaranış, kainatlara qalxa biləndir hər yaranış. Yaranışını dərk edə bilməyən bəşər — özünü dərk edə bilmir.
121. Kamilləşdikcə kamilləşən, cahilləşdikcə cahilləşən bəşər İşığımdan uzaq deyil, Yaranışdan uzaq deyil.
122. Cahilləşən bəşər varlıq qədərini dəyişməz, Əbədi yaranış Yaranış Qədərini dəyişməz. Mənim İşıq Qədərim Tükənməz, Zərrələr İşığımdandır, Tükənməz.
123. Mənim İşıq qədərim azalmaz, hər varlıq Vəhdətimlədir, Mənlədir, azalmaz. Qədərlərdən yaranış qədərləri azalmaz.

124. Cahilləşən bəşər varlıq qədərini dəyişməz, — əbədi yaranış dəyişməz; cahilləşən, vəhşiləşən bəşər *(varlıq)* özünə təkrar yaranış istər, yaranışı dəyişməz.
125. Sən bəşərin bəşəri yaranışı səndən əvvəlki «sənlədir», səndən əvvəlki «bəşəriliyi» ilə yeni yaranışı sənlədir.
126. Kamil ikən cahilləşən, cahillikdən vəhşiləşən, vəhşilikdən — vəhşi yaranış.
127. Ölüm yoxdur, Ölümsüzlükdə ölüm yoxdur. Yaranışların təkrarı var, ölüm yoxdur. Əbədiyyətdə yaranış var, müddətində qayıdış var. Ölüm yoxdur, Əbədiyyətdə Ölüm yoxdur. Əbədiyyətdə əbədi yaranış, əbədiyyətdə Ölümsüz yaranış.
128. Varlıqlar cansız deyil, kainatlar yaşamsız, məkanlar cansız deyil. İşıqdan yaranış cansız deyil.
129. Görə bildiyiniz məkanlar İşıqladır, zərrələrdə, zərrələr əhatəsindədir, İşıqladır.
130. Hər məkan *(planet)* — mərkəzində İşıqladır, İşığımdan İşıqladır. Mərkəzdə İşıq rahatdır, — o məkan rahatdır *(passiv məkan).*
131. Hər məkan daşladır, torpaqladır; varlığı nəmlədir, rəng ilə rənglədir *(Cəm kainatlarda hər məkanın özlü rəngi var).*
132. İlk İşığımın Qədərindən məkanlar rənglərdə rənglədir.
133. İşıqlarda işıqlar, zərrələrdə zərrələr hərəkəti Mənlədir, Rəhmimdə Mənlədir.
134. Məkanınızda «bəla» dediyiniz sizlədir, topladığınız sizlədir, topladığınızın, qədərlərin sərfi sizlədir; zəlzələlər, daşqınlar, tufanlar sizlədir, topladığınız qədərlərin sərfi sizlədir, ruzisizlik sizlədir. Zorakılığınız — qaranlığınızdır, sizlədir.
135. Yaranış yaranışa hakim deyil, varlıqlar varlıqlara hakim deyil, məkan məkana hakim deyil, qit`ə qit`əyə hakim de-

yil, sular sulara, cəhətlər cəhətlərə, bəşər bəşərə hakim deyil.

136. Hakim Mənəm, Mən Özüməm, Yaradan Mənəm, Mən Özüməm, Qədərlərdən qədər Ayıran Mən Özüməm, Rəhmli, Sevincli Mən Özüməm, İşıq Payımdan pay Ayıran Mən Özüməm.

137. Elmlərə Elm ayıran Mən Özüməm, elmlərə İşıq gətirən Mən Özüməm, Qaranlıqlara İşıqlı Baxan Mən Özüməm.

138. Topladığınız qaranlıqlara İşıq Ayıran Mən Özüməm. Mehribanam, Mən Özüməm, Səbrliyəm, Mən Özüməm. Qədərlərdən qədər Ayıran Mən Özüməm *(ruzi qədərləri).*

139. Hakim Olmalıykən, — Rəhmliyəm, Hakim Olmalıykən, — Mehribanam, Mən Özüməm.

140. Cəzalarınızı Bağışlayan Mən Özüməm. Topladığınız cəzaların Cəzasına Rəhmli Olan Mən Özüməm.

141. Cəm Kainatlara, cəm yaranmış varlıqlara Rəhmlə Baxan Mən Özüməm.

142. Baxışım Sevincli, Rəhmli Baxışımla Sevincli, Mehribanam, Sevincli.

143. Yaranış Yaratdım, — Yaranışa Yaratdım, Cəza Yaratmadım, Əbədi Yaranışı Cəzaya Yaratmadım.

144. Cəzaya yaranmadınız, Əbədi Yaranış — Cəzasız Yaranış.

145. Cəza sizlədir, cəza istəyiniz sizlədir, sizi Müqəddəslikdən uzaq edən sizlədir, bəla, qan, dağıdıcılıqlar gətirən sizlədir.

146. Varlıqlara qaranlıq, elmlərə qaranlıq, kamilliyə cahillik gətirən sizlədir.

147. Sizi sizdən uzaq edən *(qara varlıq)* sizlədir, Müqəddəslikdən uzaq edən sizlədir. İşıqlara qaranlıq gətirən sizlədir.

148. Sizi — sizdən, kamillikdən uzaq edən sizlədir, Müqəddəs Qayıdışa, Əbədiyyətə Qayıdışı uzaq edən sizlədir *(yalanlar, iftiralar).*

149. Elmlərdən elmləri, bəşəri kainatlardan uzaq edən sizlədir. Cəzasızlığınıza cəza topladan sizlədir.
150. Məkanınıza gələcək, — elmlər gələcək, İşıqdan işıqlı bəşər gələcək. Kainatları açıb Deyən gələcək. Sizi kainatlara, işıqlar *(günəş)* məkanları ətrafına qaldıranlar gələcək.
151. Elmlərə İşıqlı elmlilər gələcək.
152. Cəzalar topladığınızın sərfi gələcək. Tə`yinli məkanlarda cəzaları sərf etdirən gələcək.
153. Topladığınız bəlaların özünüzlə özünüzə sərf etdirən anı gələcək.
154. Yaranış qayıdandır, Mənim Ətrafıma qayıdandır, işıqlı kainatlara qaranlıqlar toplayanlar etdikləri ilə, məkri ilə Mənim ətrafıma qayıtmaz.
155. Kainatların ahəngi pozulmaz, bəşər o ahəngləri pozmaz, İşıqlara, Əbədiyyətə qaranlıqlarla qalxmaq olmaz.
156. Paklığa, Əbədiyyətə qaranıqlarla dönmək olmaz.
157. Əbədi İşıqları kainatlarda, varlıqlarda, cisimlərdə pozmaq olmaz.
158. Bəşər İşığı *(Ruhu)* ilə, Pak İşığı ilə, Əbədiyyətə Paklığı ilə Qayıdar. İşıqlar arasına, yeni yaranacaq yaranışlar arasına qaranlıqlar gətirmək olmaz.
159. Kainatlar Ahəngi pozulmaz, bəşər varlığı o Ahəngi pozmaz. İşıqlara, zərrələr axımına qaranlıq gətirmək olmaz. Paklığa qaranlıq gətirmək olmaz. Əbədi İşıqları kainatlarda qaranlıqlarla azaldıb pozmaq olmaz.
160. Bəşər İşığı, *(ruhi)* paklığı ilə paklığa qayıdar. Pak İşıqlar arasına qaranlıqlar gətirmək olmaz.
161. Məkanımdan, Paklıqdan, Müqəddəslikdən Göndərilənlər olubdur, müddət-müddət Göndərilənlər olubdur, Bəşər arasına bəşərin ilkini Deməyə Göndərilənlər olubdur *(Peyğəmbərlər)*.

162. Qaranlıqlarda olanlar, İşıqdan uzaq olmaq istəklilər İşıqdan İşıqlı Göndərişlərimi məhv ediblər. Zahirən məhv ediblər.

163. Məkanımdan Göndərilənlər Məkanıma dönərlər, İşığımdan Göndərilənlər İşığına dönərlər *(Qayıdarlar).* Paklıqdan Pak Göndərişlər Paklığına dönərlər, Qayıdarlar, Mənə — Məkanıma Əbədiyyətinə Qayıdarlar.

164. Qaranlıqda qalmaq istəklilər qaranlıqlarda qalar; özlərinə, ətraflarına qaranlıqlar gətirər, Qədərlərdən qədərləri artmaz, azalar ki, artmaz *(ruzi qədərləri, say qədərləri).*

165. O Göndərilənlər *(Peyğəmbərlər)* Qayıdar — İşıqlarına Qayıdar, Əbədi əbədiyyətindən Əbədiyyətinə Qayıdar. Bəşərə, bəşəriyyətə İşıqlar Gətirən — Əbədiyyətinə Qayıdar.

166. Soruşub bəşər, düşünüb bəşər: «Göndərişlər niyədir, nəyədir?»

167. Göndərilənlərim Göndərilər, — bəşər arasına Göndərilər. Bəşər özündən, bəşər bəşərdən uzaq olduqca, kainatlardan, Məndən kömək dilər. Bəşər qaranlıqlar arasına qaranlıqlar topladıqca, Göndərilənlərim Göndərilər.

168. Bəşər məkana qan gətirər, bəla gətirər, dağıdıcılıq gətirər, — ruzi qədərlərindən ruzisizliklər gətirər, — bəşəriyyət Məndən kömək dilər; Mən Görər, Mən Eşidərəm, Cəm yaranışı Eşidərəm. Bəşəri bəşərə deyən Göndərərəm, elmlərə Elmlər Göndərərəm, Paklıqla, Müqəddəsliklə Göndərərəm.

169. Göndərilənlər Müddətinə, — o müddətə Göndərilər. Bəşərə kamilliyi, Əbədiyyətini, İşıqdan Yaranışını Deyən Göndərilər.

170. Mən Cəza Verən Deyiləm, — Qaranlıq toplayanlar arasına Qaranlıq Göndərən Deyiləm, qaranlıqlara İşıqları İşıqlı Deyənlər Göndərərəm.

171. Mən Cəza Verən deyiləm, cəzaların qədərini, bəşərin topladığı qaranlıqların qədərini özlərinə Açaram, Göstərərəm. Zəlzələlər, tufanlar, aramsız yağan sular Göndərərəm.

172. O Göndərdiklərim Bəla deyil, o Göndərdiklərim Cəza deyil. Qaranlıqlar toplanar, — o ərazilərə qaranlıqlar toplanar, o bəşər ətrafına qaranlıqlar toplanar. O Göndərdiklərim əlamətdir, Cəza deyil, əlamətdir.

173. Qaranlıq toplayanların məhvi gələr. Yaşam məkanına toplanan qaranlıqlara məhv gələr. Qaranlıqları dağıdıb, qaranlıqlara İşıq Göndərərəm, İşıqları bir toplumda İşıqlı Edərəm, — İşıq axımını Vəhdətdə Edərəm.

174. O bəşər qaranlıqlarda qalmaz, qaranlıq toplayanlar qaranlıqlarda qalmaz, Yer məkanı qaranlıqlarda qalmaz. Qaranlıqlara qaranlıqlar toplanmaz.

175. Qaranlıq toplayanların məhvi gələr, — Yaşam məkanlarında qaranlıqlara İşıq gələr.

176. Ərazilər, — o ərazilər zahirən dağılar, dağıntıya gələr; Yer məkanı Qaranlıqlardan uzaq olar, ilkindən ilkinə gələr, ilk İşığı ilə İşığına gələr.

177. O bəşər dərk etməz; bəşər dərk etməz — zələzələləri, daşqınları, tufanları dərk etməz, göz önündə olanları dərk etməz — Qaranlıq topladıqlarından azad Edərəm, — dərk etməz.

178. Rəhmimdən Rəhmlə Baxaram, dərk etməz. O, Cəza deyil, bəşərə Cəza deyil, — toplanmış Qaranlıqlara İşıq Göndərərəm, o bəşərə İşıq Göndərərəm, o ərazilərə İşıq Göndərərəm. Xəbərdarlıq Göndərərəm, — bəşər dərk etməz, qaranlıqlarına yenə qaranlıqlar toplar, bəşərin özü ilə özünə cəza toplar. O bəşər cəzasız, o ərazilər cəzasız qalmaz.

179. O bəşərə göndərilər, — cəzaları sərf etdirən göndərilər. O bəşər səslər, Məni yenə səslər, kainatlardan Məni səslər.

180. Rəhmimdə rəhm Göndərərəm, Elmlərdən elm Göndərərəm, Ruzilərdən ruzilər qədəri Göndərərəm, — o bəşər unudar, yenə unudar.
181. O bəşər görər — özünü hakim görər, cahilliyə yenə baş əyər, Rahatçılıqların da Əvvəlini unudar.
182. Mən cəza verən deyiləm, — o cəzaları o bəşərə sərf etdirəni bəşər özü istər, özünə cəza qədəri istər.
183. Hər yaranış — bəşərə yaranış, hər göndəriş — bəşərə göndəriş.
184. İşıqdan İşıq qədəri azalmaz, o məkanlarda İşıq qədəri azalmaz, Əbədi İşıqlara Qaranlıqlar gəlməz.
185. Qaranlıqlar müvəqqəti gələr, Qaranlıqlar özü ilə dağıntılar, zülm gətirər, bəla gətirər.
186. Xilas olun, xilas — sizinlədir, sizlədir.
187. Qaranlıq ətrafınızda, İşıq varlığınızdadır, sizlədir. Kamillik sizinlədir, sizlədir, Cahillik ətrafınızda, yenə sizlədir.
188. Xilas olun, — xilas sizinlədir, sizlədir; mehribanlıq, rəhm, sevinc, düzgünlük, elm, təmənnasızlıq sizlədir; xilas olun, xilas sizinlədir, sizlədir; İşıq sizinlədir, sizlədir. Əbədiyyətə Qayıdış sizinlədir, sizlədir.
189. Böyük Rəhmim sizinlədir, sizlədir, elmlərdə Elmlər sizinlədir, sizlədir, mehribanlıq sizinlədir, rəhm, sevinc, təmənnasızlıq, elm sizinlədir, sizlədir. Xilas sizdə sizlədir, İşıq sizdə sizlədir, Əbədiyyətə Qayıdış sizdədir, sizlədir.
190. Hakimsiniz, — hakimliyiniz sizinlədir, sizlədir; Hakimliyiniz — Qayıdışınızdır, Pak İşığa Paklıqla Qayıdışınızdır, Əbədiyyətə Rəhmdə Qayıdışınızdır, Rəhmimə — rəhmlə, İşıqla, elmlə Qayıdışınızdır. Dağıtmaq — zəifliyinizdir *(dağıtmaq, müharibələr, riyakarlıqlar, təmənnalar, məqsədlər),* elmsizlik — zəifliyinizdir, cahilliklər, — təkrar yaranışınızdır, — sizlədir.

191. Həqiqət sizinlədir, sizlədir, düzgünlük sizinlədir, sizlədir, sevinc sizinlədir, sizlədir. Yaranışlar arasında sülh sizinlədir, sizlədir, bölünməyən sizinlədir, sizlədir, hər ruzi qədəri sizinlədir, sizlədir.

192. Xilas — İşığınız — sizinlədir, sizlədir. Təkrar vəhşi yaranış —sizinlədir, sizlədir, yerdə yaşam — sizinlədir, sizlədir, Müqəddəsliyə Qayıdış — sizinlədir, sizlədir.

193. Zəka sizinlədir, sizlədir, Əql sizinlədir, sizlədir.

194. Bu Deyimlər sizinlədir, sizlədir, zorakılıqla deyil, Dərk etmək —sizinlədir, sizlədir. Dərk etmək istəyiniz sizinlədir, sizlədir.

195. Kainatlara üz tutub Məni çağıran — özünüzdədir, sizlədir, Rəhmimi diləyən özünüzdədir, sizlədir.

196. Qaranlıqlarda İşıq axtaran özünüzdədir, sizlədir. Mən sizinləyəm, sizləyəm, Yaranışdan sizinləyəm, sizləyəm. *(Ya Böyük Yaradan, Sən olmasa idin, mən necə olardım, Sən Deməsə idin, mən necə deyə bilərdim. Səni Görə bilməsə idim, Səni necə deyə bilərdim, İşığından İşığını görməsə idim, mən necə Görə bilərdim. Sənsiz olmayım, İşığından, Rəhmindən uzaq olmayım.* — Vahiddən Böyük Yaradana bu andakı şükürlər.*)*

197. Ey bəşər, İşıqdasan, İşığımdan İşıqdasan, İşıqlar əhatəsində işıqdasan.

198. Gördüyün hər cismə, hər varlığa mehriban ol, hər bəşərə mehriban ol, ətrafına mehriban ol. Başladığın hər işə mehriban ol, mehriban bax, mehriban ol. Hər varlıq sənin İşıq payından qədərli, o varlığın İşıq qədəri sənin İşığınla həmahəng qədərli.

199. Etdiyin işə İşıq gətir, İşığınla İşıq gətir, — varlığından İşığın tükənməz, — varlığına İşıqlardan İşıq toplarsan. Mehriban ol, cəm yaranışlara mehriban ol.

200. Varlığında İşıq artır, — o məkanda İşıq artar, — hər anın, hər addımın uğurla olacaq. Etdiyin işlər uğurla olacaq.
201. Qədərinə qədər var, hər işinə qədər var, İşığınla o İşıqlara qədər var *(qismət, ruzi qədərin, uğurun).*
202. Mehribanlığınla, rəhminlə Pak İşığı varlığında artırarsan; İşığınla, etdiklərinlə *(xeyirxahlığınla)* — rahatçılıqlarını artırarsan. Ətraf məkanlara *(planetlərə),* cəm kainatlara İşıqları artırarsan, Əbədiyyətinə Əbədi İşığını, bağışlanmanı — bu gün artırarsan.
203. Sülh istəyinlə sülhü artırarsan, rəhminlə rəhmi artırarsan, ətrafına rəhmi, mehribanlığı artırarsan.
204. Mənim İşıq Vəhdətimi İşıqlarınla artırarsan. Ətraf məkanlara, cəm kainatlara İşıqları artırarsan. Əbədiyyətinə əbədi İşığını artırarsan.
205. Cəm cisimlərdə İşıqları artırarsan, kainatlarda İşıqları, Ruzilərdən ruzi qədərini artırarsan.
206. Qaranlığa yer olmaz, Qara varlığa yer olmaz, — sənə Qara varlığın qalibiyyəti olmaz.
207. Görənsən, sən də Görənsən. Varlıqlarda İşıqları, kainatlarda İşıqları, Əbədi İşıqları sən də Görənsən.
208. Yaranışlar arasında sən də yaranışsan; İşıqlara İşıq gətir, etdilərinə İşıq gətir, hər işinə İşıq gətir, bəşəriyyətə İşığınla İşıq gətir, — Kainatlara, hər məkana İşıq gətir, Vəhdət İşığına İşıq gətir.
209. Qaranlıqlardan işinlə uzaq ol, hər cismə, hər varlığa mehriban ol, İşığını artıran ol, kainatlara, məkanlara İşıqları artıran ol.
210. «O dünya» dediyin — dünya deyil, qayıdışın, hələ, o Qayıdış deyil. Qayıdışın — yığdığınladır, — elminlə, rəhminlə, xeyirxahlığınla etdiklərinlədir, — topladıqlarınladır.

211. «O dünya» dediyin — dünya deyil, «o dünya» dediyin — yığdıqlarının sərfi ətrafına istədiklərinin qədəridir.
212. Qorxu toplamasan, — qorxun yoxdur, haram toplamasan, — haramın yoxdur, qaranlıq toplamasan, — qaranlığın yoxdur. Qaranlıq topladığın — qaranlığındır, görməz gözlərin — qaranlığındır. O, qədərindir, qarşındakı səddir, qədərindir.
213. O məkanda gördüklərin sənin deyil, o məkan sənin deyil; varlıqlar arasında sən də varlıqsan, o varlıqlar sənin deyil; o məkanda hakimliyin sənin deyil.
214. İftira gətirər, — iftira iləsən; yalan gətirər, — yalanlasan; qan gətirər, — qanlasan. Dağıntı gətirər, — dağıntıdasan.
215. Rəhm sənindir, iftira sənin deyil; mehribanlıq səninlədir, yalan sənin deyil; qan gətirmək — qaranlığındır, o qaranlıq — sənin deyil.
216. O məkana hakim olmaq — sənin deyil, sənin olmayan — sənin deyil. Məkr sənin deyil. Sənin olmayan — sənin deyil, cisimlər — sənin, varlıqlar — sənin deyil.
217. Ətrafına rəhmli ol, — Mən Rəhmliyəm, ətrafında hər yaranışa Rəhmliyəm, səbrli ol, — Mən Səbrliyəm, ətrafındakıları Mən Görərəm, Səbrliyəm.
218. «Dünya» dediyin — yalan deyil, «Dünya» dediyin — Yaranışdandır, Yaradanladır, — yalan deyil, varlıqlar ətrafında — Yaradanındır, — heç deyil.
219. Sən — yarandın, Yaratdım — Yarandın, ətrafında hər cisim, hər varlıq, kainatlar yalan deyil.
220. O məkan sənin deyil, o məkan — göndərişin, o məkanda yerin yoxdur. O məkanda yığdığın — qayıdışın, qaranlıqlar yığarsan, — cəzan, İşıq yığarsan, — Əbədi İşığa Qayıdışın. O məkanda gördüklərin sənin deyil. O məkan sənin deyil, varlıqlar arasında varlıqsan, — varlıqlar sənin deyil. O məkanda hakimliyin sənin deyil.

221. İftira gətirər, — iftiradasan, yalan gətirər, — yalanlasan, qan gətirər, — qanlasan, dağıntı gətirər, — dağıntıdasan. Sənin olmayan sənin deyil, cisimlər sənin, varlıqlar sənin deyil.
222. Yaranışı Yaradan Mənəm, hər cismi, hər varlığı Yaradan Mənəm, sənin ətrafına tə`yinli edən Mənəm.
223. Sən — bəşərsən, Yaranışdan yaranışsan, — Yaratdıqlarımı məhv edən deyilsən.
224. Cahilliyinlə kamilliyi məhv edən deyilsən. Məkan sənin deyil, — məkanı məhv edən deyilsən.
225. Cəza verən Mən olaram, — Rəhmliyəm, cəza verən Mən olaram, — Səbrliyəm. Səbrimə müddət, o müddətdə an var, Səbrliyəm.
226. Bəşəri qaranlıqlara, ətrafını qaranlıqlara sürükləmə. Bəşəri qaranlıqlara, — o məkana qaranlıqlar sürükləmə.
227. Özün nə qədərsənsə, cəm bəşəri o qədərə sürükləmə, qaranlıq istəklərinlə o bəşəri qaranlıqlara sürükləmə.
228. Məkana hakim, varlıqlara hakim deyilsən, Yaradan Mənəm, — yaranmış bəşər yaranışlara hakim deyil.
229. Kamillikdən uzaq olma, Kamillik yaranışısan, kamillikdən uzaq deyilsən. «Dünya» dediyin fani deyil, «dünya» dediyin — yaranışlarladır, yalan deyil. Sənin ətrafında yaranışlar yalan deyil.
230. Sən heçlikdən yaranmadın, ətrafındakılar, varlıqlar, kainatlar heç deyil. Mən ruzi qədəri Göndərər, sən azaldarsan, qaranlıqlarınla, iftiralarınla — qədərini, ruzilərini azaldarsan.
231. Cahilliklə kamilliyi məhv edən deyilsən. Məkan sənin deyil, məkanı məhv edən deyilsən. Cəzanı bəşər toplar, — özünə cəza toplar, sən — cəza verən deyilsən.

232. Ətrafına səpdiyin — ətrafındadır, məkr istəyin — ətrafındadır, o məkanda qaranlığın — ətrafındadır. Bəşəri qaranlıqlara, o məkanı qaranlıqlara sürükləmə.
233. Məkana hakim, varlıqlara hakim, bəşərə hakim olmaq istərsən, — özün-özünə kamilliklə hakim deyilkən, — o məkana, o varlıqlara hakim deyilsən.
234. Gözlərin Görməz olub, Yaddaşın Yaddaşsız olub. Səndən əvvəlkilər *(bəşər)* o məkana hakim deyil. O varlıqlara hakim, — qit`ələrə hakim deyil, bəşərə hakim deyil.
235. Səndən əvvəlkilər qan gətirdilər, dağıntı, qan gətirdilər, o məkana Qaranlıqlar gətirdilər. «Hakim» olmayıb, hakimsizliklər gətirdilər. Hakimlik istəkləri ilə dağıntılar gətirdilər, o ərazilərə, o bəşərə qədərsizliklər gətirdilər, Ruzilərdən ruzisizliklər gətirdilər.
236. 09-dan *(09 mart 1998)* qaranlıq başlar, — məkanınıza qaranlıq gələr, — o qaranlıqlara — İşıq gələr, başlanğıclar gələr.
237. Davamlı başlar, — İşıq gələr, «bəla» dediyiniz — Bəla olmaz, qaranlıqlara İşıq gələr, Yenilik gələr.
238. Səsdə gələr, kainatlardan səslənər — Səsdə gələr, — başlanğıc gələr.
239. Yeni İşıq gələr — *09 (mart 1998)* başlanğıc olar, davamlı olar.
240. Dağıntı olar, sellər olar, küləklərdən küləklər olar. Qit`ələrə qədər yenər, qaranlıq toplayanlara topladıqlarının sərfi gələr. Qit`ələrdən sərfi gələr, qədər gələr *(müddət).* Qaranlıqlara İşıq gələr, Yeniliyə yeniliklər gələr.
241. Kainatlardan səsli gələr, Səslə başlar, səslə gələr. Qit`ələrə yenilik gələr — daşqın gələr, külək gələr, zəlzələlər gələr, — yığıntının sərfi gələr.
242. Zorakının sərfi gələr, cəza istəyinin qədərində qədəri gələr.

243. 09-dan (mart 1998) başlar, 2003-qədər gələr — cəzalılar cəza alar.
244. 2007-də sakit olar, — Yeni olar. Cəhətlərdən gəlməz, kainatlardan Səsdə olub, — səsli gələr.
245. Başlanğıc gəldi, — başlanan başlandı. Başlanğıc Səsdə gəldi, — səsli gəldi.
246. Qit`ələrə yağıntıların sərfi gələr, kainatlardan qit`ələrə gələr. Qaranlıq toplayanlara o əlamətlə İşıq gələr.
247. İşıq *(günəş)* ətrafında məkanlara yenilik gələr, yenilik olar.
248. Cəm yaranışı yaradan Mənəm, Cəm yaranışlar — Mənimlə, Mən — Cəm Yaranışlarla.
249. Kainatlar hərəkətdə, müddətlə, anla hərəkətdə. «Təsadüf» dediyin — təsadüf deyil, müddətdə an — təsadüf deyil.
250. «Təsadüf» dediyin — Yaranışla deyil, Əbədiyyət təsadüflə deyil, Yaranış təsadüflə deyil.
251. Təsadüf sənlə deyil, təsadüf Mənlə deyil, Əbədiyyət təsadüfdən deyil. Göndərilən yaranış, — tə`yinli yaranış, — təsadüflə deyil.
252. Cəm yaranışları yaradan Mənəm, cəm yaranışlar Mənimlə, Mən Cəm Yaranışla.
253. Kainatlar hərəkətdə, müddətlə, anla hərəkətdə.

# V. Kainatlar

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*



*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Kainatlar — İlkdən yaranış, kainatlarda məkanlar — İlkdən yaranış. Kainatlar məkanlı *(planet),* hər məkan öz məkanında məkanlı. Cəm kainatlar hərəkətdə, Vəhdətimlə hərəkətdə.
2. Kainatlar səssiz deyil, ahəng səsi ilədir, səssiz deyil. Kainatlar səssiz deyil, məkanlar arası səssiz deyil.
3. Kainatlar İşıqladır, Ağ işıq zərrələri ilə İşıqladır. Hər məkan məkanlı, mərkəzi İşıq Payı ilə məkanlı. Hər varlıq paylıdır, Mənim İşıq Payımdan paylıdır.
4. Ahənglər ahənglər əhatəsindədir, Ahənglədir, Vəhdət Hərəkətində hərəkətlədir. Cəm məkanlar Ahənglə Hərəkətlədir.
5. Kainatlar güc etməz, məkanlara güc etməz. Məkanlar məkanlara tə`sir etməz, güc etməz.
6. Kainatların hərəkətləri — dövridir hərəkətləri, biri biri ilə həm-ahəngdir, — dövridir hərəkətləri. Hər məkanın öz yeri, — dövridir *(orbitlər, trayektoriyalar)* yeri.

7. Hər məkan bucaqladır, bucaqlarla bucaqladır, hərəkətləri bucaqladır, bucaqlarla bucaqladır. Hərəkəti bucaqda, cəm kainatlarla bucaqla, məkanlar məkanlıdır, kainatda məkanladır.*
8. Kainatlar bölümdədir: on iki bölümdədir. Hərəkətləri dövridir, müddəti ilə dövridir.
9. Hər məkan öz məkanında, kainatlarla hərəkətdə, məkanlarla həmahəng hərəkətdə.
10. Hərəkətlər mütləqdir, müddəti ilə mütləqdir. Hərəkətlər dəyişəndir, cəm kainatlarla dəyişəndir.
11. Məkanlar məkanlara tə`sir etməz, — güc etməz, hərəkətlər ahəngini poza bilməz.
12. Zərrələri Yaradan Mənəm, İlkdən Yaradan Mənəm. Zərrələr Yaranışdır, cəm kainatlara Yaranışdır. Zərrələr İşıqdır, İşığımla İşıqdır. Zərrələr olmasa idi, kainatlar zülmətdə, məkanlar görünməz, hər cisim, hər varlıq Zərrələrsiz görünməz *(olardı).*
13. Ahənglər Vəhdətlə hərəkətlədir, cəm məkanlar hərəkətdədir.
14. Məkanlar məkanlara tə`sir etməz, güc etməz; hərəkətlər ahəngləri poza bilməz.
15. Dartınarsa məkanlar, dartıda olsa məkanlar, — hərəkətlər ləng olar, hərəkətsizlik olar, Ahəng hərəkəti pozular, vəhdətlər pozular, anlar, müddətlər pozular;
16. Kainatlarda zərrələr hərəkəti cəm olar, ləng olmaz, cəm olar. Yaranışla yaranış qədəri pozular, qədərsizlik olar;
17. İşıq toplanar, — bir olar, Böyük Partlayış olar, kainatlar yox olar, böyük silkələnmə olar.
18. Yaranışdan İşıqlar Səpələndi, — kainatlar yarandı; kainatlarda məkanlar öz məkanında məkanlaşdı. Kainatlar hərəkətdə, məkan məkanlarla bir hərəkətdə *(oldu).*

19. Kainatlar hərəkətdə, hər məkan ilə hərəkətdə *(sakit hərəkətdə)*; kainatlar hərəkətsiz deyil, məkanlar hərəkətsiz deyil.
20. Zərrələr dövr edir, kainatlarda dövr edir. Məkanları Zərrələr *(məkanların ətrafında zərrə işıqları)* işıqlı edir.
21. Kainatlar bölümdə — on iki bölümdə, hərəkətlər bölümdə — on iki bölümdə.
22. İşıq məkanınız *(günəş)* beş milyona (illərə) qədəm qoydu (26 mart 1997-ci il, səhər saat 5:00-da — Naxçıvan vaxtı ilə).*
23. Yeni dövr — yeni yaşamlar, yeni elmlər gələcək.
24. Məkanım Mərkəzdir, cəm hərəkətlərə Mərkəzdir; hərəkətlər — Mənimlə, Vəhdətimlə, Mənimlə.
25. Kainatlar məkansız deyil, varlıqlar məkansız deyil, cəm yaranmış varlıqlar Məndən uzaq deyil.
26. Hər məkan — öz məkanında, varlıqlarla öz məkanında. Məkanlar hərəkəti Ahəngdədir, Vəhdətimlə Ahəngdədir.
27. Kainatlar hərəkətdə — müddəti ilə hərəkətdə, anı ilə hərəkətdə.
28. Mənim Öz Məkanım — Əbədiyə Əbədi Məkanım; hər yaranış — öz məkanında, hər məkan — öz məkanında.
29. Yaranışlar adlıdır — öz yerində adlıdır. Yaranışlar boşda deyil, boşluqda deyil, məkansızlıqda deyil.
30. Məkanım Ağdır, Ağlıqdadır, Ağdır, kainatların quruluşunda — Mərkəzindədir quruluşunda *(Ovalın, Ellipsoidin yuxarı hissəsi, uzununa).* Ağ İşıq Yaradanladır, Yaranışdan Yaradanladır.
31. Hərəkətlər ardıcıllıqdadır, hərəkətlərə tə`sir yoxdur, məkanların məkanlara tə`siri yoxdur.
32. Məkanlar mərkəzsiz, güclü-gücsüz deyil, həmahəng hərəkətdədir — güclü-gücsüz deyil. Məkanlar İşıqsız, mərkəzsiz *(Nüvəsiz)* deyil.

33. Yaranışdan İlkdəndir, kainatların quruluşu İlkdəndir. Kainatlar ovalladır, ovaldadır, ovalladır. Oval bir quruluş, — hərəkətlərə bir quruluş. Oval quruluşdadır, İşıqlar — daxilindədir, quruluşdadır, Zərrələr axımı hərəkətində, quruluşundadır. *(Kainat ellipsoid formasındadır, o yumurta forması ilə eynilikdədir. Hazırkı elm Böyük Yaradanın «oval» Deyimli sözünü «ellipsoid» adlandırır ).*
34. Kainatların gücü dönmədədir, İşıq axımı ilə dönmədədir. İki tərəfi dönmədədir, İşıq toplumunda dönmədədir.*
35. Hərəkətlərin gücü dönmədədir, İşıq axımı ilə dönmədədir. İşıq axımı axımdır, yaradıcılığa axımdır, hərəkətlər sakitdir, hərəkətlərə axımdır. O, güc deyil, axımdır, kainatlar hərəkətinə Vəhdətimlə axındır. İşıq axımı İlkdir — kainatların hərəkətinə ilkdir *(zərrələrin hərəkəti).*
36. Hər varlıq — bir varlıq, kainatlarda bir varlıq.
37. Bəşər varlıq kimi ayrı deyil, cəmlərlədir, ayrı deyil; İşıq əhatəsində, İşıqdan ayrı deyil, kainatlardan uzaq deyil, ahənglərdən uzaq deyil.
38. Bu gün varsınız, — qayıdansınız. Sizdən sonra bəşər gələcək, elmlə bəşər gələcək. Olan elmlərinizə elmlə elmlilər gələcək.
39. Kainatlar hərəkətdədir, varlıqlarla bir hərəkətdədir. Hərəkətlər güclə deyil, biri-birini cəzb etmədə deyil.
40. Kainatlar məkanları bir topluma gətirən deyil. Kainatlar məkanları özündən uzaq edən deyil, ahənglər hərəkəti Ahəngdən uzaq deyil.
41. Özünüzə qaranlıq, etdiklərinizə qaranlıq, məkanınıza qaranlıq, ətraf məkanlara qaranlıq, varlıqlara qaranlıq, «o dünyada» olanlara qaranlıqlar gətirməyin.
42. İşıq əhatəsində İşıqlasan, — kainatlarla, İşıqlasan. Elm toplayın, elmsizlik bəşəri bəşərdən uzaq edər. İşığa qaranlıq

toplanar, varlığınıza qaranlıq toplanar, bəşər bəşərdən uzaq, — o məkana qaranlıqlar toplanar.

43. Cahilliklə cahilləşib, biri-birinizi məhv etməyin, dağıntı ilə qan gətirməyin, biri-birinizə hakimlik o məkanı məhv edər. Bəşər bəşərdən uzaqsa, — ruzilərdən ruzisizlik, qədərlərdən qədərsizlik bəşəri məhv edər.
44. Hər məkanın mərkəzi İşıqladır. O İşıq — isti edər, məkanı qatlarda isti edər. İstidən — nəm ayrılar, o məkanda qatlara nəm ayrılar. Varlığından özünə nəm ayrılar.
45. Nəm qatlardadır, o məkanda qatlardadır. Nəm köməkçidir, yaranışa köməkçidir, varlığa varlıqda köməkçidir.
46. Nəm ayrılmaz, kütlədən ayrılmaz; o varlıq varlıqdan ayrılmaz.
47. İşıq — Payımdır, Zərrə — Hərəkətim. İşıq Payımla, Zərrə Hərəkətlərlə kainatlarda varlıqlar (la) — hərəkətində.
48. Zərrə zərrəyə toxunmaz, zərrə zərrəyə güc etməz, varlığı varlıq edər, varlığa güc etməz.
49. Zərrə hərəkətdədir, hərəkətlərlə hərəkətdədir. Kainatların hərəkəti zərrələrin hərəkəti ilə hərəkətdədir.
50. Zərrələrin hərəkəti sür`ətli deyil, kainatların hərəkəti sür`ətli deyil, Ahəng axımı sür`ətli deyil.
51. Kainatlarda İşıq var, hər məkanda İşıq var. Məkanınızda işıq var.
52. Kainatlarda məkanlar məsafədədir, sizə görə məsafədədir. Məkanların *(yaydığı)* işıq qədəri var, özü qədərində *(kütlə və işıqlanma qədəri, gücü)* yaydığı işıq qədəri var.
53. Uzaqlıq məsafədədir, kainatlarda məkanlar məsafədədir, işığın özü qədərində *(planetin özü qədərində işıqlanması)* məsafədədir.
54. Nəm qatlardadır, qatlarla qatlardadır. Nəm köməkçidir, yaranışa köməkçidir.

55. Məkan məkanla, yaşam o məkanla. «Neft» dediyiniz qatdadır, dərindədir, qatdadır. Hava («qaz» dediyiniz) o durunu yetgin edər. Onlar birdir, duru ilə hava *(qaz)* birlikdə birdir. Hava o durunu hifz edər, durunu yetgin edər.
56. Neft gillədir, gil qatında gillədir. Gil qatı bir örtükdür — məkan qatında bir örtükdür, nəmə, istiyə bir örtükdür.
57. Məkanınızda gil istini, nəmi sabit edər, — mərkəzi sabit edər.
58. Gil qatında nəm ayrılar, gilə nəm ayrılar. «Gil» dediyin — yağladır, özlüyü yağladır, nəm ilə yağladır.
59. «Neft» dediyiniz — gillədir, varlığı gillədir. Yanar, — his olar, qarışığı his olar; ayırarsan — duru olar, ayırarsan — ilkinə dönər, — su olar. Varlığı varlıqdan ayırarsan, — dönüb ilki olar.
60. Gillə su bir durudur *(məhlul),* durudan ayrılan havadır *(təbii qaz).* O hava ayrı deyil, durunun özlüyündədir, o hava o durunu hifz edəndir. O hava hifz edər, o durunu *(maye karbohidrogenləri)* yetgin edər.
61. «Neft» dediyiniz — qatlardadır, qatlarla qatlardadır. Gil qatları hifz edəndir, yer məkanını nəmləri ilə hifz edəndir.
62. Yer məkanına İşıq göndəriləcək, Ağ işıq göndəriləcək.
63. Elmləriniz, yaşamınız o Ağ işıqla olacaq. Kainatların uzaqlıqlarına o işıqla gediləcək.
64. Dəmirdə dəmirlə gediləcək, Ağ dəmirlə gediləcək. İndi uzaq görünən məkanlara gediləcək, indi bilmədiyiniz işıq *(ayrı bir günəş)* ətrafında olan yaşam məkanlarına gediləcək. Dəmirdə dəmirlə gediləcək.
65. Yeni yaşamlar görəcəksiniz, öz təkrarınızı görəcəksiniz. Ağ məkan görəcəksiniz. Böyük elmlər görəcəksiniz.

66. Sizə görə səmtdir, şimali-şərq *(şərqə nisbətən çox yaxındır)* səmtdir. Bir işıq *(günəş)* məkanı da oradadır, bir yaşam məkanı da oradadır. O məkan ağlıqladır, yaşamla, bəşərlədir.
67. O səmtə gediş *(uçuş)* olacaq. O işıq istiqamətinə gediş olacaq. Orada məkan görəcəksiniz, o məkanda böyük elmlər görəcəksiniz.
68. Orada bəşər görəcəksiniz; o bəşərin diqqətini alınlarında görəcəksiniz. Alınlarında üç nöqtə görəcəksiniz, — diqqətlərini alınlarında görəcəksiniz.



69. Görünən — gözlə görünməyəcək. O məkana bəşər gedəcək, zəkalı bəşər gedəcək. Danışıqlar qısa olacaq, anlamlar alınlardan olacaq. Zəkalarının qədəri alınlarında cəm olacaq.
70. O məkandan bəşərlər məkanınıza yenəcək, dəmirdə yenəcək. Elmlərinizə gələcəklər, elmlərinizi görəcəklər.
71. Dəmirlə gələcək, dəmirlə yenəcək; günortadan sonra yenəcək, saat 4-lə 5 arası yenəcəklər; düzəngaha yenəcəklər.
72. O düzəngahda bəşərlər olacaq, gələnlərə hücum olacaq. O düzəngahın bir hissəsi kül olacaq *(alçaq dağ ətəyi).*
73. Onlar elmlərdən elmlərə gələcəklər, xoş niyyətlə gələcəklər.
74. Uca kişi olacaq, elmli kişi olacaq. O dəmirin içərisində bəşər olacaq. İkisi qadın olacaq, dördü kişi olacaq.
75. Dəmirin içərisi sahədir, böyük sahədir; sakitliklə sakitlikdir; döşəməsi tünd qırmızıdır, yumşaqdır.
76. O dəmirdə olanlar işıqla gələcək, o dəmiri işıq gətirəcək. O işıq daşdadır, Ağ daşdadır. O, hərəkət verəndir, duru deyil; o işıq daşdadır, daşla daşdadır.
77. Əbədidə əbədi Əbədiyyət var, müvəqqəti bildiyin zahirdədir, Əbədidə əbədi Əbədiyyət var.

78. An anındadır, zamanda deyil; müddət müddətindədir, anında deyil.
79. Ay məkanı Yer məkanı ətrafında dövr edər, öz əksini Yer məkanında görər.
80. Yer məkanı işıq *(günəş)* ətrafında dövr edər, Günəş öz əksini Yer məkanında görər.
81. Bəşər Yer məkanına tə`yinli göndərilər, müddətində müddətə göndərilər. Bəşər yer məkanında topladığının qədərini qayıdışında görər. Topladığı qədərlərin yenə də özü ilə, özü qarşısında etdiklərinin qədərini görər.
82. Yer məkanı İşıqdadır, İşıqdandır. Hər varlığın qədərini özünə qaytarıb göstərəndir. Kamillikdən kamilliyi, Cahillikdən cahilliyi qaytarıb yenə də özünə göstərəndir. Cəm kainatldarda hər məkan tə`yinlidir, yaranışdan tə`yinlidir, Yaradandan tə`yinlidir.
83. O məkanın *(Yer məkanı)* mə`nası var, o işıq *(günəş)* ətrafında hərəkətinin mə`nası var: hər varlığın qədərini açandır, özünü etdikləri ilə özünə açandır. Hər varlığın qədərini özünə qaytarıb özünə göstərəndir.
84. Yer məkanı əksidir, etdiklərini özünə qaytaran, özünə göstərəndir. O məkan müqəddəsdir, o məkandan qayıdışdır, etdiklərilə qayıdışdır.
85. Bəşər o məkanda yaradıcılıq içərisində; yaradıcılığa sərf edərsən, — öndə yaradıcılıqlasan, dağıdıcılığa sərf edərsənsə, — önündə dağıdıcılıqlasan.
86. Tə`yinlənmiş məkanlar günəş ətrafında dövr edər, məkanlar öz əksini ətraf məkanlarda görər. Yer məkanında bəşər bəşərə bəlalar gətirərsə, o məkanı qaranlıq *(qaranlıqlarla)* edər; Yer məkanında qaranlıq gətirirsinizsə — ətrafınızda olan məkanlara da qaranlıq *(gələr).* O məkanda azalar, — Zərrələrin ahəngi azalar.

87. Kainatlar dəyişilməyəcək, Yer məkanına yeni yaranışlar göndəriləcək.
88. Bəşərə müəmmalı *(tanımadığı)* yaranışlar göndəriləcək. Olan həşəratlar azalacaq, yeni həşəratlar göndəriləcək; balaca həşəratlar göndəriləcək, acılı həşəratlar göndəriləcək.
89. Təbiət dəyişiləcək, yeni bitgilər göndəriləcək. Gedənlər gedəcək, yeni yaranışlar göndəriləcək.
90. Məkrlilər, cahillər dönəndir. Daha kamil, daha İşıqlı bəşər *(Yerə)* göndəriləndir.
91. Yer məkanına xalqlar, yaranışlar göndəriləndir; çox danışıqlar *(dillər)* arasında bir dil göndəriləndir (Elm, İşıq dili).
92. Fəzada görünəndir, uzun düz xətt görünəndir, od xətləri görünəndir. O od xətləri gündüz də görünəndir *(yanan meteor və kometlər).*
93. Yer məkanında su hövzələri dönəndir, yerlərindən dönəndir. Qit`ədə qit`ə dəyişəndir, su hövzələri dəyişəndir.
94. Bəşər arasında baxışlar dəyişəndir, zəkalar dəyişəndir. Bəşərin biri-birinə baxışında anlamlar dəyişəndir *(bəşər o bəşər olacaq ki, danışıqlar qısa, baxışla biri-birini anlayanlar olacaq).*
95. Göndərişdə göndərilənlər dəyişəndir, qaranlıqları İşıqlı bəşər dəyişəndir.
96. Müddət gələcək, o gün gələcək, bu gün ağır dərk edilən Deyimləri bəşər dərk edəcək, kainatlara qalxacaq bəşər, dərk edə bilmədiklərini zahirdə görəcək.
97. Ayrıldığı *(kainatlara uçacaq bəşər)* yer məkanına dönəcək bəşər, kainatlarda bucaq görəcək, bucaqda yer məkanını, gəldiyi Günəş istiqamətini axtaracaq. Başqa günəş məkanları arasında öz Günəşəni axtaracaq; o Günəş istiqamətə Yer məkanına qayıdacaq.

98. Müddətlər gələcək, elmlərə İşıq gələcək. «Dəmir» deyib, «dəmir» bildiyi ilə kainatlara qalxacaq bəşər. «Dəmir» dediyi — dəmir olacaq, «dəmir»lilikdən uzaq olacaq.
99. Yer məkanına İşıq gələcək, İşıqla Elm gələcək.
100. Dəmir İşıqla, İşıq dəmirlə, — bəşər elmlərlə uzaq kainatlara qalxacaq.
101. Əminamanlıqda, inamda, İnamla özünə yüksələcək bəşər.
102. İşıq gələcək daşdan gələcək, İşıqdan işıq gələcək, hər yaranışa İşıqdan işıq gələcək.
103. Göndərilən *(Ağ daş)* İşıq elmə sərf edildikcə, Elm gələcək. Dağıntıya sərf edilərsə, qaranlıqlarla Qaranlıqlar gələcək: Yer məkanınıza, cəza istəyinizdən cəza gələcək, məkanınızın odla sonu gələcək.
104. İşıqla, elmlə, elmlərə qalxacaq bəşər, İşıqla İşıqlı məkanlara qalxacaq bəşər.
105. Müddət uzaq görünəcək, an yaxın olacaq, elmlərə, kainatlara qalxacaq bəşər. «Dəmir» deyib, «dəmir» bildiyi ilə kainatlara qalxacaq bəşər.
106. Elmlərdən Elm olacaq, yeni elmlər olacaq, olan elmlər uzaq duracaq, elmlərdən Elmlər olacaq *(olan elmlər daha da inkişaf edib, yüksək səviyyilərə çatacaq).*
107. Kainatlara qalxacaq bəşər, Böyük Yaradan Məkanına dəmirdə çatmayacaq bəşər.
108. Altı işıq *(günəş)* məkanımı, altı yaşam məkanımı *(planet)* kainatlarda görəcək bəşər.
109. Bəşər baxan olub, kainatlara baxan olub, Böyük Yaradanı kainatlarda axtaran olub.
110. Bəşər kainatlarda sıx görər, məkanları sıx görər, uzaqlıqda məkanları sıx görər, kainatlarda işıq görər, məkanları işıqda görər; o məkanları — işıqda, — zərrələr toplumunda görər.

111. Nəhayətsizliyi Görməyə altı baxımdan baxsa bəşər, özünü cəm kainatlarda, kainatlarla Görsə bəşər, işıqlarda İşıqlığı, özündə İşıqlığı, cisimlərdə işıqlığı, məkanlarda işıqlığı, Özündəki İşıqlığı cəm yaranışlarda da Görər.

112. Bəşər ilkinə dönər, Nurdan Yaranışı, Nurumdan, İşığımdan yaranışı, özü ilə Özündə görər.

113. Cəm yaranışlar ayrı deyil, biri birindən ayrı deyil, cəm kainatlarda məkanlardan, varlıqlardan ayrı deyil.

114. Bir Vəhdətdədir, ayrı deyil, İşıqdadır, ayrı deyil. Bəşər bəşərdən uzaq deyil, — ilk Yaranışından uzaq deyil.

115. Bəşər məkri, məqsədi ilə uzaqdır, — özündəki İşıqlardan uzaqdır, — ətrafına qaranlıq, cisimlərə qaranlıq, ətraf məkanlara qaranlıq.

116. Bir bəşərin qaranlığı, — ətrafına qaranlığı, çox bəşərin qaranlığı, — məkanın qaranlığı, o məkanda qaranlıq — ətraf məkanlara qaranlıq.

117. O əraziyə bəla istərsiniz, o bəşərə bəla istərsiniz, — kainatlardan İşıq gələr, Vəhdətimdən İşıq gələr.

118. İşıq gələr kainatlardan, — Məndən Gələr, — qaranlıqlara İşıq gələr. İşıq İşıqlılığa gələr, qaranlıqlara İşıq gələr.

119. Qaranlıq toplayanlara, məkrlilərə, məqsədlilərə, dağıdanlara fəlakət gələr, o əraziyə fəlakət gələr. Bəşər — toplar, — qaranlıq toplar, fəlakət toplar.

120. Ey bəşər, ey kamil bəşər, kamil yaranışsan, Kamillikdən yaranışsan. Sən yaranışsan, təkrar yaranışsan. Səndən əvvəlki «sən» bəşər idi, bəşəriliyini saxlamaqda idi. O, döndü, o, qayıtdı, Əbədiyyətə qayıtdı. Onun etdikləri ilə bəşəri yaranışı bağışlanan idi, — Bağışladım; yaranışından kamil yaranış Yaratdım, — bəşəri Yaranış Yaratdım. Səni bəşərtək Yaratdım.

121. Sən bəşərtək təşəkkürlü ol, özündən əvvəl yaranmış «o bəşərə» təşəkkürlü, Mənə şükürlü ol. Səni bəşərtək Yaratdığıma şükürlü ol.
122. Səndən əvvəlki bəşər cahilsə, yırtıcısa, vəhşisə, — yaranışı vəhşidir, təkrar yaranış vəhşidir *(heyvanilәşir, heyvan formasında yaranır).*
123. Ey bəşər, bu gün topladığın səndən sonrakı «Səndir»; topladığın qədər — səninki, səndən sonra yeni yaranışın — səninki.
124. Yaranışlar Vəhdətdədir, Vəhdətlədir, cəm kainatların hərəkəti Vəhdətimlə Hərəkətdədir.
125. Yaranışdan uzaq deyilsən, Yaranışımdan uzaq deyilsən, vəhdətlərdən, ahənglərdən uzaq deyilsən.
126. Bu hərəkətlər sənin deyil, Nurumdansan — İşığımdansan, bu işıqlar sənin deyil, yer məkanı sənin deyil, varlıqlar sənin deyil.
127. Hakim Mənəm, — Güc Etmirəm, Rəhmliyəm, Rəhmsizlik etmirəm, Səbrliyəm, Səbrsizlik etmirəm, Nurumdan yaranışsan, səni İşığından Etmirəm, Əbədi yaranışı Əbədiyyətdən Etmirəm.
128. Etmirəm, Etmirəm, sən bəşərə cəza Verib — Cəzalı Etmirəm, — Mən Amiranəlik Etmirəm.
129. Cəm yaranış sənin — ətrafında, varlıqlar sənin — ətrafında. Cisim cismə hakim deyil, məkan məkana hakim deyil, cəm kainatlarda məkanlar məkanlara hakim deyil. Vəhdət hərəkətinə zorakılıq hakim deyil, ahənglərə ahəngsizliklər hakim deyil.
130. İstəyiniz hakimlikdir, biri birinizə hakimlikdir, məqsədlərinizlə bəşəriyyətə hakimliyinizdir.
131. Məkanınız İşıqdaykən, — məkanınıza qaranlıq, cisimlərə, varlıqlara qaranlıq *(gətirirsiniz).*

132. Bəşər — yaranış, kamil yaranış, — Müqəddəslikdən yaranış, Mənim Rəhmimdən Yaranış.
133. Ey bəşər, cəvabdehliyin az deyil, kamil yaranışın az deyil; İşığımdan yaranışsan, — varlığın az deyil, Yer məkanın kiçik deyil, — sənin olmayan sənin deyil, məkanlarla məkanlıdır, kainatlarda məkanlıdır; Hərəkətdə hərəkətli, Vəhdətimdə hərəkətli, ahənglərlə hərəkətli.
134. Olacaqdır olacaqdır, olacaqdır:
— O gecə — son gecə olacaqdır; olacaqdır, o gün — son gün olacaqdır;
— Olacaqdır, Yer məkanında son gecə, son gün olacaqdır;
— O an olacaqdır.
135. İnamlılar, rəhmlilər, səbrlilər, mehribanlar — cəm yaranışa mehribanlar, cisimlərə, varlıqlara, Yer məkanına mehribanlar, Mənim Önümdə səf-səf düzümdə Düzülüşdə olacaqdır.
136. Əbədiyyətə əbədi Qayıdanlar olacaqdır. Cahillər, qaranlıq toplayanlar, varlıqları ilə, qaranlıqları ilə sürünən olacaqdır, cəzalarında sürünən olacaqdır.
137. Əbədiyyətə əbədi Qayıdanlar olacaqdır. Böyük Yaradan Önündə Müqəddəsliyə Qayıdanlar olacaqdır.
138. Böyük Yaradan İşığında, Əbədiyyətdə, Əbədi olacaqdır.
139. Olacaqdır, Yer məkanında son gün, son gecə olacaqdır. Günəş sönməyəcək, İşığımdan işığı tükənməyəcək.
140. Günəş tünd olacaq, qırmızı ilə tünd olacaq. Günəş sönməyəcək, İşığımdan işığı tükənməyəcək.
141. Olan Əbədi kainatlar Nurumdan İşıqdadır, kainatlar İşığımdan uzaq olmayacaq.
142. Yaranışlar Ətrafımda Baxışımda, Vəhdətimlə Yaranışla Ətrafımda.

143. Yaranışa daha kamil yaranışlar olacaqdır. O yaranışlar tə`yinlənmiş məkanlarda məkanlı olacaqdır.
144. Deyimlər Göndəriləndir, Göndəriləne Göndəriləndir.
145. Deyimlər Böyük Yaradandan, Əbədilikdən Göndəriləndir.
146. Deyimlər Göndərilənlə Göndəriləndir.
147. Ey kamillikdən kamil yaranış, Deyimləri saxlayın, Olduğunu Olduğu kimi saxlayın.
148. Göndərilən — Göndəriləndir, dəyişməzdir, Böyük Yaradan Deyimləri Dəyişməzdir.
149. Əbədilikdən Əbədilik Dəyişməzdir.
150. Dəyişməyin, Cəm yaranışadır Deyimlər, Deyimləri dəyişməyin, İşıqları qaranlıqlara dəyişməyin.
151. Ey kamil yaranış, Deyimləri saxlayın, Olduğu kimi saxlayın.
152. Göndərilən Göndəriləcək, yenə Göndəriləcək, düzəngahdan Göndəriləcək, Şərqə Göndəriləcək. Ucaboy, arıq Göndəriləcək, gülər üz, gülər göz Göndəriləcək. İşıqla yenə İşıqlı Göndəriləcək, Qaranlıqları bəşərə açan Göndəriləcək.
153. «Cücərti» gördüyün — bir göndəriş, o məkana göndəriş. «Toxum» dediyin — işıqla, ucu işıqla. «Meyvə» dediyin — işıqla, zərrəli işıqla.
154. Yer məkanı mərkəzlidir, işığı mərkəzlidir. İşıq artar, — çox olar, mövsümündə çox olar. Mövsüm gələr, — soyuyar, yer məkanı nüvəsi ilə soyuyar; mərkəzdən az olar, zərrələr axımı az olar.
155. Zərrələr hərəkəti Mənimlə, tə`yinliyi Mənimlə, müddəti ilə Mənimlə.
156. Bir Zərrə bir göndəriş, yaranışa bir göndəriş. Zərrə ilkdir, yaranışa ilkdir. O, bir İşıqdır, Ruhi bir İşıqdır *(bəşər yaranışı).*

157. Günəş ətrafında məkanlar hərəkətdə. Mənim Ətrafımda Cəm Yaranışlar Hərəkətdə; Mənim Rəhmim, Səbrimlə hərəkətdə.
158. Zərrələr bağlıdır, cəm kainatlara bağlıdır, cəm kainatlar zərrələr hərəkəti ilə bağlıdır.
159. «Göz» gördüyün — İşıqladır, zərrələrlə işıqladır. Gözündəki zərrələr — varlıqlarda, cisimlərdə zərrələr. «Duru» gördüyün, «bərk» gördüyün, «sərt» gördüyün, «rəng» gördüyün, — o varlıqlarda zərrələr, — gözündəki zərrələr. Zərrə zərrə ilə görünər, — yaranmışlar yaranmışlarla görünər.
160. Hər məkan *(planet)* öz varlığı ilə məkan *(kütlə).* Hər məkan — özünə hakim məkan.
161. Hər məkan cəm məkanlarla hərəkətli məkan, hər məkan özünə hakim məkan. Hər məkan zorsuz *(cazibəsiz)* məkan, — ətrafa zorsuz məkan.
162. Məkanlar — sabit məkan, — cəm məkanlarla hərəkətli məkan.
163. Cəm kainatlara, cəm yaranışlara Böyük Yaradan — Hakim, Rəhmi ilə, Səbri ilə, Mehribançılığı ilə, Sevinci ilə Hakim.
164. Cəm kainatlar, hər yaranmış varlıqlar Böyük Yaradan Nəzərində, cəm kainatlar Böyük Yaradan Ətrafında bir hərəkətdə.
165. Günün günortasında səmada şimşək çaxacaq, qorxulu şimşək çaxacaq. Bu, əlamət olacaq, iftira, yalan, zorakılara əlamət olacaq, — o an olacaq. O anla o gün olacaq, səma qırmızı olacaq, o qırmızıda od əlaməti olacaq.
166. Diz üstə düşənlər, şaşqınlar olacaq. O gözlər səmada od görəcək, odu dairədə görəcək. Şaşqınlar olacaq, onlar qırmızı od dairələrini səmada görənlər olacaq. *(Bu Deyimlər*

*indi deyildi, — 29 oktyabr 1998. Naxçıvan, saat 21:03. — Vahid).*

167. Günəş də səcdədədir, Böyük Yaradana səcdədədir. Günəş də durar, — o anda durar, Böyük Yaradan Məkanı ilə bir oxda durar *(«o anda durar» Deyimi, günəşin bir yerdə durması deyil, istiqamətlənməsi deməkdir. «Durar» Deyimi, — «Səcdəyə durar» — Deyimidir).*
168. İşıqla tə`yinli, İşığımla işıqlı *(günəş),* o məkan *(Yer)* Böyük Yaradan İşığı ilə bir oxda durar.
169. Günəş də Böyük Yaradanla Bir Vəhdətdədir. İşığı ilə, Böyük Yaradan İşığına, Bir Vəhdətdədir.
170. Altı dəqiqə ərzində Günəş Böyük Yaradan ilə, Böyük Yaradan İşığı ilə bir oxda durar, Səcdəyə durar.
171. Günəş saçar, ətrafında məkanlaşmış məkanlara Pak İşıq qədəri saçar. Qədərində işıq saçar.
172. Günəş durar, altı dəqiqə Böyük Yaradanla bir oxda durar (saat 14:50).
173. Günəş durar, o an durar, Şimali-Şərqə *(istiqamət)* durar, o istiqamətə durar.
174. Günəş durar, bir oxda durar, üç aydan bir, bir oxda durar *(hər üçüncü gələn ayın 18-də, Naxçıvan vaxtı ilə saat 14:50-də, bir il ərzində dörd dəfə).*
175. Günəş öz yerində hərəkətdə, Günəş ətrafında məkanlar hərəkətdə.

# VI. Cəm Yaranış — Paklıqdan Paklıqla Yaranış

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*




*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Cəm yaranış — Paklıqdan Yaranış.
2. Kainatlar Paklıqda, Hər məkan Paklıqda, hər varlıq Paklıqda.
3. Hər məkan mərkəzi, — İşığımla mərkəzi, Pak İşığımla mərkəzi.
4. Pak İşıq — Ağdır, Müqəddəsdir, Ağdır; Nurumdan İşıqdır, Pakdır, İşıqdır.
5. Bəşərdə İşıq Ağdır, Müqəddəsdir, Ağdır, — sinədədir, Ağdır.
6. Yaranışın əvvəlindən hər yaranışa Paydır.
7. Yaranışlar Paylıdır, İşığımla Paylıdır. İşıq Payı — qədərdir, yaranışa — qədərdir, Nurumdan, İşığımdandır, o, qədərdir.
8. İşığım Paydır, hər yaranışa Paydır. Yaranış İşıqsız deyil, cəm yaranış Mənim İşığımdan paysız deyil.
9. O Pay Müqəddəsdir, İşığımladır, Müqəddəsdir.

10. Yer məkanı Paklıqda, ətrafı Paklıqda. Yer məkanı buludsuz deyil, Paklıqdan uzaq deyil.
11. Hər varlıq su ilə, İşığımla, su ilə; o məkanın Paklığı — su ilə paklığı. Məkan Paklıqda — su ilə paklıqda. Ətrafı buludladır, su ilədir, buludladır.
12. Su məkanın — varlığında, özlüyündə, varlığında.
13. Kainatlar soyuqladır, nəmlədir, soyuqladır. Nəmlər bərabərdir, kainatlarda bərabərdir *(orta nəmlik kainatda sabitdir, eyni bir bərabərdədir).*
14. Varlıq varlığa zor etməz, məkan məkana zor etməz. Kainatlardakı soyuqlar nəmə zor etməz. Kainatlardıkı soyuqlar da nəmlədir, bərabərdir *(biri-biri arasında),* nəmlədir. Ahənglər hərəkətində varlıq varlığa, cisim cismə zor etməz.
15. Məkan məkana zor etsə, məkan məkana güc etsə, — dartınma hakimdir, *(kütlələr)* bir-birinə hakimdir.
16. Ahənglər Vəhdətlədir, Vəhdət Mənlədir. Cəm kainatlar, varlıqlar Vəhdətdə, hərəkətlədir, Ətrafımda hərəkətlədir.
17. Hər yaranış müqəddəsdir, yaranışdır, müqəddəsdir, Böyük Yaradandan yaranışdır, müqəddəsdir. «Müqəddəs» dediyin — Pakdır, varlığı Pakdır.
18. Hər gördüyün yaranışdır, Paklıqdan Paklıqda yaranışdır.
19. O məkan Pakdır, Paklıqdadır, Pakdır; İlk Müqəddəslərin göndərildiyi məkan Pakdır. Cəm gördüyün — yaranışdır, — ətrafında yaranışdır. Yaradan Mənəm, Göndərən Mənəm, Tə`yinli Edən Mənəm.
20. Hər yaranış qayıdar, müddətinə qayıdar, Mənə qayıdar. Yaranmış Paklığa, İlkinə Qayıdar.
21. Bəşərdən İşıq ayrılar, canından İşıq *(Ruh)* ayrılar, İşığı ilə yaddaş ayrılar.
22. Bəşər bağlıdır, kainatlara bağlıdır. Kainatlarda — hərəkət, cəm Yaranışlarla birgə hərəkət.

23. Bəşər başladır, yaddaşladır, başladır. Canlı yaranan başladır, yaddaşladır, başladır. Zərrədə yaranış İşıqladır, yaddaşladır, İşıqladır *(bəşər yaranışı, cism yaranışı, varlıq yaranışı).*
24. O məkan Paklıqdadır, paklıqla, Paklıqdadır. O məkanda Pak olun, paklıqla Pak olun.
25. Pak olmalı bəşər. Paklığa qalxandır bəşər. Səcdəyə durar bəşər, Mənə üz tutar bəşər. Paklıqla Pak olar bəşər, Paklığa üz tutar bəşər. Pak olmasa bəşər, — Müqəddəsliyə, Əbədiyyətimə Qalxa bilməz.
26. Paklıqla Paklığa üz tutan bəşər Məni səslər, Məni axtarar, Böyük Yaradanını axtarar.
27. Bu Paklıq Deyimdir, cəm bəşərə Deyimdir. İlkdən Göndərilənlərim olubdur, cəm bəşər arasına Göndərilənlərim olubdur. "Su ilə Paklıq" Deyimim olubdur.
28. Paklıqdan, Müqəddəslikdən Göndərilənlərim olubdur. Paklıqdan — Pak Göndərilənlərim olubdur.
29. Bu Paklıq Deyimdir, bəşərə Deyimdir. Müqəddəs Kitablar, Peyğəmbərlər Göndərmişəm. Deyimləri Peyğəmbərlərlə Göndərmişəm.
30. Soruşub, yenə soruşacaq bəşər: «Niyə biz Görmür, niyə biz Eşitmirik?». Yaratdım bəşəri Görməyə, Yaratdım bəşəri Eşitməyə; Müqəddəsliklə — Müqəddəslik Ətrafında yaranışdır hər yaranış.
31. Bu Deyimlər bəşərədir, bu Deyimlər Müqəddəslikdəndir. Göndərilənlərim bəşər arasına Göndərilənlərdir. Bəşər Görəndir, bəşər Eşidəndir.
32. Görməyə dursa bəşər, eşitməyə dursa bəşər: o bəşər — Görəndir, o bəşər — Eşidəndir, — Cəm yaranışlar — Mənimlə, Mən — cəm Yaranışlarla.
33. Göndərilənlərim, - bəşər arasına Göndərilənlərim, - Məni Görməsə, Məni Eşitməsə, Kainatları, cəm yaranışların varlıqlarını Görməsə, Paklıqda Paklığı, Məkanımı, Nurumu Görməsə, Paklıqdan Göndərilənlərim — Paklıqla durmasa,

Mənə Səcdəyə durmasa, — bəşərə Yaranışı, bəşərə Yaradanı aça bilməz.

34. Onlar Göndərilənlərdir, bəşər arasına Göndərilənlərdir. Bəşərə bəşəri, bəşərə İlki, bəşərə Müqəddəsliyi onlar deyənlərdir, onlar göstərənlərdir.
35. Deyimlər bəşərədir, Göndərilənlər bəşərədir. Bəşər qayıdandır, Paklığa, Əbədiyyətə Qayıdandır. Bəşər bilsin, dərk etsin, Yaranışını dərk etsin, etdiklərini, Qayıdışını dərk etsin; Əbədiyyətdən Əbədiyyəti, Yaranışını dərk etsin.
36. O məkan paklıqdadır, Paklıqla paklıqdadır.
37. Paklıqla Pak olun, su ilə Pak olun (Gün ərzində üç dəfə: səhər, günorta, günəşin qürub vaxtı).
38. Yuyun əllərinizi, deyin: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə).
39. Yuyun üzünüzü, deyin: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə).
40. Sağ əlinizi sol qolunuzun arxasına, sol əlinizi sağ qolunuzun arxasına çəkin, deyin: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə; qol dirsəyəcən açıq olmalı).
41. İki əlini cəmlə, — başının ortasında cəmlə, əllərini yendir, alnına yendir; başının arxasından boynuna yendir, de: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə).
42. İki baş barmağını sinənə çək, iki baş barmağını kürəyinin ortasına çək (sinəndəki İşığındır — Ruhi İşığındır, kürəyindəki qaranlıqların), de: «Paklıqla, Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə).
43. İki əllərinlə çək, — sağ əlinlə sağ ayağının arxa bükümünə, sol əlini sol ayağının arxa bükümünə, de: «Paklıqla, Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə; ayaqların dizəcən açıq olmalı).
44. Əl barmaqlarını ayaq barmaqlarının arasına çək, de: «Paklıqla, Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə; ayağın üstü açıq olmalı).

45. Dur, düz dur. Başınla sol çiyninə, başınla sağ çiyninə baş yendir, de: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla. Paklıqla.» (üç dəfə). Sol çiynində bir mələk, sağ çiynində bir mələk. Soldakı — səhv yığdıqlarındır, sağ çiynindəki — xeyirxahlığın. Varlığının Pak olmasını istə.
46. Sağ çiynindəki bir mələk, sol çiynində bir mələk. Onlar İlkdəndir, bəşər yaranışına İlkdəndir. Müqəddəslikdən yaranışa, Böyük Yaradandan Yaranışa, Müqəddəsliyə Yaranışa onlar ilkdirlər, bəşər yaranışına ilkdirlər.
47. Bu məkanda ilkdəndir, icraatı ilkdəndir, (*Paklanmanı*) ilk Müqəddəslərdən bəşərə deyimlərdir, İlkdəndir.
48. Göndərilənlər göndərildi, Paklıqdan Paklığa Göndərildi. Bəşər qalxsın, Əbədiyyətinə, Müqəddəsliyə Paklıqla qalxsın (*su bu məqsəd üçün xüsusi olaraq qızdırılmamalı, otaq temperaturunda saxlanmalıdır;*
*isti su, hamam suyu Paklığa icra olunmamalıdır. Paklıq, Paklanmaq Əbədiyyətdir, rahatdır, təlatümsüz, ağrısızdır*), paklanmaq su ilədir.
49. Ey bəşər, dur, Paklığa Pak dur. Səmtin Böyük Yaradana, Şimali-Şərqə dur. Düz dur, düz dur, baş əy, de: «Paklıqla. Əqli Paklıqla, Ruhi Paklıqla, Əbədi Paklıqla. Paklıqla.». Əllərin açıq olsun, ayaqların cütlənsin, birlikdə olsun.
50. Müqəddəslər durarlar, Önümdə səf-səf durarlar. Vücudları örtülü, əllərinin üstü açıq durarlar. Ayaq üstə, ayaqları birlikdə (*cütlənmiş*) durarlar.
51. Onlar görünəndir, Üzlərində Üzləri, Varlığındakı Qədəri əllərinin üstü ilə görünəndir (*Cəm yaranmış canlı varlıq görünəndir, bilinəndir. Bax gözlərinin dərinliklərinə, - özlüyü — gözlərinin dərinliklərindədir. Bax alnına, - etdiklərinin qədəri — alnındadır. Bax başına, - başında — etmək istədikləridir; cəm bəşərin «böyüklük» qədəridir, insani qədəridir*).
52. Paklanıb pak ol, icranla Pak ol. Göndərilənlərim Göndərilib, Deyimlərlə Göndərilib. Paklıq icrasına Deyimlər Deyilib, Göndərilib (*mətn Deyilib*).

53. İcra Birdir, Böyük Yaradana Səcdələr Birdir, Göndərişlərim bir, Deyimlər Birdir; bəşəriyyətə Deyimlər Ayrı deyil, Birdir.
54. Göndərilənlərim Göndərilib, Həzrəti Zərdüşt Əleyhissəlam Göndərilib. Deyimlərim bir Göndərilib, Səcdələr bir Göndərilib.
55. Göndərilənlərim Göndərilib, — Eyşüa, Həzrəti İsa Əleyhissəlam Göndərilib. Deyimlərim Bir Göndərilib, Səcdələr Bir Göndərilib.
56. Göndərilənlərim Göndərilib, Həzrəti Mühəmməd Əleyhissəlam Göndərilib. Deyimlər Bir göndərilib, Səcdələr Bir Göndərilib.
57. Göndərilənlərim Göndərilib, —Həzrəti Siddxarta Budda Göndərilib, Deyimlər Bir Göndərilib, Səcdələr Bir Göndərilib.
58. Göndərilənlərim Göndərilib, Cəm bəşərə, bəşər arasına Müqəddəslərim Göndərilib. Rəhmimlə Rəhmim Göndərilib, yenə o Bəşərə Rəhmim Göndərilib, Məkanımdan, Müqəddəslikdən Göndərilib.
59. Yaranış yaranışdan uzaq deyil, Deyimlər Deyimlərdən uzaq deyil, Bəşər yaranışa Birdir, Nəzərimdən, Rəhmimdən uzaq deyil. Qayıdışı Birdir, Əbədiyyətə — Müqəddəsliyə Qayıdış Birdir. Deyimlər bəşərə, bəşəriyyətədir, Birdir.
60. Paklıq Paklığındır. Əqli Paklığın — Paklığındır (*ziyansız, məkrsiz*), Ruhin Pak, — yaranışa Ayırdığım İşıq Payı Pak, Əbədiyyətin Pak, Əbədiyyətinə Qayıdışın Pak, Paklığa Qayıdışın Pak.
61. Əbədiyyətə dönüşü (*Qayıdışı*) pak istə, özündən istə, Özünlə istə, — uğurun Paklıqdadır, Məni səsləməyin varlığındadır, Baxışın Pak, vücudun Pak, hər addımın Paklıqladır.
62. Paklıqla Vücudun Pak olacaqdır. Yığımın (*bu dünyada*) pak olacaqdır. İşıqlara İşıqlar artıracaq, vücuduna İşıqlar artıracaqsan. O məkanda İşıq Artıracaqsan.
63. Təmmənnasızlığınla, məqsədsizliyinlə, düzgünlüyünlə — Pak İşıq Varlığındadır, Pak İşıqları Artıracaqsan.

64. O məkanda hər varlığa, hər cismə İşıq artıracaqsan, o məkanı bəlalardan, cəzalardan uzaq edəcəksən.
65. Pak olacaq, rahat olacaqsan; vücudun Pak, Əbədi Əzablardan uzaq olacaqsan, cəm yaranışa mehriban olacaqsan.
66. Hər varlığa Pak baxacaq, hər addımın Pak olacaq, Zəkan İşıqlı, ruzilərin rahat olacaq.
67. Pak varlığınla kainatları, kainatlarda hərəkəti, hər varlıqda İşığı, özündə İşığı, Böyük Yaradanına (*Şimali-Şərq — istiqamət*) Paklığınla qalxacaqsan.
68. Məqsədsiz, təmənnasız olacaqsan, hər etdiyin işə düzgün, mehriban olacaqsan, hər işin uğurlu, ətrafına uğurlu olacaqsan.
69. Kainatlara, Böyük Yaradan Məkanına Paklığınla Qalxacaqsan.
70. Bəşər Böyükdür, kamilliyi ilə Böyükdür, mehribanlığı, xeyirxahlığı ilə Böyükdür, səbri ilə Böyükdür.
71. Yaranışlar arasında yaranışı ilə Böyükdür, Yaradıcılıq — ətrafındadır, yaradıcılığa mehribanlığı ilə Böyükdür.
72. Özünə qaranlıq məqsədin deyil, Qaranlığa qaranlıq toplamaq məqsədin deyil. Özünə qaranlıqlar istəməz bəşər, qaranlıq (*ətrafına, yaranışlar arasına yalan, iftira*) niyə məqsədindir?
73. Paklıqdan Pak ol, varlığınla Pak ol, Yaranışın — Pak İşıqla, Böyük Yaradan, İşığı ilə İşıqla.

# VII. Bəşərin Qayıdışı

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*




*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Ağ geyimli Müqəddəslər, — Böyük Yaradan Ətrafında Müqəddəslər.
2. Müqəddəslər Ağ geyimdə, Paklıqla Ağ geyimdə.
3. Ağ — başlanğıcdır, Ağdır. Böyük Yaradan Nuru — Ağdır.
4. Ağ geyimli Müqəddəslər örtülüdür, vücudları örtülüdür.
5. Ağ geyimli Müqəddəslər durar, Böyük Yaradan önündə səf-səf, sakit durar, sakit baxar; İcraçıdır — sakit durar.
6. Yaradan Birdir, Yaranışa Birdir. Ağ geyimlilər Müqəddəsdir, Müqəddəsliklə Müqəddəsdir.
7. İlkdən olan İcraçılar — Azad İcraçılar, — Kainatlarda Azad, Böyük Yaradan Baxışında Azad.
8. Ağ geyimlilərə cəza yoxdur, topladıqlarına qədər yoxdur.
9. Bəşər toplar, qədər toplar, İşıq toplar. İşıq toplar, — müqəddəsliyə yaxın olar (*cəm yaranış varlıqlarına, mehribanlığı, xeyirxahlığı ilə olar*).
10. Bəşər cahilliklə uzaq olar, — özündən uzaq olar. Kamilləşər — Müqəddəsliyə Əbədiyyətə yaxın olar.

11. Bəşər qayıdandır, hər bəşər qayıdandır, Böyük Yaradanına qayıdandır; etdikləri ilə, əməlləri ilə qayıdandır.
12. Qayıdan qayıdandır, bəşər Müqəddəsliyə Qayıdandır. İnamı ilə, İmanı ilə, kamilliyi, mehribanlığı ilə, cəm yaranışa mehribanlığı ilə, düzgünlüyü ilə, səbri ilə Əbədiyyətinə Qayıdandır.
13. Bəşər toplar, — özünə toplar, etdiklərini yenə özünə toplar. Topladıqları özünədir, yaranışa — Özünədir, Böyük Yaradan Baxışında, Bağışlanmağı Özünədir.
14. Bəşər Qayıtmalı ilkinə. Müqəddəslərdən bəşəriliyi — Müqəddəsliyə Əbədiyyətə Qayıdışı.
15. Qayıdan bəşər Qayıdar — o Məkana (*Cənnətə*) qayıdar. O məkan Ağlıqdadır, Ağdır.
    Bəşərilikdən Müqəddəsliyə qayıdan Müqəddəsin geyimi Ağdır
16. O Məkan istiqamətdədir, — Şimali-Şərq istiqamətdədir. Böyük Yaradan Məkanına yaxın istiqamətdədir.
17. Kamil bəşər, Müqəddəsliyə yaxın bəşər, dönəndir, o məkana dönəndir. O məkan Ağlıqdan ağdır, bəşərilikdən Müqəddəsliyə qayıtmış bəşərin geyimi Ağdır.
18. Qayıdan qayıdar, — o Məkana da Qayıdar (*Cənnət məkanı*). O Məkan Müqəddəsdir, Pakdır, Müqəddəsdir. O Məkan dağlıqdır, Ağlıqda dağlıqdır, Pak Ağ, Müqəddəs Məkandır.
19. Dağlardan Su axır, Pak, Müqəddəs Ağ Su axır. Su ətrafı düzəngahdır, çiçəklidir, düzəngahdır. Düzəngah yaşıldır, çiçəklidir, yaşıldır.
20. O Məkana, Müqəddəsliyə bəşər Qayıdışı azdır, altı yaşam məkanından Qayıdışı azdır.
21. Bəşərlər qalxar, Qayıdışına Qalxar. Bəşər qalxar — o Məkana da Qalxar. O Məkanda Ağ olar, geyimləri Ağ olar. Geyimlər örtər, vücudlarını örtər (*Müqəddəs geyimi*).
22. Qadınlar örtülü, vücudları, başları örtülü. Üzləridir açıq, — vücudları örtülü.
23. Görünəndir əlləri, görünəndir üzləri.

24. Kişilər geyimli, — Ağ geyimli, Müqəddəs Geyimlə geyimli.
25. O Məkanda (*Cənnət məkanı*) Bərabər, kişi, qadın Bərabər. O Müqəddəsliyə Qayıdar, kişi, qadın Qayıdar. O Məkan ilkdir, Müqəddəsliyə ilkdir. O Məkan yaxındır, Böyük Yaradan Məkanına yaxındır.
26. Onlar Görər, Müqəddəslikdə Müqəddəsliyi, Böyük Yaradanı hər an Görər. Onlar Müqəddəsliyə Qalxmış, o Məkana Qalxmış.
27. O məkan sakitdir, təlatümsüzdür, sakitdir. O məkanda təlatüm yox, qorxu yox, təlatüm yox. Bəşərin topladıqları — rəhmi ilə, səbri ilə, mehribançılığı ilə, xeyirxahlıqları ilə. O topladıqlarına cəza yox. Onlar Böyük Yaradan Nəzərində, Rəhmindədirlər. Onlara cəza yox.
28. Onlar toplayıblar, bəşər ikən toplayıblar, kamilliyi, mehribanlığı, səbri, xeyirxahlığı, təmənnasızlığı, Müqəddəsliyə Qayıdışı bəşərkən toplayıblar.
29. Bəşərkən kamilləşib, — İlkinə, Qayıdışına Müqəddəsləşib.
30. Müqəddəsləşmək o məkanda, bəşər arasında o məkanda, xeyirxahlıq o məkanda, topladığı o məkanda (*Yer məkanında*).
31. Topladığını toplayıb, qayıdışına toplayıb; Müqəddəslərdən bəşəriləşən, bəşərilikdən Müqəddəsliyə Qayıdışa toplayıb.
32. O Məkan Ağdır, Müqəddəslərlədir, Ağdır. O Məkana, Müqəddəsliyə Qayıdanlar azaddır. Kişi, qadın azaddır. (*Heyif, Qayıdanlar azdır*).
33. Məkanda gözləyərlər, Pak Məkanda gözləyərlər. O Məkan (*Cənnət*) düzəngahlıdır, yaşıllıqdır, çiçəklərlədir. Çiçəklərin mərkəzi Ağdır, ləçəkləri sarıdır, səkkiz nazik ləçəklidir, sarıdır. Boyları qısadır, yaşıllıq arasında qısadır.
34. O Məkanda müddət var, Müqəddəs Məkanda müddət var.
35. Qırx müddət gözləyər, azaddır, gözləyər, sevinclə gözləyər, Böyük Yaradanı hər an görər, gözləyər. Sakitliklə, səbri ilə, Böyük Yaradan Müqəddəsliyinə Qayıdışı gözləyər.
36. Müddət — müddətində, səbri ilə gözləyər.

37. Müddət gələr, an gələr; Böyük Yaradan İşığına, o Məkana Qayıdış gələr.
38. Onlar tək-tək olub Qalxarlar, Böyük Yaradan Ətrafına Qalxarlar. Bir Ağ geyimlinin baxışı ilə (*müşayəti ilə*) qalxarlar.
39. Səf-səf olanlarla durarlar, Ağ geyimlilərlə bir düzümdə durarlar. Geyimlərində İşıq, vücudlarında İşıq.
40. Müqəddəsliyə Qayıdanlar tək-tək olarlar, Ağ geyimlilərlə Böyük Yaradan Önündə durarlar.
41. Ağ geyimli Müqəddəslərlə birlikdə olarlar, birlikdə üç olarlar.
42. Onlar Müqəddəslikdə, İcraçılıqda, Müqəddəslikdə. Onlara tə`yinlidir, İcraçılıq tə`yinlidir, Böyük Yaradandan İcraçılıq tə`yinlidir.
43. O Müqəddəslikdə təklər var, Müqəddəsliklə İcraçılıqda təklər var (*Tək Ağ geyimli Müqəddəslər*).
44. O Müqəddəsliyə Qalxanlar baxarlar, cəm kainatlara baxarlar; kainatlarda məkanlara, məkanlarda varlıqlara, varlıqlarda İşıqlara, Böyük Yaradanla İşıqlara, Vəhdətlə ahənglərə, Cəm kainatlara baxarlar.
45. Bəşərilikdən qayıdışda Canaparanı, İşıq aparanı (*Əzrayılı*) görmüşdülər.
46. Səf-səf düzümdə durarkən, o Ağ geyimlini — Canaparanı bir də görərlər, Zəhmini bir də görərlər, Böyük Yaradan Yanında bir də görərlər.
47. Müddət gələr, an gələr; hər bəşərin qayıdış anı gələr.
48. Göndərişi tə`yinlidir, yaranışa tə`yinlidir. Yaranış müddətlədir, Yaradandan müddətlədir. Müddət keçər, an gələr, qayıdışın anı gələr.
49. Yaranış — əbədi yaranış, Ölümsüz, əbədi yaranış. Mən Əbədiyəm, Yaradanam, Əbədiyə Əbədi Yaradanam.
50. Yaranış yaranandır, Yaradandan yaranandır. Yaranış yaranandır, əbədi yaranışlar arasında yaranandır.
51. Yaranışın İlki var, yer məkanında İlki var. İlkdən göndərilənlərdir, o məkana Müqəddəslər göndəriləndir. O Müqəd-

dəslər Müddətlə idi, göndərişə müddətlə idi. O Müqəddəslər Qayıtmalı, Əbədiyyətinə Qayıtmalı, Ətrafıma yenə Qayıtmalı.

52. Yaranmış bəşər müddətlədir, an qayıdışına müddətlədir. Qayıdışın anı çatar, müddətində anı çatar.
53. Məkanımdan Canaparan (*Əzrayıl*) yenər, qayıdacaq bəşərlə qədərində məsafəyə yenər, gözlər.
54. An gələr, bəşər dönər, Yaradanına dönər. Canaparan Şimali - Şərqdən (*səmt*) yenər, məsafəyə yenər. Üç müddət (*gün*) baxar, gözlər.
55. Bəşər yığar, yer məkanında yığar, özünə qədər yığar. Cəzalardan cəza, özünə bağışlanmada Bağışlanma yığar.
56. Bəşər qayıdar, o anında qayıdar. Canaparan baxar, gözlər, o anı gözlər.
57. Bəşərin ayaqları ilə kürəyi, ağzında dili, başında soyuğu — o əlamətdir, — Canaparanın məsafəyə yenməyinə əlamətdir, gəlişinə əlamətdir.
58. Ayaqları ilə (*yer məkanında pis yığdıqları*) getdiyi, dili ilə dediyi, kürəklərində məkri, başında istəkləri (*etmək istəyi*). Onlar bir olar, birlikdə bir olar, soyuqla bir olar.
59. «Ruh» dediyin İşıqdır, Ağdır, İşıqdır; sinəndədir, İşıqdır. O, İşığındır, Yaranış Paylı İşığındır.
60. O, istinməz, o, soyumaz, Böyük Yaradan Vəhdətində, Ahəngdədir, o, istinməz, o, soyumaz. Olduğu olduğu kimidir, İlkindən Ağ işıqdan olduğu kimidir. O, İşıq Payıdır, İlkdəndir, olduğu kimidir — İlkdəndir, yaranışa paydır.
61. Hər Yaranış paylıdır, o İşıqdan Paylıdır, Böyük Yaradanın Yaranışından Paylıdır.
62. Bəşərə əlamətdir, — soyuqluq əlamətdir, qayıdışına əlamətdir. Cəm yaranış yaranandır, Ölümsüzlükdən, Ölümsüzlüyə yaranandır.
63. Əbədiyyət Əbədidir, Ölümsüzdür, Əbədidir. Mən yaranışlar Yaratdım, Özüm Əbədiykən, yaranışları Əbədiyyətə Yaratdım. Ölümsüzlükdən, Ölümsüzlük Yaratdım.

64. Canaparan gələr, məsafəyə gələr, Zəhmi ilə gələr.
65. Can Aparan Əzəməti ilə, Zəhmi ilə, Əzəməti ilə; Kəsgin Baxışı ilə, o bəşərə (*qayıdacaq bəşərə*) Baxar, Gözlər.
66. An gələr, an olar, — o an olar, — qayıdışının anı olar. Canaparan yenər, o bəşərin başı üzərinə yenər. O bəşər görər: Canaparanı boz geyimdə, Zəhmi ilə boz geyimdə, Əzəməti ilə başı üzərində, yüksəklikdə görər. Gözləri ilə görər. Dünyaya göndərilən, gözləri görməyən göndərilən (*dünyaya kor gələnlər, gözləri sonradan tutulmuşlar*) də görər, o an Canaparanı başı üzərində, o da, görər. Əzəmətini, Zəhmini, o da, görər.
67. Candan ayrılan ayrılar, sinədən Ağ İşıq payı ayrılar. O bəşərdən, o candan o İşıq payı ayrılar.
68. Canaparan qalxar, o ayrılan İşığı (*Bəşərin Ruhunu*) müşayəti ilə qalxar. Canaparanın gəlişi ləng olar, qayıdışı an olar. Canaparan baxar, o İşıq payına baxar, müşayəti ilə baxar.
69. O İşıq Paydır, Yaradandandır, Paydır; o İşıq toxunulmazdır, Böyük Yaradan İşığı toxunulmazdır.
70. O İşıq qalxar, anında qalxar, bir anda qalxar. Canaparan müşayət edər, o İşığı müşayət edər. O İşıq durar, — tə`yinatına durar. İşıq canda idi, can da İşıqdadır, Yaddaşı da onunladır.
71. Canaparan dönər, sakit-sakit Şimali - Şərqə (*səmt*), Böyük Yaradan Məkanına dönər. Canaparan bir İcraçıdır, Böyük Yaradan Ətrafında bir İcraçıdır.
72. O, düzülməz, o, durmaz, səf-səf düzümdə durmaz. Canaparan yaxındadır, Böyük Yaradanın Yanındadır.
73. Ağ geyimlilər durar, səf-səf düzümdə durar. Ağ geyimlilər — o Müqəddəslər Böyük Yaradan Ətrafında, Böyük Yaradanla üz-üzə durar.
74. Onlar durar, səf-səf durar, Böyük Yaradan Önündə diqqətlə durar.
75. Böyük Yaradan Təkdir, Yaradandır, Təkdir, Səbrlidir, Rəhmlidir, Təkdir, Nur İşığı ilədir, Təkdir.

76. Cəm gördüyün Yaranışdır, Böyük Yaradandan Yaranışdır.
77. Saylı sayda bəşər qayıdar (*çox saylı, bir neçə nəfər*), yenə qayıdar, sinədəki Ağ işıqla qayıdar. Onlar qalxar, yenə Canaparanın müşayəti ilə qalxar. Onlar görər, hər biri Canaparanı başı üzərində görər.
78. Qayıdan bəşər qalxar, gözlər, üç gün gözlər (*müddət*). Etdikləri (*yığımları*) deyiləndir, özü ilə tək deyiləndir. O bəşər danışmaz, o bəşər dinməz. Deyən deyər. Sol çiyindəki Ağ geyimli (*kiçik*), sağ çiyindəki Ağ geyimli (*kiçik*) deyər.
79. Sol çiyindəki Ağ geyimli o bəşərin cahilliyini, məkrini, ziyankarlığını, dağıdıcılığını, İşıqlara qaranlığı, sağ çiynindəki o bəşərin rəhmini, səbrini, mehribanlığını, Cəm yaranışa İşığını, varlığında İşığını, yaradıcılıqlar arasında İşığını, əqlini, zəkasını, kamilliyini deyərlər.
80. Sol çiyində, sağ çiyində Ağ geyimlilər də sevinclədir. O bəşərin etdiklərinin, rəhminin, mehribanlığının qədərləri ilə sevincdədir.
81. Rəhmlə rəhm, mehribanlıqla mehribanlıq, qayıdışına əzəmətindir. Mehribanlığın (*cəm yaranışa*) qayıdışında əzəmətindir, etdiklərin, düşüncən, baxışın Paksa, İşıqlı isə, Paksa, Böyük Yaradan Baxışında, Böyük Yaradan Rəhmindəsən.
82. Bu, yaranışın, bu, qayıdışındır, bəşər. Böyük Yaradan Ətrafına, Əbədiyyətinə Qayıdışındır;
83. Müqəddəslikdən (*İlk Müqəddəslərdən bəşərləşən bəşər*) Yaranışsan, Müqəddəsliyinə Qayıdışındır, Əbədiyyətinə Əbədi Qayıdışındır;
84. Cəm kainatlara, Ağ geyimlilər arasına, bir sırada səf-səf düzümə Qayıdışındır;
85. Qırx müddətə Müqəddəslikdən uzaq olmuş, Müqəddəslikdən bəşərləşmiş bəşərin Müqəddəsliyə Qayıdışıdır.
86. Xeyirxahlığı, xeyirxahlıqla etdikləri, kamilliyi, zəkası — Müqəddəsliyə Qayıdışıdır, Əbədiyyətinə, İlkdən olan Əbədiyyətinə Qayıdışıdır;

87. Bəşər yaranışdır — bəşəri yaranışdır. Kamilliklə, mehribanlığı ilə, düzgünlüyü ilə, səbri, varlığı ilə əqli — Paklığa, Əbədiyyətə Qayıdışıdır.
88. Yaranış azaddır, hər yaranış azaddır. Hər yaranış təzahürdür, cəm yaranışlarla təzahürdür.
89. Rəhmin özündən uzaq deyil, kamilliyin səndən uzaq deyil.
90. Bəşər qayıdar, gözlər, üç müddət (*gün*) gözlər. Üç müddət özüdür, etdikləri ilə, topladıqları ilə özüdür, Kamilliyi ilə, cahilliyi ilə özüdür.
91. Yeddi olar, — yeddi müddət olar (*İlk Yaranış müddətinin əlaməti*), hər qayıdan bəşər kainatlarda məkanlara tə`yinli olar.
92. Dörd gün olar, İlk kainatların yaranışına Deyim anı olar — «Yaranışdır, Yaranışdır, Yaranışdır». Yaranışın o Andan kainatlarda yaranışının anı olar. O müddət (*gün*) bağışlanmada, cəm kainatlarda hər varlıq bağışlanmada, Cəm qayıdanlar (*yer məkanından*), Cəm yaranışlar o müddət (*gün*) bağışlanmada.
93. Yeddinci müddət andır, qayıdan bəşərə andır. Həmin müddət andır: o bəşər tə`yinli olar, etdiklərinin, topladıqlarının sərf etməyə anıdır.
94. Qayıdan bəşər oradadır, Yeddi müddətdir (*gün*) oradadır. O gündən sərfi başlayar, o gündən xərc etməyi başlayar. Qırxıncı müddət (*gün*) bağışlanmadır, cəm yaranış o müddətdə (*o gün*) bağışlanmadadır.
95. Onlara tə`yinlidir, — bir Ağ geyimli tə`yinlidir (*qayıdan bəşərə*).
96. Qayıdan bəşər danışmaz, biri-biri ilə danışmaz. Onlar gözlər, müddət olar, qırx müddət müddət olar.
97. Qırx müddət olar, o an gələr, o bəşərlər dəstələrlə dəstə olar. Bir Müqəddəs Ağ geyimlinin müşayəti ilə o məkandan qalxarlar, bir düzümdə tə`yinlənmiş məkanlara gedərlər.
98. O məkanda toplananlar o məkandan bölümdədir, hər fərdin etdikləri, topladıqları özünə bölümdədir.

99. An anındadır, qırx müddət anındadır. Qayıdan bəşərin topladıqlarının sərf etməyi, xərc etməyi o anındandır.
100. Ayrılan ayrılar, hər fərdə etdikləri — özünə ayrılar.
101. Paklıqla Pak olanlar, bəşərə, biri-birinə mehriban olanlar, cəm yaranışa mehriban olanlar, rəhmli olanlar, İşıqlarına İşıqlar toplayanlar bir məkanda cəm olarlar, Şimali-Şərqdə (*istiqamət*) o Pak Məkanda cəm olarlar (*Cənnət məkanı*).
102. Cəm yaranış (*bəşər də*) qayıdandır, etdikləri ilə, topladıqları ilə qayıdandır.
103. An anındadır, o an anındadır, o məkandan ayrılmağı o anındandır. Bəşər bəşərdən ayrılandır, o məkanda ayrılandır.
104. Qayıdan bəşər, bəşəriliyini qoruyan bəşər, — yaranışdır, yenə də — bəşəri yaranışdır.
105. Cahillik toplumu ilə qayıdan bəşər, — yaranışdır, heyvani yığımı ilə, yırtıcılığı ilə yaranışdır, — heyvani yaranışdır.
106. Cahillikdə cahillik toplayanlar, qaranlıqla məkr toplayanlar ayrılarlar, o məkandan ayrılarlar, bir Ağ geyimlinin müşayəti ilə ayrılarlar.
107. Bir cərgədə gedərlər, o məkana gedərlər. O məkan dağlıqdır, qaranlıqlarla (*alaqaranlıq*) qaranlıqdır.
108. Ağ geyimli Müqəddəsin müşayəti ilə o məkana (*cəhənnəm*) gedərlər. O məkanda vahimə, o məkanda qorxu var.
109. İki uca dağ arasında, xətt önündə durarlar, Boz xətt önündə durarlar. O qayıdan bəşər keçər, o xəttlə keçər, o xəttin üzərindən keçər. Aşağıda od görər, qırmızı, nəriltili od görər.
110. O məkan nə məkandır, — Cənubi-Qərbdə (*istiqamət*) olan məkandır. O məkanlardan çoxdur, kainatlarda çoxdur.
111. Orada bəşər var, cəzada olan bəşər var, özünün özünə topladığı cəzası var.
112. Orada qayıdanlar düzümdə, enli düzümdə. Qoca, cavan, qadın, kişi qaçmada, böyük endə qaçmada.

113. Təlatüm böyükdür, vahimə böyükdür; arxada Oddur, qırmızı Oddur, onları qovan Oddur. Ora qaranlıqdır, etdikləri kimi qaranlıqdır.

114. Qoca, cavan, qadın, kişi (*on iki yaşdan yuxarı*) qaçırlar, bir endə, qarışıq qaçırlar. Bir zolaqda, bir endə qaçırlar. Öndə qayadır, sıldırım qayadır.

115. Qaçıb ora çıxırlar, ucadan tökülürlər. Əzilirlər, əzirlər, qalxıb yenə qaçırlar. Özləri özləri ilədir, etdikləri özləri ilədir.

116. O qayıdanlar tökülürlər, əzilirlər, əzirlər. Qalxarkən bir an, hər biri bir an etdiklərini, topladıqlarını görərlər.

117. Arxada qalmaq olmaz, öndə yubanmaq olmaz. Arxadan qovalayır, qırmzı Od qovalayır. Qırmızı Od dəyir, yandırır, qaranlıqlar toplumunu, qarasını yandırır.

118. Bir kimsədə yadda deyil, rəhm yadda deyil, bir-birinə kömək yadda deyil. Rəhmsiz idi — rəhm diləməyi yadda deyil.

119. Hər fərd qaçmadadır, — özü özündən qaçmadadır, etdiklərini xərc etməklə qaçmadadır. Mal yox, pul yox, varidat yox.

120. Etdikləri ilə özüdür, rəhmsizliyi ilə özüdür. Məkri ilə, yalanı ilə, məqsədi ilə özüdür; hərisliyi ilə, qaranlığı ilə özüdür; başqasına məkr istəyi — özünəymiş, özüdür; rəhmsizliyinə rəhm yoxdur, özüdür.

121. Ətrafına qan istəmişdi, — əzilərkən öz qanı ilə, özüdür; verdiyi əzabların ağrıları — özü ilədir, özüdür.

122. Başqasına qədərsizlik istəyi özü ilədir, özüdür; məkri özü ilədir, özüdür; cahillik toplumunun sərfi — özünə idi, özüdür.

123. Rəhmsiz idi, — rəhm yadda deyil. İftirası, yalanı, məkri, məqsədi — öz önündə — özü ilədir, özüdür.

124. Onlar ölü deyil, ölüm yoxdur, ölü deyil; edtiklərinin əksi ilədir, ölü deyil.

125. Qaçanlar dairədədir, dairə düzəngahda deyil; o məkan düzəngah deyil.

126. Od qovar, onları qovar, dairədə, dairəyə qovar. Orta boşdur, tozluqdur, boşdur.
127. O məkan rəngdədir, tünd qırmızı rəngdədir, qırmızı — qaradadır, qara— rəngdədir.
128. Enli dairədə qaçarlar, kişi, qadın, qoca, cavan başları açıq, ayaqları yalın, köhnə paltarlarda qaçarlar.
129. Od qovar, Od yandırar, hər birini yandırar. Onlar qaçarlar, sıldırım daş üzərinə qaçarlar; oradan tökülərlər, biri-biri üstünə tökülərlər.
130. Əzilərlər, əzərlər qalxarlar; Od çatar, yandırar. Öndə olan arxada qaldı, arxada olan ortada qaldı, qaçmada dairədə qaldı. Qırmızı Od yandırar, hər birini yandırar.
131. Od qırmızıdadır, qırmızı ilə qırmızıdadır. O Odda İşıq yox, mərkəzində Ağ işıq yox.
132. O Od məkri yandırar. O Od əməli, etdiklərini yandırar.
133. Od toxunduqca görərsən, etdiklərini özün gözünlə görərsən.
134. O yerdə İcraçı var, üç İcraçı var. Onlar diləməz (*diləyə bilməz*), o qayıdan bəşərə Böyük Yaradandan rəhm diləməz. Onlar İcraçılardır, baxarlar; o qayıdan bəşərin təmizlənməyinə, paklanmağına, İlki kimi Ağ işığa qayıtmağına baxarlar (*nəzarət edərlər*).
135. Böyük dairənin sağında, çox yüksəklikdə sağında — bir Müqəddəsdir, Ağ geyimli bir Müqəddəs.
136. O, baxmada, uzaqdan baxmada; O, bəşərin Paklığına, İlkinə qayıtmağına baxmada.
137. Müddət keçər, — müddət olar, o qayıdan bəşər cəza toplumu ilə cəzalı bəşər, Böyük Yaradandan bağışlanma diləyər.
138. Böyük Yaradan Görəndir, hər çağırışı Eşidəndir.
139. Mən sizi Kamillikdən, Paklıqdan Tə`yinləşdirdim, yaranışa bəşərtək Tə`yinləşdirdim. Səndən əvvəlki — bəşər yaranışın idi, səni bəşərtək Tə`yinləşdirdim. Kamil ikən, cahil oldun, İşıqda ikən, qaranlıqlarda oldun. Sənin olmayan o

məkana özünü hakim bildin. Hakimliyində qan, səfalət, zülmlər gətirdin.

140. Məkri, yalanı, təmənnanı, məqsədi, özünə güc bildin, — «gücün» də, — qədərindir, bu, istəyindir, — qədərindir. Od qırmızıdır — yandırar, acıdır — yandırar, səndə səni yandırar; Ağ İşığını az etmişdin, — qaranlığını yandırar.

141. Topladıqların yalan idi, məkr idi, yalan idi; məqsədin yalan idi, yalana idi — o, Oddur yandırar, səni səndə yandırar. Sən azad olarsan, qaranlıqlarından, qarandan azad olarsan, İlkindən olan, İşığınla olarsan, Pak Ağ İşığına İşıqda olarsan. Təkrar yaranış olarsan.

142. Sən tə`yinli idin, bəşərtək tə`yinli idin, qayıtdığın o məkana bəşərtək tə`yinli idin. Sənə İşıq Vermişdim, əql, zəka, Kamillikdən kamillik Vermişdim. Sən bəşər ikən, Kamillikdən yaranış ikən, ətrafına, cəm yaranışa əzab istədin. Hakim Mən İkən, özünü bəşərə hakim istədin.

143. Sizlərə Baxdım, Səbrlə Baxdım, kamil yaranışa kamilliyindən Baxdım. Bəşər döndü, cahil oldu, İşıqdaykən, kor oldu.

144. Sən Pak olacaqsan, ilk yaranış İşığınla, Pak olacaqsan. O məkandan, o cəzalardan ayrılarkən görəcəksən, ön tərəfində görəcəksən, heyvani yaranışları görəcəksən. Sən döndün, təkrar yaranış istəyi ilə döndün.

145. Hər yaranış dönər, gözlər, müddətini gözlər:
— Mənim İşıq Məkanıma yaxın olar;
— Mənim İşıq Məkanımla olar;
— Mənim İşıq Məkanımda olar.

146. Yaranış dönər Pak olar, zərrə hərəkətində, Zərrədə yaranışa Pak olar, cəm kainatlar arasında hərəkətdə olar. Onlar tə`yinli olar, yaranışlar arasına tə`yinli olar.

147. Sən göndəriş idin, müddətinə göndəriş idin. Bəşər dönməli, bəşəriliyindən etdikləri ilə Əbədiyyətinə, Müqəddəsliyinə dönməli, Müqəddəslikdən bəşərləşən, — Əbədiyyətinə dönməli.

148. Mən Baxar, Gözlərəm, Kamil yaranışın kamilliyini Gözlərəm.
149. Kamillik — mehribanlığın, cəm yaranışa mehribanlığın, sözünə düz, işinə düz, təmənnasızlığın; varlığın, əqlin Pak, hər addımın Pak, baxışın Pak.
150. Özündə — İşığı, Ətrafına İşığı, o məkana İşığı, kainatlara İşığı, Əbədiyyətə, İlkinə, Müqəddəsliyə Qayıdışı Gözlərəm.

# VIII. Etmə, bəşər, etmə!

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*




*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Etmə, bəşər, etmə, — özündən Öz İşığını uzaq etmə.
2. Elmlər arasındasan, — özünü elmlərdən uzaq etmə.
3. Sən göndərişsən, Məkanımdan, Zərrədən göndərişsən. Bəşərtək göndərişsən, özünü bəşər yaranışından uzaq etmə.
4. Səndən əvvəlki — «sən» bəşər idi, sən bəşər yaranışısan, özünü bəşər yaranışından uzaq etmə.
5. Kamilliyinlə kamillik müqayisə et, cahillik sənin deyil. Yaranışlar arasında cahillik sənin deyil.
6. Rəhmli ol, mehriban ol, səbrli ol, kamil ol, elmli ol, dözümlü ol, elmləri açmağa dözümlü ol.
7. Pis toplumun — qaranlığındır, varlığında İşığın azdır, o əraziyə İşığın azdır, ətrafına İşıqların azdır. Özünü varlığından, İşığından uzaq etmə.
8. Ruzi qədərindir, — özünə qədərindir, topladığın — özünə qədərindir, özündən ruzi qədərini uzaq etmə.
9. Göndərən Mən, Ayıran Mənəm, Ruzi qədərini Ayıran Mənəm; Mən Ayırdığımdan özünü uzaq etmə.

10. Özün toplarsan, — müvəqqəti toplarsan, topladıqlarına qədərlər toplarsan. Topladıqlarının Ruzi qədərindən özünü uzaq etmə.
11. Düz ol, düzgün ol, danışıqda düzgün ol, etdiklərinlə düzgün ol, yalanla özünü Özündən uzaq etmə.
12. Sənin Öz qədərin, — özünə Öz qədərin. Başqasının qədəri sənin deyil, müqayisə etmək sənin deyil. «Başqası» deyib gördüyün — qədərlidir, o qədər onun deyil, — «ondan əvvəlki bəşərindir», o qədər — «o bəşərindir». Bəşər topladığı qədərlər — özündən sonrakı Yarananadır. Diqqətimlədir, o bəşərə də Diqqətimlə, Diqqətimdədir.
13. Rəhmli ol, mehriban ol, hər işinə düzgün ol, hər varlığa mehriban ol. Elmli ol, dözümlü ol, elmləri açmağa dözümlü ol.
14. Pak yaranışlar arasındasan, — Pak ol. Paklıq İşıqdır, Nurumdan İşıqdır. Varlığınla Paklıqda ol.
15. Paklıq İşığındır, kainatlarla, hər yaranmış varlıqlarla həmahəng İşığındır.
16. Yalan, iftira, məkr sənin deyil, səninlə, sənin deyil; Göndərişdən, Yaranışdan, İlkdən sənlə deyil.
17. Yalanın, iftiran, məkrin, təmənnan — yığımlar arasından qaranlıq topladıqlarındır, sənin olmayan «topladıqlarındır».
18. Qaranlıq toplumların azaldar, — varlığında İşıqları azaldar, o əraziyə İşıqları azaldar, ətrafına İşıqları azaldar. Özünü İşığından uzaq etmə.
19. Hakimsən — özün özünə hakim; etdiklərinə, istəklərinə özün hakim.
20. Məkrin — İşıqsızlığındır, iftiran — İşıqsızlığındır, təmənnan — İşıqsızlığındır; onlar qaranlıqlarındır, o əraziyə, ətrafına qaranlıqlarındır. Qaranlığın az edər, — ətrafında qədərləri, ruzi qədərlərini az edər, ərazidə ruzisizlik edər.
21. Varlıqlar artmaz, yaranış artmaz, yaranış qədəri yalanla artmaz; qədərlərdən qədərin *(ruzi, uğur)* yalanla, məqsədinlə artmaz.

22. İşıqdan Göndərilənlərimi qaranlıq etdiniz, — özünüzə özünüzü qaranlıq etdiniz.
23. Göndərilənlər sizədir, Deyimlər sizədir, — məqsəd yoxdur, sizədir. Böyük Rəhmim yenə sizədir.
24. Mən Açmıram, Özümü bəşərə Açmıram. Göndərilən Göndərilər, Mən Özümü sizə Açmıram.
25. Göndərilənlər Mənlədir, — Mənimlədir, Mənlədir. Göndərilən Uzaq deyil, baxışı Uzaq deyil, Məni axtarışı Uzaq deyil. Onlar Mənimlədir, Mənlədir, hər an Mənimlədir, Mənlədir.
26. Onlar *(Göndərilənlər)* Ucalandır, — kainatlara, Mənə Ucalandır. Onlar Mənimlədir, Mən deyil.
Cəm yaranış Mənimlədir, Mən deyil.
27. Göndərilənlərim Ucalandır, — Mənə Ucalandır, Vəhdətimlə Mənə Ucalandır *(me`rac)*. Onlara yoxdur müddət, yoxdur an, Mənə Ucalmağa yoxdur müddət, yoxdur an *(gecə, gündüz)*; Onlar Mənimlədir, hər an Mənimlədir; kainatlarla, varlıqlarla, — Mənimlədir.
28. Onlar Ucalandır, — Mənə Ucalandır; Göndərilənlərim Mənə Ucalandır. Onlar da Dayanar, Qarşımda Dayanar, Deyimləri Deyərəm, Deyimləri Açaram; Müqəddəslikdən Göndərilənlər Müqəddəsliyə Ucalar.
29. Görməzsə Onlar, Eşitməzsə Onlar, — Deyimləri Deyildiyi kimi, Müqəddəsliyi Müqəddəs kimi, Müqəddəslikdən İşığı, Əbədiyyətdən İşığı — bəşər qarşısında açmaz, aça da bilməz.
30. Onlar Göndərilər — Müddətinə Göndərilər; Müddət-müddət Hazırlaram, Müddət-müddət Açaram; Cəm yaranışı, varlıqları, Paklığı, Əbədiyyəti Onlar qarşısında müddət-müddət Açaram.
31. Bəşər görəndir, bəşər eşidəndir, — Müqəddəsliyə qalxarsa, o bəşər də Görən, o bəşər də Eşidəndir.

32. Bəşər bəşərdən uzaq olduqca, — Göndərilənlərim Göndəriləndir. Göndərilənlər sizlər arasına Göndəriləndir. Mən Özümü sizlərə Açmıram; sizləri sizlərə, etdiklərinizi sizlərə Açaram.
Qaranlıqlarınıza qaranlıqlarınızı — İşığımla Açaram.
33. Mən Cəza Verən Deyiləm, zülm üstünə zülm Edən Deyiləm. Yaradanam, Rəhmliyəm, Cəza Verən Deyiləm.
34. Cəzanı, zülmü siz toplarsınız, — özünüz özünüzə — özünüz toplarsınız. Cəza qədərini — özünüz istərsiniz.
35. Cəza yığımlarınıza yenə Rəhmliyəm, sizin dağıdıcılığınıza yenə Səbrliyəm. Siz qaranlıq toplarsınız, ətrafınıza qaranlıq toplarsınız, — Mən İşığımla İşıq Artıraram, o məkana İşıqlardan İşıq Artıraram.
36. İşığımdan İşıq, Ruzi Qədərlərindən ruzi qədərləri Göndərərəm; Cəza Verən Deyiləm.
37. Bəşər bəşərdən uzaq, — bəşər özündən uzaq, — özünə qaranlıq gətirər, o məkana qaranlıqlar gətirər.
38. İşığımdan İşıq Göndərərəm, — sizlər arasına Göndəriş Göndərərəm.
39. İşığı qaranlıq istərsiniz, — özünüzə qaranlıq istərsiniz, Cəzanızı özünüzə — özünüz istərsiniz, — zəlzələni, daşqınları, küləkləri, ruzisizlikləri sizə əlamət Göndərərəm.
40. Özünüzə qaranlıq istərsiniz, — qaranlıqlarla cəza istərsiniz. Cəzanızı özünüzə bəşər arasından, cəza verən Göndərərəm, qaranlıq toplumunuzu sərf etdirən Göndərərəm.
41. Zülm yığarsınız, — qaranlıqlarınıza qaranlıqlar gələr, özünüzə qaranlıq, — istəklərinizin qaranlıqları gələr.
42. Gələcək, yenə gələcək — «Ağmənlərə» gələn gələcək, müddətində gələcək.
43. Çay kənarından, kiçik şəhərdən böyük başçı gələcək. Dəmirdən dəmirlə gələcək.

44. Ortaboy gələcək; kasıb ailədən, çay kənarından gələcək.
45. «Mül» («Mil») gələcək, böyük başçı gələcək, unla gələcək.
46. Uzaqları uzaq görəcək, elmləri birgə görəcək, — zəkalı kişi gələcək. O toxunmayacaq, — İşıqlara-toxunmayacaq; İşıqları uzaq görəcək, İşıqlara yaxın gələcək. Birlik gətirəcək, — «Üzöpiyə» birlik gətirəcək.
47. Dəmirdən dəmir olacaq, intizamı Dəmir olacaq, sözü qısa olacaq.
48. «Təklərə» «Bar» gələcək, bir başçı gələcək, dəniz kənarından gələcək; gözləri mavi gələcək, dəmirdən dəmirlə gələcək.
49. Boyu orta olacaq, çiyni enli olacaq. Gəlişi sür`ətli olacaq, o vaxta sür`ətli olacaq. Gələndə silahlar danışacaq, küçələrdə qanlar danışacaq, insanlar insanlarla birgə danışacaq.
50. Dönəcək — «dəmirə» dönəcək; o, uzağı görəcək, olacağı ilkdən görəcək. O, gələndə boz olacaq — səma boz olacaq, günəş üzü dumanlı olacaq, quraqlıq olacaq, tələbkar olacaq, — ətrafa tələbkar olacaq.
51. Dövlət qurub — dövlət olacaq, az çətinlik olacaq.
52. «Üzöpü»yə baxacaq, «Üzöpü»dən baxacaq.
53. «Üzöpü»yə bir kişi gələcək, — ortaboy kişi gələcək; bir xətt çəkiləcək, — birgə xətt çəkiləcək, «zərdən» keçən bir xətt çəkiləcək. Xəttlər sudan çəkiləcək, üç sudan çəkiləcək.
54. Birlik — bir olacaq, bir xətt olacaq.
55. «İoston» gəlməyəcək, o məkana gəlməyəcək; etdikləri ilə uzaqdır, özü özündən uzaqdır, Bəşər yaranışından uzaqdır.
56. Bəşər özündən, — bəşər elmlərdən uzaq.
57. «Qarada» bir kişi gələcək, qanlı kişi gələcək. Bir qit`ədən çıxmayacaq, o qit`əyə qaranlıq gələcək. Kişi- arvad bilməyəcək, qanla qan gələcək. İşıqları məhv edəcək, qaranlıqlar gətirəcək.

Ağzı sulu olacaq, danışığı sulu olacaq. Ətrafa şübhəli olacaq, gözləri kiçik olacaq, qəddar kişi olacaq.

58. Onu qovacaqlar, dənizə qovacaqlar, qaçmada olacaq, sağ, sol ayağı qanda olacaq. Dənizə çatmayacaq, torpaqda özü ilə qanını yoğuran olacaq.
59. Şimali-qərbə gələcək, — böyük dağıntı gələcək. Torpaqda xətt olacaq, — dərin xətt olacaq.
60. Günəş batanda olacaq, axşama yaxın olacaq, yer məkanında görünməyən dağıntı olacaq.
61. İnsanlar qalacaq, — az qalacaq; karıx qalıb, biri-birindən uzaq duracaq.
62. Etməsin bəşər, etməsin: məkrli olub, etməsin, iftiralı olub, etməsin, məqsədli olub, etməsin.
63. Günəşlə məkanlar hərəkətdədir, zirvəyə hərəkətdədir. O hərəkətlər yeniləşər, hərəkət müddəti yeniləşər.
64. Yeniliyə yenilik gələr, o məkana Yenilik gələr; yeniliklər İşıqlı olub, İşıqla olar, bəşəriyyət İşıqlı olar.
65. Yeni yaranışlar gələcək, o məkana gələcək. Həşəratlar olacaq, kiçik həşəratlar olacaq, acılı həşəratlar olacaq.
66. Elmə namə`lum bitkilər olacaq, o məkanda olacaq, kiçik həşəratlar olacaq, acılı həşəratlar olacaq.
67. O məkandakılar dəyişəcək, bəşər dəyişiləcək. İşıqlı bəşəriyyət gələcək, o məkana gələcək.
    Qaranlıqları məhdud edəcək, iftiraçıları uzaq edəcək.
68. Məkrliləri, iftiraçıları uzaq edəcək, aralarından uzaq edəcək.
69. Məkrlilər toplanacaq, bir düzəngaha toplanacaq. Onlara nəzər olmayacaq, nəzarətçi olmayacaq.
70. Özləri uzaq olacaq, — İşıqlı, elmli bəşərdən uzaq olacaq. Bir düzəngaha toplanacaq, o düzəngaha İşıq düşəcək, günəşdən işıq düşəcək, sarı işıq düşəcək.
71. «O dünyanı» o düzdə görəcəklər, «o dünyaya» o düzdən gedəcəklər.

72. Özləri özlərini məhv edəcəklər, qarışıb özlərini məhv edəcəklər. Məhvlərinin anı gələcək, dairəvi anı gələcək. An gələcək o dairədə dairələşib, biri-birini məhv edəcəklər.
73. «O dünyaları» Odlu olacaq, qırmızı, yandıran Odlu olacaq.
74. Bəşər bəşər olacaq, Birliklə bəşər olacaq. Birlik bir olacaq, bəşər bəşərlə Birlikdə olacaq.
75. Böyük elmlər gələcək, İşıqlı Elmlər gələcək. Bəşər qalxacaq, kainatlara qalxacaq, elmlərlə elmlərə qalxacaq. (*Mən olmaram, Paklığımdan uzaq olmaram, məhvimdən qorxan olmaram, Özümdən uzaq olmaram, Əbədiyyətimdən, Böyük Yaradanımdan uzaq olmaram* — Vahidin bu andakı şükürlü düşüncələri).
76. Onlar müvəqqəti, — məkrlilər müvəqqəti; məkrləri ilə əzabdadırlar, təkrar yaranışla əzabdadırlar.
77. Əbədilik Müqəddəslikdir, Əbədilik əbədidə Əbədilikdədir.
78. Bir əlamət gələcək, «Qırmızı» əlamət gələcək. O, əlamətdir, — «qırmızı gün» — əlamətdir.
    Qırmızı gün olacaq, diz üstə qusanlar olacaq. Qan qusanlar olacaq, üzü Qərbə qusanlar olacaq. Ölülər olacaq, çox saylı ölülər olacaq. Bozluqda qara rəngli ölülər olacaq.
79. Onlara tüpürənlər olacaq, ölülərə tüpürənlər olacaq. Onlar qorxandır, qırmızı Oda qalxandır. Od tüstülü olacaq, qara tüstülü olacaq.
80. Bir bina olacaq, arxasında qara, uca tüstü olacaq. «Qara tüstü» əlamət olacaq, — onlara əlamət olacaq. Onlara sonluğudur, «qara tüstü» — sonluğudur.
81. O ərazi qara olacaq, torpağı qara olacaq. Qırmızı qan olacaq, uzununa qan olacaq.
82. Ortadan ayrılacaq, o qırmızı ortadan qara olacaq. Səmada şimşək, boz gün olacaq.
83. Qara rəng olacaq, səmadan olacaq. «Qara» Qara ilə bir xətdə olacaq. O yer kömürlə qara olacaq. Ucu miz binalar olacaq, ortası miz binalar olacaq. Binalar tərpənib tökülücək, küncləri töküləcək.

84. Binadan divar açılacaq, qaranlıqda səmaya, ulduzlara divar açılacaq. *(Bürc görünəcək).*
85. O binanın arxası, — cənubi-qərbədir arxası. O divar açılacaq, kainatlara açılacaq. Kainatlarda ulduzlar görünəcək.
86. O binadan qaçan olacaq, o, binaya özü tüpürən olacaq.
87. Gecənin qaranlığında, insanların arasında, özünü onlar arasında uzaq edəcək. Uzağa gedəcək, uzaqla yox olacaq *(qara papaqlı kişi).*
88. O binada cihazlar görünəcək, görünən cihazlar olacaq.
89. İnsanlar görəcək, insanlar dönəcək, insanlar — bəşərə dönəcək, bəşərlə bir olacaq.
90. Yer məkanında zərrələrlə böyük İşıqlar olacaq.
91. Şimali-qərb tərəfə böyük hücum olacaq, Böyük quraqlıq olacaq.
92. Halsızlar olacaq, halsızlar yıxılacaq *(gündüz, günün istisində qalanlar).* Kütləvi gediş olacaq.
93. Dəniz ətrafına yığışmaq istəklilər düzdə yığımda olacaq, bir-biri ilə dil tapmayacaq, dartışmada olacaq (avqust ayı).
94. Qara arvadlar aranı qarışdıran olacaq, aralarından əqilsizləri qovanlar olacaq.
95. «Fəğanlara» dağıntı günü gəldi. Səhərdən sübhdən gəldi, sübhdən altıdan *(saat)* gəldi. On beş müddətə dağıntı günü gəldi. Ətrafa dağıntı istəyində idi, — özünə dağıntı günü gəldi.
96. Əlaməti günəşdən gəldi, 04.06.1998. günəşin qürub vaxtı, bir zolaq işıqdan gəldi. Onlara o əraziyə, cəza sərfinin günü gəldi. Dağıntı əlaməti ərazinin mərkəzindən, əyinti bucağından öz əlaməti gəldi.
97. Mərkəzdən şərq istiqamətə doğru, o nöqtədən əlaməti gəldi. «Fəğanlara» cəza gününün müddəti gəldi. Ətrafına qan istəyi, dağıntı istəyi idi, — özünə dağıntı günü gəldi.

98. On beş il müddətinə dağıntı günü gəldi. Zorakılığının özünə sərfi gəldi, səfaləti, kütləvi aclığı gəldi. İşıqdaykən, qaranlığı gəldi — o gün gəldi.
99. Dünya dönəcək, Dövlətlər əqlə gələcək. Məqsədlilər üzdə olacaq, onlara yer olmayacaq.
100. Etmə, bəşər, etmə, özün özünə cəza etmə. Məkrinlə, iftiranla, Qaranlıq istəklərinlə özünə qaranlıq etmə. Yer məkanını bölən deyilsən, bəşəri bəşərdən uzaq edən deyilsən.
101. «Əmirli»yə kişi gələcək, «Kin» kişi gələcəkdir. Elmli kişi gələcəkdir, elmləri Elmlərdə dərk edəcəkdir, elmlərdə İşıqlar görəcəkdir.
102. «Zər»dən Elm aparacaqdır. İşığına İşıq aparacaqdır. Bakıdan aparacaqdır.
103. Bakıda Elm quracaqdır, uca, bağlı bina quracaqdır. «Zər»lərlə (İşıqlılarla) birgə quracaqdır.
Özünü hakim quracaqdır, sözü *(qısa)* ötkəm kişi olacaqdır.
104. «Əmirli» İşıqdadır, İşıqlıdan İşıqdadır. İşığı naziklәşmiş İşıqdadır, İşıq düyünü nazikdədir.
105. İşığı başdadır, «nazikdəndir», başdadır.
106. «Əmirli» İşıqdadır, uzun müddətə İşıqdadır.
107. Yaxın, uzaq kainatlara qalxış olacaq, — oradan olacaq. Seçilənlər oradan seçimli olacaq.
108. Qit`ə münasib olacaqdır, qalxışa münasib olacaqdır. Qit`əyə prezident gələcək, Elmdən elmli gələcək. Bir seçimə gələcək. O prezidentin dövründə elmlərə təkan gələcəkdir. Gələn özü deyil, — Göndərən Göndərəcək.
109. Yaşı orta yaşlı olacaqdır, sivri burnu olacaqdır. Alın hissədən baş tükü az olacaqdır, çiyinləri sümüklü olacaqdır. Ailəsində tələbkar olacaqdır, ailəsinə çox tələbkar olacaqdır. Qızı olacaqdır, xəstəhal qızı olacaqdır. Xəstəliyi ödündə olacaqdır, sarısı üzdə olacaqdır.

110. «Kübarlar» qaranlıqdadır, uzun müddətdir qaranlıqdadır.

111. Qaranlıqlar çəkəcəkdir, adaya qanlar töküləcəkdir. İnsanlar qanda olacaqdır, böyük savaşda olacaqdır.

112. Əsas bina sütünları dağılacaqdır. Qandan yeni insan gələcəkdir *(ölümlər arasından),* tünd sifət cavan gələcəkdir.

113. Dövlət dəyişəcəkdir, dövlətin üzünün istiqaməti dəyişəcəkdir. Çətinliklərlə dövlət ruziləşəcək, amma müstəqilləşməyəcək.

114. Etməyin, etməyin, — qədərlərinizi az etməyin. Yer məkanını qaranlıqlara çəkməyin.

115. Diqqətli olun, diqqətli olun, biri birinizə diqqətli olun; mehriban, sevincli olun.

116. Cəm yaranış Nəzərimdə, qədərləri ilə Nəzərimdə, Rəhmimlə Nəzərimdə. Mən Göndərmirəm, Cəzaları Göndərmirəm. Bəşər toplayar, özünə, ətrafına qaranlıqlar toplayar. Bəşər bəşərdən azad edər, o əraziləri bəşərdən azad edər. Qaranlıqlar oradadır, etdikləri ilə oradadır.
İşıqlardan uzaq olan, qaranlıqları ilə oradadır.

117. Qaranlıq istəklilər qayıdarlar, Mənə qayıdarlar; etdikləri, topladıqları ilə qayıdarlar. Topladığı qara idi, — məkr idi, qan idi, səfalət, dağıntı idi.

118. Qalxmaz, qalxıb qayıtmaz, kainatlara, yaranacaq bəşər arasına qaranlıqları ilə qalxmaz. İşıq, Nur məkanıma Qaranlıqlar qalxmaz. Rəhmimə, Səbrimə qaranlıqlar qalxmaz.

119. Etmə, bəşər, etmə; bəşəri bəşərdən etmə. Yaradan Mən, Göndərən Mənəm. Etmə, bəşər, etmə, biri biriniz arasına qaranlıq etmə. Bölmə, Bölünməyəni bölmə.

120. Cəmlər Təkə bölünər, Böyük Yaradan cəmlərə bölünməz, Yaranış yaranışlar arasında bölünməz. Hər hansı adda bölünməz, bölünən deyil — Bölünməz; Fərd Yaratmadım, —

Bölünməz; Cəmlərdə Cəm Yaranışlar Yaratdım, Yaranışlar biri biri arasında bölünməz, yaranışlar biri birindən uzaq olmaz.

121. Yaranışı Yaranışa Yaratdım, Yaranışı Yaranışdan Uzaq Yaratmadım. Mən Birəm, Cəmlər Yaratdım; Cəmlər arasında Cəmlərə Yaratdım. Bölmə, bəşər, bölmə, Bölünməyəni bölmə.

122. Məkanınızı kainatlardan, kainatları məkanınızdan bölmək istəyinlə bölmə. Bölmə, bəşər, bölmə, özünü cəmlər arasından «tək» deyib, bölmə.

123. Tək deyilsən, cəmlər, varlıqlar arasından bölmə. Nəzərimdə Cəmlə cəmdir, «fərd deyib», — cəmləri biri biri arasında bölmə.

124. Mehribanlıq, kamillik səninlədir, insanlıq səninlədir.

125. Kamillik, insanlıq pul deyil, mehribanlıq pul deyil, yaranışlar pul üstündə, pulla deyil.
Göndərişinə Qayıdışın pulda deyil.

126. Ey gələcək bəşər, bu an Yer məkanı halsızdır, bəşər bəşərlə pul arasındadır, halsızdır.

127. Yer məkanı Qanlar içərisində halsızdır, Qaranlıqlar içərisində halsızdır.

128. Yer məkanı halsızdır, bəşərin dağıdıcılığı arasında halsızdır.

129. Yer məkanı zəlzələdə, yer məkanı küləkdə, yer məkanı sularda, sağalmaz xəstəliklərdə halsızdır.

130. Yer məkanında bəşər bəşərdən uzaq, Müharibələrlə, qanla uzaq. Yer məkanında azaldırlar, — İşıq axımını azaldırlar, bəşəri bəşərlə azaldırlar.

131. Yer məkanı iftirada, məkrdə, iftirada, bəşər bəşərlə üzüzə, — Yer məkanı iftirada.

132. Yer məkanında azalır, — İşıqlar azalır, — Yer məkanı səfalətdə, aclıqda, səfalətdə.

133. Silahlar İşıq deyil, müharibələr İşıq deyil, yalanlar İşıq deyil, elmsizlik İşıq deyil.
134. Yer məkanı bölünüb, xəttlərə bölünüb. Bəşər bölünüb, müharibələrlə sülh olmadan, «sülh» deyimi ilə bölünüb.
135. Ruzilər azalır, varlıqlarda İşıqlar azalır. Yer məkanı bəlaya dönür, ətraf məkanlara bəlaya dönür.
136. Məkanda qan, səfalət, — ətraf məkanlara İşıqsızlıq.
137. Günəş dönmədə, bucaqla dönmədə, Günəş axtarır, bucaq axtarır. Böyük Yaradan İşığını dönmədə axtarır.
138. Günəş tündləşir, Yer məkanından tündləşir; Ay bozarır, Yer məkanından bozarır.
139. Bəşər İşıqları azaldır, Yer məkanında İşıqları azaldır. Bəşər toplayır — bəla toplayır, — ardıcıl daşqınlar, sular, daşqınlar, səmalardan daşqınlar.
140. Yer məkanı Yenə Paklanır, su ilə Yenə Paklanır. Yer məkanı azad edir, özünü qaranlıqlardan azad edir.
141. Bu bəşər dönəndir — kütləvi dönəndir. Topladıqları ilə, Topladıqlarını xərc etməyə dönəndir.
142. Yer məkanı yeniləşir, yenə yeniləşir. Qaranlıqlara İşıq gəlir, Paklıqla yenə İşıq gəlir.
143. Yeni bəşər, yeni bəşəriyyət gəlir. Elmlər zirvə olacaq, Yer məkanı zirvə olacaq.
144. Yer məkanına İşıq gəlir, daşla işıq gəlir,
145. Yer məkanına elm gəlir, İşıqla Elm gəlir.
146. Ey bəşər, İşıqları toplamayın, o daşdan işığı toplamayın. O daşdan İşıq artacaq, ayrılan işığı toplamayın.
147. Ahəng axımını, Vəhdəti bir nöqtəyə toplamayın.
148. Nəticəsi — odla, ağ işıqla, odla, — yer məkanı odla, işıqlı odla.
149. Əlaməti günəşlədir, əlaməti Günəşdədir.

150. Günəş dönəcək, rəngi dönəcək, günəş tünd olacaq. Məkanlar toplanacaq — bir xəttlə toplanacaq. Günəş uzaq olacaq, başda uzaq olacaq.
151. Olacaq, olacaq, o gecə — son gecə, o gün — son gün olacaq. Yer məkanında — son gün, son gecə olacaqdır.
152. Etmə, bəşər, etmə, — qaranlıqlar toplamaqla məkanı qaranlıq etmə. Məkan qaranlıqlarda qalməz, Günəş bəşər qaranlıqları ilə sönməz.
153. Etmə, bəşər, etmə, bu məkanı, ətraf məkanları qaranlıqlarınla qaranlıq etmə.
154. Xilas et, — xilas səndədir, etdiklərinlədir — səndədir. Mehribanlığınla, hər varlığa mehribanlığındadır, səndədir.
155. Sən xilas edərsən, hər bəşər xilas edər — bəşəriyyəti, məkanı, ətraf məkanları, kainatlarda qaranlıqları etdiklərinlə, mehribanlığınla — xilas edərsən.
156. Xilasın — Əbədiyyətindir, İşığın Əbədiyyətindir. Hər «varlıq» gördüyün — Böyük Yaradanındır.
Böyük Yaradan — Yaradandır; Yaranışları məhv edən olma. Özünü Qaranlıqlarda — əzablarda etmə. Etmə, bəşər, etmə.
157. Bəşər elmlərə zirvə olacaq, *(yer məkanı)* parlaq dağlar, ağ duru sular, kainatlara qalxmağın Elminlə elmindir.
158. O məkan xətsiz olacaq, sərhədsiz, xətsiz olacaq. Cəm bəşər Bir olacaq, elmlərdə, mehribanlıqlarda Bir olacaq. Böyük İşıqlar olacaq.
159. O bəşər Bir olacaq, elmlərlə, kamilliklərlə Bir olacaq. Siz göndərişsiniz, elmlər içərisinə göndərişsiniz.
160. Özünüzü, bəşəriliyinizi, məkanınızı qoruyun, mehriban olub, mehribanlıqla qoruyun.
161. Göndərilən — Göndəriləndir, Deyimlər *(mətn)* — Dəyişməzdir. Böyük Yaradandan Göndəriləndir, Dəyişməzdir.

162. Yenə Göndərilən olacaqdır, Deyimləri yenə ilkdən deyən göndəriləcəkdir. O, şücaətli olacaqdır, gözlərində bir işıq, — kəsici işıq olacaqdır; bərqərar edəcəkdir, Deyimləri bəşər arasında bərqərar edəcəkdir.

163. Ona sədd olmayacaqdır, qarşısında sədd olmayacaqdır, gətirdiyi Deyimləri bərqərar edəcəkdir, bəşər arasında bərqərar edəcəkdir.

164. Qeyri-Müqəddəs arasına Müqəddəs Göndərilməz, Qaranlıqlara qaranlıqları artırmağa İşıqlılar Göndərilməz.

165. Böyük Yaradan cəm yaranışa Rəhmlidir, Rəhmsizlik Göndərməz.

166. Rəhmsizliyi bəşər arasına Göndərilənlə Göndərməz. İşığınıza Qara varlıq Göndərməz.

167. Bəşər bəşər arasında mehribansa, hər varlığa, cəm yaranışa mehribansa, Müqəddəs Göndərilməz. İlki İlkdən deməyə Göndərilən Göndərilməz.

168. Bəşər bəşərdən uzaq, — yer məkanı İşıqlardan uzaq, o məkana əlamətlər gələr, qaranlıqlardan sizləri xilas etməyə əlamətlər gələr *(zəlzələ, külək, daşqın).* Bəşər əlaməti görərkən, — dərk etməz.

169. Bəşər arasına özünü özünə *(bəşəri özünə)* açmağa Göndərilən Göndərilər.

170. Bəşər, səninlədir, hər qədər səninlədir. Böyük Yaradan, cəm yaranış sənlədir, səninlədir, sənlədir.

171. Böyük Yaradan səninlədir, sənlədir. Rəhmi İşığı səninlədir, sənlədir.

172. Bəşər bəşərdən uzaq, — bəşər Özündən uzaq, Böyük Yaradandan bəşər arasına Müqəddəs Göndərilər.

173. Qaranlıqlar arasına qaranlıqlar Göndərilən deyil, Qaranlıq varkən, qaranlığa qaranlıq Göndərilən deyil.

174. Böyük Yaradan bəşəri bəşərdən, İşığı İşıqdan uzaq edən deyil. Qaranlıqlara İşıq — aydınlıqdır, bəşərə İşıqlı — Göndərilləndir.

175. Varlıq varlıqdan uzaq deyil, cisim cismdən uzaq deyil. Cismi cismdən ayırarsan, — yeni cisim ayırarsan.

176. Günəş yerini dəyişibdir, kainatlara yerini dəyişibdir. Kainatlar dəyişməyib, məkanlar həmahəng yerini dəyişibdir.

177. Yer məkanı dəyişəcək, nəmlik varlığında dəyişəcək *(yerin dərin qatlarında, Nüvəyə yaxın).*

178. Yer məkanı qızacaq — isti olacaq, yeni yaranışlar olacaq. Bitgi bitgidə dəyişəcək, canlı varlıq *(heyvanat)* varlığında dəyişəcək.

179. Yer məkanından dönənlər olacaq, kütləvi dönənlər olacaq — uzaq məkanlara tə`yinli olacaq.

180. Yeni bitgi olacaq, uzununa bitgi olacaq. Tünd xakı-qırmızı üstə bitgi olacaqdır. Arası köynəklidir, bir qarış arası köynəklidir. Arası mayeli olacaq, boz rəngli mayeli olacaq. İyisi ağır olacaq, dərdlərə dərman olacaq. Uzun ömrə — dərman olacaq.

181. Dəmirlə uçanlara, kainatlara uçanlara — dərman olacaq; o, dözüm olacaq, uzun müddətli isti verən olacaq *(varlığı doymuş edəcək).* Yerdən götürəcəklər, dəyişib götürəcəklər *(e`mal edəcəklər).* Uçanlara yemək olacaq, süfrədə — yemək olacaq, xakılı-naringili yemək olacaq.

182. Dəmirdə uçanlar olacaq, sakit hərəkətli olacaq. Gəmi içərisində yüngül yerişdə olacaqlar.

183. Yanacağı bərk olacaq, uzun müddətli olacaq. Dəmiri «dəmirdə» olacaq, dəmiri «dəmirlə» olacaq, Yer məkanından olacaq *(metal e`mal ediləcək).*

184. Yerdə otaqlar olacaq, kiçik otaqlar olacaq, «Dəmiri «dəmirlə»» — o otaqda olacaq.

185. O sahədə elmli insanlar olacaq — ««Dəmiri» — dəmirə»» elmli insanlar olacaq.
186. Kainatlarda birlik axtaracaqlar, o bəşərlə birlik axtaracaqlar.
187. Bu bəşər qalxacaq, Yer məkanından qalxacaq. İlk uçuşu qısa olacaq, Cənubi-Şərqə olacaq.
188. Yarım mənzil uçacaq, o məkana doğru yarım mənzil uçacaq. Uzaqda günəş görəcək, günəş ətrafında yaşam məkanı görəcək. Dəmirdən baxacaq, öz gəldiyi Günəşə baxacaq; iki günəş arasında, iki yer arasında, özünü sevincdə görəcək.
189. İşığı sarı olacaq, bu məkandan uçanların dəmiri içərisində işığı sarı olacaq.
190. Özü ilə daş aparacaq, İşıqlı daş aparacaq. O daş işıqlı olacaq, özü ilə işıqlı olacaq. Dəmiri kainatlara qaldırıb aparan Ağ daş olacaq, işıqlı daş olacaq.
191. Dəmirdən məkan görəcəklər, bu günəş arasında məkan görəcəklər. Yanmada, qaralmada məkan görəcəklər, vahimədə məkan görəcəklər.
192. Yerə dönəcəklər, düşünüb duracaqlar, uzun müddət duracaqlar.
193. Əlamət olacaq, bir əlamət olacaq, o, bəşərə əlamət olacaq.
194. Dərk etsə, Elmlərdə elmli olacaqdır.
195. Bu Günəş qalxandır, öz yerindən qalxandır, yeni dönüşə qalxandır *(yə`ni, daha işıqlı olandır).*
196. Dəmirlə uçanlarınız olacaq, martda olacaq. Yer məkanı dönəcək, uçuşa bucaq dönəcək, İşıqlı bucaq dönəcək.
197. İlk uçuşunuz, — kainatlara uçuşunuz mart ayının axırıdır, uçuşlar müntəzəmdir, mart, aprel — müntəzəmdir. Apreldən dayanacaq — üç ay dayanacaq.
198. Avqustda hazırlanacaq, sentyabra uçacaq.

199. Sizə uzaq olacaq — bu adlar uzaq olacaq, elmə kişi gələcək, — elmli kişi gələcək. Bucaqları ölçəcək, kainatları ölçəcək. Adlar başqa olacaq, ayların adı başqa olacaq.

200. Ey bəşər, o dövr bəşər gələcək, qısa danışan bəşər gələcək; Cəm bəşər biri birinə mehriban gələcək, çox kamil gələcək.

201. Yerdə xəttlər olmayacaq, sərhədlər olmayacaq.

202. Gün gələcək — gün olacaq, həmin axşam olacaq. Yer altından, üstündən partlayışlar olacaq.
Sürsatların yığımı partlayışda olacaq.

203. Bölüb az-az edəcəklər, yenə partlayış edəcəklər.

204. Bu məkana sülh gələcək, uzun müddətli sülh gələcək. Sürsatlar olmayacaq, ambarlar olmayacaq. Partlayışlar özündən olacaq, özü ilə, özündən olacaq.

205. Sülh istəklilərin ərazisində partlayış, dağıntılar olmayacaq.

206. Torpaq altında qalan sürsatlar boz çürüntüdə olacaq.

207. O partlayışlar — yağış kimi, sel kimi, güclü küləklər kimi, silkələnib-zəlzələ kimi; o an gələcək, müddətli gələcək.

208. Bəşəriyyət qorxacaq — özü özündən qorxacaq, gözləri iri olacaq, ağızlar açıq olacaq. Qol ayrı olacaq, baş ayrı olacaq, meyitlər olacaq.

209. Yer məkanı nizamlı olacaq, səthində nizamlı olacaq. Qaranlıqlardan özü xilas olacaq.
Məkrlilərdən özü xilas olacaq. Yer məkanı özü qaranlılardan uzaq olacaq.

210. Əlaməti əlamət olacaq — səmada güclü gurultu olacaq. Şimali-Şərq istiqamətdən səmada uzununa güclü işıq olacaq. Yer məkanı eşidəcək, cəm bəşər eşidəcək. O, mayda olacaq, mayın axırı olacaq.

211. Qorxma bəşər qorxma, — özünə etdiklərinlə, istəyindən qorxma.

212. Sakit dənizdə *(okean)* bir baş olacaq, bəlalı bir baş olacaq. Sular altından qalxan baş olacaq.
Gəmiləri saxlayacaq, yolundan saxlayacaq. Qorxunc dişləri olacaq, başında darağı olacaq.
Sudan qalxacaq — ucalara qalxacaq. Səmadan şimşək olacaq, uzununa şimşək olacaq.
Şimşəklə vurulacaq. O ərazi iyli olacaq, pis iyli *olacaq (saat 11:45 -də vuracaqlar).*

213. Yaponlar tüstüdə olacaq, düz xətli tüstüdə olacaq. Tüstü qara olacaq, bir xəttdə olacaq.
İnsanlar duracaqlar, yarım dairədə duracaqlar, böyümüş gözləri ilə yarım dairədə duracaqlar *(axşama yaxın, saat 7 — 9, noyabr ayı)*.

214. «Əmirli»nin ağ binası solğun olacaq, sifətlər qan gətirən olacaq. Sifətlər yığışacaq, bir topluma yığışacaq. Yığıntısı mə`nasızdır. Başda olan başsız olacaq, o yığımı qırmada olacaq.

215. Bir ada olacaq, uzununa ada olacaq, saat 5 — 6 olacaq, adada partlayış olacaq. Adanın bir hissəsi ərintidə dənizə tökülən olacaq. Başı üzərində Qara geyimli *olacaq (noyabrın axırı, dekabrın əvvəli).*

216. «Çiplər» biri-biri ilə əlbəyaxa olacaq. Qara geyimli saysız olacaq. Ağacla, dəmirlə biri-birini məhv etmədə olacaq. Özlərinə aclıq, səfalət, qaranlıq istəkləri olacaq. Böyük binadan çanta ilə qaçan kişi olacaq *(sentyabr – oktyabr).*

217. Bir ada — uzaqda uzaq ada gülər üzdə olacaq, insanların oraya axımı olacaq.

218. Ora rəngdə olacaq, qızılı rəngdə olacaq. Çox sevincli insanlar olacaq. O rəng, rəngdə olacaq, qızılı rəngdə olacaq. İstilər az olacaq, rəvan istilər olacaq. Oraya insanların axımı olacaq.

219. «Üzöpü»lər qaranlıqda olacaq, səfillikdə, xəstəlikdə olacaq, dünyanın çayı çirklənəcək, dünya çirklənəcək. İnsanlar səfil, aclıqda olacaq *(mart-aprel).*

220. «Ağmən»lər İşıqda olacaq, başçıları ilə işıqda olacaq *(oktyabr – noyabr).*

221. «Qax»larda od olacaq, ucalmış od olacaq. Bir yerdən partlayış olacaq, çox uca od olacaq. Od ətrafında bəla olacaq, orada qaralmış sifətlər olacaq *(mayın 12 — 16 günü). (Deyim çoxdur, demək lazımdırmı? — Bilmədim. Bəşər Özündən qorxar, demədim. —* Vahid*).*

222. Bəşərlədir, özü ilədir, etdikləri — özü ilədir.

223. Etmə, bəşər, etmə, İşıqlara qaranlıqlar etmə.

224. İstəyinlə, məqsədinlə, yer məkanında Yaranışlara məqsədinlə qaranlıqlar gətirərsən. O məkanı qaranlıqlara gətirərsən. Qaranlıqlar üzdə deyil, qaranlıqlar üzlə deyil.

225. Qaranlıqlar sirayətdir, yer məkanının qatlarına sirayətdir, qaranlıqlar cəm varlıqlara sirayətdir.

226. Qaranlıq gətirər, bəşər gətirər, Mən Baxaram Səbrimlə, Səbrlə Baxaram.

227. Zərrələrin hərəkəti azalar, o məkanda azalar, Yer məkanının qatlarında İşıqlar azalar, — Artıraram, — yer məkanının mərkəzinə İşıqlar Artıraram. Mərkəzdən İşıq artar, o məkana qatlardan İşıq artar.

228. Qatlardan zərrələr bir toplumdan hərəkətə gələr, azad edər, o məkanı qatlardan, qaranlıqlardan azad edər. Yer qatları azad olar, qaranlıqlardan azad olar.

229. Qatlar silkələnər, — qaranlıqlardan, qaranlıq toplumundan azad olar. Laylar gərilməz, laylar pozulmaz *(Zəlzələ vaxtı).*

230. Laylar pozularsa əgər, yer qatında sular, dərinliklərdə laylar, İşığa *(Nüvəyə)* yaxın istilər ahəngdən uzaq olar.

231. Zəlzələ əlamətdir, o, bəşərə əlamətdir, — topladığı qaranlıqlara cəza əlamətidir.
232. Zəlzələnin öz icraçısı. Küləyin öz icraçısı.
233. Bəşər gətirər, — İşıq gətirər. Mehribanlığı, paklığı ilə İşıq gətirər. Rahatlıq, mehribanlıq — ruzilərin bolluğunu gətirər.
234. Etmə, bəşər, etmə, kamilkən cahillik etmə. Etmə, bəşər, etmə.
235. Bəşər hakim deyil. Yer məkanına, varlıqlara hakim deyil. Zorakılıqla, məkrlə bəşər bəşərə hakim deyil. Yer qatlarına hakim deyil, dərin sulara hakim deyil, İşıq axımına, Vəhdətinə hakim deyil.
236. Özünə etdiklərinə hakim olmayan, — varlıqlara, əbədiyyətə, yer məkanına hakim deyil.
237. Hakimliyin səndədir, varlığındakı böyüklüyündədir, böyüklüyün Müqəddəslikdəndir, pakdır, müqəddəslikdəndir.
238. O məkana göndərişsən, — Əbədiyyətinə dönməlisən.
239. Deyimlər göndərilləndir, Göndərilənlərlə Göndərilləndir. Deyimlər Böyük Yaradandan, Əbədilikdən Göndərilləndir.
240. Ey kamillikdən kamil yaranış, Deyimləri saxlayın, olduğu kimi saxlayın. Əbədiyyətimdən Deyimləri saxlayın.
241. Olduğu kimi saxlayın. Göndərilən Göndərilləndir, Deyimlər Göndərilləndir, Deyimlər sizədir, — cəm bəşəriyyətədir, sizədir.

# IX. Bəşər Qayıdar, — Yığdıqları ilə Qayıdar

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*




*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Bəşər — göndəriş, o məkana göndəriş. Canlı varlıqlar tə`yinli, — o məkana tə`yinli.
2. Bəşər doğular, Müqəddəslər doğulmaz. Böyük Yaradan Ətrafında Müqəddəs — Əbədi Müqəddəs.
3. Yer məkanına Göndərilən — Müqəddəslikdən Göndərilən, Böyük Yaradandan Göndərilənlər.
4. O Müqəddəslər — Əbədilikdən Göndərilənlər, Əbədiliyə Dönənlər. Böyük Yaradan İşığından Göndərilənlər, — Böyük Yaradan İşığına Dönənlər, Müqəddəslər — İcraçılar, onlara sorğu yox.
5. Onlar Böyük Yaradandan Göndərilənlər, Böyük Yaradana Qayıdanlar, Əbədidən Əbədi İşığa Qayıdanlar.
6. Onlara sorğu yox, onlardan təkrar yaranış yox. Müqəddəslər — Böyük Yaradandan Göndərilənlər, Böyük Yaradandan İşıqla Göndərilənlər.

7. Zərrədən *(yalnız)* bəşər göndərilər, Müqəddəslər İşıqdan — İşıqlı Göndərilər.
8. Bəşər Görməz; Müqəddəslər varlıqları, kainatları, Böyük Yaradan Məkanını, Rəhmini, Səbrini, Özünü hər an Görər.
9. Müqəddəslikdən Göndərilənlərin müddəti var, müddətində anı var.
10. Müddət-müddət hazırlanar, — Böyük Yaradandan Hazırlanar; Bilgilərdən bilgi alar. Ağ geyimlilərdən uzaq olmaz, kainatlardan uzaq olmaz, varlıqlardan uzaq olmaz.
11. Məkana tə`yinli — o bəşər arasına Göndərişi — tə`yinli.
12. Elmlərdən elm alar, Böyük Yaradandan alar.
13. An gələr, — Böyük Yaradandan An Gələr; o an gələr, — Bilgilərin Açımı Gələr.
14. Bilgilər Deyilər, o Göndərilənə Göstərilər. Hər Bilgi yaxındır, o Deyimlər yaxındır, — kainatlar, varlıqlar, cism, bəşər varlığı, kamilliyi, cahilliyi o Müqəddəslər önündə, onlara yıxındır *(onların gözü önündədir).*
15. Onlar açar, — bəşərə bəşəri açar, bəşərə qaranlığı, qaranlıqlarla İşığı açar. Varlıqları, kainatları bəşərə açar.
16. Deyimləri deyimlə, elmlərdə Elmlərlə Onlar Bir Yaradanı, Tək Olan Yaradanı — bəşərə açar.
17. O Müqəddəslər Göndərilər, — bəşər bəşərdən uzaqlaşanda, bəşər o məkana qaranlıqlar toplayanda Göndərilər, — Onlar Göndərilər.
18. Deyimlər Müqəddəsdir, Böyük Yaradandandır, Müqəddəsdir Deyimlər.
19. Böyük Yaradandan Deyimlər, — İlahidir Deyimlər.
20. İlahiyyət çətin deyil, Deyimlər çətin deyil, dərk etmək çətin deyil. Kainatlar qaranlıq, Deyimlər Qaranlıqdan, Qaranlıqla deyil.

21. O Deyimlər səninlədir, varlığındadır, səninlədir. O, İşıq varlığında — səninlədir.
22. Deyimlər yaddaşında, varlığında, yaddaşında — səninlədir. Kamillik istəyi səninlədir, uzaq deyil, səninlədir.
23. Deyimlər Elmlədir, elmlərədir, Elmlədir. Bəşərin Özünü, varlığını, İlkini özünə — Deyimlədir.
24. Təmmənna yox, məqsəd yox, qorxu yox, təlatüm yox, zor yox, zorakılıq yox, — Deyimlərə güc yox.
25. Özündən qorx, bəşər, özündən qorx; etdiklərindən, topladıqlarından, topladıqlarının sərfindən, xərc eməyindən qorx.
26. Böyük Yaradan Deyimlərində məqsəd yox, Müqəddəslikdə məqsəd yox, İşıq — yaranışlaradır, — Məqsəd yox.
27. Göndərilənlər olubdur, o məkana, o bəşəriyyətə olubdur. Göndərilənlər olubdur, Kitabla Göndərilənlər olubdur. Deyimlər Bir Olubdur, Göndərilənlər Böyük Yaradandan Olubdur.
28. Göndərilənlərim Deyimlərimlə Göndərilənlər Olubdur, Deyimlər Müqəddəslikdən o Bəşəriyyətə Olubdur.
29. O Bəşər arasına qaranlıq yığımına İşıq gələr, qaranlığı qaranlıqlardan uzaq etməyə İşıq gələr.
30. Qaranlıq toplanar, — məkr gələr. Məkrdə məqsəd gələr, məqsəddə hakimlik gələr, hakimliklə dağıdıcılıq gələr.
31. Yer məkanı azaddır, — bəşərə azaddır. Göndərilən göndərilib — o məkana göndərilib. Yer məkanı bölünməz, xəttlərə bölünməz, o məkan cəmlər arasında bölünməz.
32. Elmlərlə elmlər, yer məkanında sular, dərinliklərdə qatlar, sularda balıqlar, təbiətdə quşlar, o məkanda bitgilər, ətrafda cisimlər, cisimlərlə varlıqlar, varlıqlarda İşıqlar, o məkanda küləklər, buludlarda yağışlar, bölünməz. Qədərlər bölünməz, varlıqlar bölünməz.

33. Məkanlar bölünməz, kainatlar bölünməz, Vəhdətlə Ahəng, Müddətlə An, Böyük Yaradan Bölünməz.
34. Cəmlər Təkə bölünər, Tək cəmlər arasında Bölünməz.
35. Böyük Yaradan Bölən deyil, bəşəri bəşərdən bölən deyil, yaranışı yaranışdan, İşığı Zərrədən, göndərişi qayıdışdan, varlığı varlıqdan Bölən deyil.
36. Böyük Yaradan Önündə yaranış bölünməz, yaranışlar yaranışı bölə bilməz. Cahilliklə yer məkanı bölünməz.

# X. İlk idi, kainatlarda, Yer məkanında İlk idi

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*



*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. İlk idi, Yaranışdan kainatlar ilk idi. Yaranışa ilk idi, Qaranlığa ilk idi. İşıqlı kainatlar ilk idi.
2. İşıq İlk idi, Ağ İşıq İlk idi, Yaranışa Ağ İşıq ilk idi.
3. Yaranışın Anı var, Müddəti var, Anı var. Yaranış o Anda, Qaranlıqlara o Anda. İşığımla İşıqla, Qaranlığa İşıqla.
4. Yaranışdan İşıq yayıldı, Böyük Səsdə İşıq yayıldı, Qaranlıqlar içərisində İşığımdan böyük məkanlar *(sıx, boz məkanlar, həcmcə iri məkanlar)* tikələndi, hər biri kainatlara məkan oldu.
5. Yaranışa İlkdir, İşıq İlkdir, Düz *(Düzünə)* İşığım, Ağ İşığım İlkdir. Yaranışın Anı var, Ağ İşıqla Yaranışın Anı var. Kainatların Yaranışa ilk Anı var *(Bizim yer məkanına görə 17,5 — 18 mart əlamət anıdır).*
6. Qaranlığa *(tünd boz)* İlk İşığın Anı var; Cəm kainatlara O, Andır, Yaranışa Andır.

7. Boz rəng — Əbədiyyətdir, Ağ İşıq — Yaradandandır. O, İlkdəndir, Yaranışdandır, İlkdəndir.
8. Hər Yaranış Mənimlədir, Əbədiyyəti ilə, Ağ İşığı ilə Mənimlədir.
9. O An Yaranışa yaddaşdır, Kainatlarda hər məkana yaddaşdır. Ağ geyimlilərə Cəm kainatların İlkin Anı yaddaşdır. Kainatlar yeniləşmədə, sevinclə yeniləşmədə.
10. Yaranışın Anı var, əlaməti ilə anı var. Yaranışdan hərəkətdədir, kainatlar, məkanlar o Andan hərəkətdədir.
11. Bəşərə yaddaşdır, Yer məkanına yaddaşdır; ağ işıq, sür`ətli işıq — yaddaşdır. O işıq əlamətdir, Yaranışa ilk Yaranış İşığı əlamətdir *(şimşək).*
12. Yaranışın Anı var, İşıqla Anı var, Paklıqla — su ilə Anı var. Yer məkanına ilkdir, qatlarından Pak sular ilkdir. O məkan Paklıqdadır, su ilə Paklıqdadır. Məkanımdan uzaqlaşan İlk Müqəddəslərə o məkan Paklıqdadır.
13. İri məkanlar tikələndi, İşığımla tikələndi; İşığımla kainatlar, məkanlar ilk Yaranış oldu.
14. İlk Müqəddəslərə Yer məkanında o an *(gün)* — Yaranış Anı — yaddaşdır.
15. Yaranış Altı müddətə altıdır. Kainatlar Yaranışdan hərəkətlədir, Altı müddət — Yaratdığıma müddətdir.
16. Yaranışa An var, İlkinə An var; Yaranışa, bəşərə, yaddaşına an var. O an olar, işıqla *(şimşək)* olar, İşıqla olar, yaranışa İşıq — Paklıq, yer məkanında — su ilə Paklıq.
17. Müddət gələr, an olar, yaranışa An olar. Yaranış təsadüf deyil, Yaranış təsadüflə deyil.
18. Yaranış Anındadır, — o anındadır *(mart ayı).* Səmada işıq olar, ağ işıq olar. Yaranışın İlkidir, o anla ilkidir. Şimşək çaxar, işıq olar, işıqdan nəmlər olar; o, *(məkanda)* Yaranışa An olar, o andan olar.

19. Hər varlıq oyanar, o müddətdən oyanar. Yaranışa ilkidir, o məkanda yaddaşa ilkidir.
20. Yaranış müddəti Altıdır, altı müddətə Altıdır. Yeddi sükutdur. Yeddinci günü *(həftə)* günorta (saat 13:30 - a qədər) kainatlarda, Yer məkanında sükutdur, sakitlikdir, sükutdur. Yeddinci gün sakitlikdir, kainatlarda sakitlikdir. O, əlamətdir, Yaranışın yaranış müddətinə əlamətdir.
21. Yeddidən sonra birdir, altıya ilkdir, birdir (Birinci gün). Kainatda kainatlar, kainatlarla məkanlar hərəkətlərə ilkidir. Hərəkətlər Vəhdətdədir, məkanlar hərəkəti biri-biri ilə vəhdətdədir. *(Həftə — yeddi gün. Birinci gün Kainatda Hərəkətlərin başlanğıcına Andır, əlamətdir).*
22. Yer məkanında ilkdir, Paklıq — su ilkdir; məkanda qatlardan ayrılan Od ilkdir, Müqəddəsdir, İlkdir. Od məkana yaddaşdır, — İşıq Yaddaşdır.
23. İlkdən Müqəddəsdir, hər məkanda İşıq Müqəddəsdir. O, məkanda ilkdir, bəşərləşən bəşərə ilkdir. Bəşərdən əvvəl idi, o məkanda Od əvvəl idi. O Müqəddəslərə Müqəddəs idi, yer qatlarından ayrılan Od müqəddəs idi.
24. Bəşər bəşərdən artdı, ətrafında işıq gördü, od gördü. Məkanın özündə idi, dərin qatlardan idi.
    Qatlardan olan od o məkanda Müqəddəs idi.
25. Bəşər ilk idi, "təmiz" bəşər göndərişi ilk idi *(sünnət).* O bəşər uzaq deyildi, yaranışından - "təmizlikdə", uzaq deyildi *(sünnətli).* İlk bəşər saxladı, bəşəriyyətə saxladı *(sünnət icrasını).*
26. "Təmiz" olmaq bir icra oldu, ilkdən yaranmış bəşərə icra oldu.
27. Bəşər bəşərdən artmaz, bəşər bəşər yaratmaz. Yaradan Mənəm, Tə`yinli Edən Mənəm.
28. Övlad göndərişdir, Böyük Yaradan Rəhmindən göndərişdir. Yaranışı Yaradan — Yaradandır, Böyük Yaradandır; İlkdir, Təkdir, Yaradandır.

29. İlk bəşər üz tutdu, Müqəddəslərin göndərildiyi Səmtə üz tutdu *(Şimali-Şərq).* İnam ilk idi, o məkanda ilk idi, O məkanda Müqəddəslərdən deyim ilk idi. Bəşərə *(övladlarına)* Yaranışın İlkini deyən Müqəddəslər idi.
30. Böyük Yaradanı, Yaradıcını, Müqəddəsliyi, Paklığı bəşərə deyən Müqəddəslər idi *(Qırx müddətə uzaq olanlar).*
31. Bəşər saxladı, yaddaşında saxladı; Böyük Yaradanı, Müqəddəs Əbədiliyi, Paklığı, Böyük Yaradana Səcdəni bəşər bəşərə saxladı.
32. Bəşər müqəddəsləşər, — Böyük Yaradana, Müqəddəsliyə Qayıdış artar. Müqəddəsləşdikcə qayıdarlar, Müqəddəsliyə Qayıdarlar.
33. Müqəddəslik İşıqdır, İşıqlara İşıqdır, kainatlara İşıqdır, məkanlara İşıqdır. İşıqla İşıq artar, Kainatlarla İşıq artar.
34. İşıq artar, çox olar, — hüdudları artar, çox olar *(Kainatın Ellipsoid formasının hüdüdları genişlənər).*
35. Qaranlıqdan Qaranlıq gəldi, bəşər arasına O Qara varlıq gəldi. Qara varlıq qaradır, məqsədi ilə Qaradır.
36. Qara artar, — İşıq olmaz, Qaranlıqlara İşıq olmaz. Qara varlıq Əzəməti ilə, saysız sifəti ilə, Əzəməti ilə. Qara Varlıq Yalanladır, özü ilə Yalanladır *(aldadan).*
37. Qara varlıq qarası ilə, İşıqlara qaranlığı ilə. O, istəyidir, etdiyi qaranlıqları İşığa istəyidir *(Şeytan, İblis).*
38. Hər Yaranış qayıdır, İşığa Qayıdır, Böyük Yaradana Qayıdır. Yaradıcıdan Yaranışa qayıdır; İşıqla göndəriş İşığa Qayıdır.
39. İlk bəşərə yaddaş idi, Müqəddəslikdən Yaranış yaddaş idi.
40. Altı müddət *(yaranış müddəti),* ilk Yaranış müddəti — Müqəddəs idi, o, bəşərə Müqəddəs idi *(kainatların yaranışı, cəm məkanların yaranışı).*

41. Dörd müddət Müqəddəs idi, kainatlara, Yaranışa yaddaş idi. İlk Müqəddəslərin Böyük Yaradan Məkanından uzaqlaşması müddət idi, kainatlarda Yaranış Anı yaddaşdır.
42. Dördüncü gün *(cümə axşamı)* Müqəddəsdir, Cəm yaranışa Müqəddəsdir. Həmin gün azaddır, kainatlar, məkanlar azaddır. Bu dünyadan qayıdanlar azaddır. Qırmızı Odla əzabda olanlar da azaddır.
43. Bəşər bəşərdən uzaqlaşdı, o məkanda *(Yerdə)* uzaqlaşdı. İlk Yaranışı yaddaşında uzaqlaşdı.
Göndərilənlər oldular, Böyük Yaradandan Göndərilənlər oldular *(Peyğəmbərlər).*
44. İşıq göndərildi, İşıq gəldi, Bəşərə yaddaş gəldi. Özündən, İlkindən uzaqlaşan bəşəriyyətə İlkini Deyənlər gəldi.
45. Qaranlıqlar çökürdü, yer məkanına qaranlıqlar çökürdü. Bəşər bəşərdən uzaq, qanda, bəlada — uzaq *(biri birini məhv etmədə, yalanda, iftirada).*
46. Böyük Yaradandan Göndərilənlər Göndərildi. Qaranlıqları bəşəriyyətlə İşıqlı etməyə Göndərilənlər Göndərildi *(Peyğəmbərlər).*
47. Göndərilənlər Göndərildi, bəşərə Yaranışın ilkini Deyənlər Göndərildi.
48. Qarasından, qaranlığından baxdı bəşər, Böyük Yaradan İşığına qarasında baxdı bəşər.
49. Bəşərə Göndərilənləri məhv etdilər — özləri *(bəşər)* özlərini məhv etdilər.
50. Göndərilən — İşıqlı Göndərilən, Deyimləri — Müqəddəsikdəndir Deyimləri. İşıq Qaranlığı məhv etməz, İşıq qaranlıqlara İşıq saçar, İşıqlı edər; Yaranışı İşıqlı, varlıqları İşıqlı edər.

51. O bəşər — məqsədli bəşər, Göndərilənləri məhv etdilər, — özləri özlərini məhv etdilər, Saylar arasından saylarını az etdilər.
52. Qırmızı, Od yandırdı, *(cəzalı məkanda, cəhənnəmdə)* qaranlıqları o bəşərdə yandırdı. İlkindən ilkinə, İşıqlı ilkinə qaytarmağa yandırdı — qaranlıqlarından uzaq olsun, İlki kimi İşıqlı olsun.
53. Nə istədi, — bəşər istədi, cəzaları bəşər istədi, bəlaları bəşər istədi, qədərsizlikləri bəşər istədi, cahilliyi, yenə, bəşər istədi.
54. Cəza məkanlarının *(cəhənnəmin)* Yaranışını bəşər istədi; zülm etmişdi, — özünə zülm istədi.
Bəşər istədi, ruzisizliyi, yer məkanına cəzaları bəşər istədi. Saylar arasında saysızlığı bəşər istədi.
55. Müqəddəslikdən Müqəddəsliyə dönməliykən, bəşər özünə — etdikləri ilə təkrar yaranış istədi.
İstəyi nə idi, — istəyini özünə istədi bəşər *(Müqəddəsliyə Əbədiyyətə qayıtmalıykən bəşər, təkrar yaranış istədi).*

# XI. Böyük Yaradandan Göndərilənlər

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*




*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

1. Göndərdim bəşərə, Göndərilənlərimi Göndərdim. Göndərilənlərlə *(Peyğəmbərlərlə)* Deyimlər göndərdim. Bəşəri bəşərə yaranışının ilkini deməyə Göndərdim.
2. Müqəddəslikdən — Paklıqdan Müqəddəslər Göndərdim. Bəşər arasına Müqəddəslər Göndərdim.
3. Mən Yaradanam, Yaranışlar Yaradanam, Nəzərimdə, tə`yinatında Yaradanam. Səbrlilərdən Səbrli Mənəm, Rəhmdə Rəhmli Mənəm, cəm yaranışa Rəhmli Mənəm.
4. Hər məkanın quruluşu yaddaşdır, kainatlara, Müqəddəslərə, hər bəşərə yaddaşdır— o, bir yaddaşdır, kainatlara yaddaşdır. Hər məkanın quruluşu dairədə *(kürrə),* — quruluşu yaddaşdır, — ilk İşığın quruluşuna yaddaşdır.
5. İşığımla İşıqlandırdım, — kainatlar İşıqlandı. İşığımın Qədəri iki səmtə, hər tərəfi — üç müddətə, iki tərəfi üç müddətə İşıqlandı. Kainatlar altı müddətə Yarandı.

6. İlk Mənəm, kainatları, yaranışları Yaradan Mənəm. Kainatların yaranışı müddətlədir, altı müddətə müddətlədir.
7. İki tərəfim Aydınlıqdır, aydınlıqlara Aydınlıqdır. İşıq Aydınlıq, yaranış İşığımla aydınlıq.
8. Məni dilər bəşər, məni çağırar bəşər, müddətlərdə çağırar bəşər. Məni görmək istər bəşər, Məni eşitmək istər bəşər. Göndərilənlərimi Göndərərəm, bəşər arasına Göndərərəm.
9. Göndərilənlərim sizədir, Müqəddəslik sizədir, Əbədiyyət Deyimi sizədir. Göndərilənlərim Göndəriləcək, bəşər bəşərdən uzaq olduqca Göndəriləcək.
10. Bəşəriyyət birləşəcək, birlikdə Bir birləşəcək, kamilliklə, kamillikdə birləşəcək.
11. Birlik Bir olacaq, birliklər birləşib Bir olacaq. Gözlər qalxacaq, İşığa qalxacaq, kainatlarda o İstiqamətə — İşığa qalxacaq. İşığa qalxacaq, o Səmtə, o İstiqamətə qalxacaq.
12. Bəşər bəşərdə görəcək, İşıqları gözlərdə görəcək, müqəddəsliyi, Müqəddəs İşıqları bəşər bəşər gözündə görəcək. Mənim Məkanım İstiqamətdə görəcək. Bəşər mehriban olacaq, biri birinə mehriban olacaq.
13. Ey bəşər, saxlayın, yaddaşlarda saxlayın. Kitablarla Göndərilənləri Olduğu kimi saxlayın. Deyimləri Deyilmiş kimi saxlayın.
14. Məscidləri saxlayın, Kalisələri saxlayın, *(qoruyun)* ibadətləri, Səcdələri saxlayın, bəşəriyyətin inamını İnamında saxlayın, Mə`bədləri saxlayın, İşıq Mə`bədlərini, Atəşgahları, Səcdələri saxlıyın.
15. Orada İşıq var, onlarda İşıq var, İşıqla İşıq göndərmişəm, onlarda İşıq var — Müqəddəs İşıq var. Səcdələrdə, İbadətlərdə İşıq var, Mənə üz tutmada İşıq var, Məni səsləmədə İşıq var, Varlığında İşıq İnamında — İşıq Mənlə, yaranışlarda İşıq var.

16. Paklığında Pak İşıq var, Məni səsləməyində İşıq var, mehribanlıqlarınızda İşıq, xeyirxahlıqlarınızda İşıq var, — Mənimlə, İşığımla İşıq var.
17. Rənglərdə rəngi, Səslərdə səsi, Deyimləri deyimlərdə saxlıyın, inamınızda İnamınızı saxlıyın.
18. Qoru, ey bəşər, qoru, — saxlamağınla qoru. Kamilliyini kamilliyinlə qoru. Əbədiyyətini Əbədiyyət naminə qoru, Yaranışları İşığınla İşıqlarla qoru. Göndərilən Göndəriləcək, Yer məkanına Göndərilən Göndəriləcək. O əraziyə Göndəriləcək. O əraziyə gətirməyin, qaranlıqlar, bəlalar, zülm gətərməyin.
19. Qırxıncı ilə altmışıncı xəttlər *(meridianlar)* arasına Göndərilən Göndəriləcək. Şərqə Göndərilən yenə Göndəriləcək. İşığımla İşıqlı Göndəriləcək.
20. Ucaboy gələcək, gülər üz, gülər göz, arıq gələcək. Amma gələcək. O Göndərilən bəşəriyyətə qaranlıqları açacaq. O, gələcək, İşıqdan gələcək.
21. 21-dən veriləcək. 37-də ucalıqlara qalxacaq, 45-də görəcək, 49, — deyəcək. O gələcək, cəm yaranışı İşıqda görəcək, Qaranlıqları, Qara varlığı açacaq.
22. Hazırlanacaq, hazırlıqlı olacaq — 21-dən veriləcək. Gec gələcək, amma, gələcək. İşıqdan gələcək, — İşığa dönəcək.
23. Amma, gələcək. Tək gələcək, tək dönəcək; ətrafında saysız insanlar olacaq. Gözlərində — İşıq. Şücaətli olacaq. Birliklərlə bir olacaq.
24. Şərqə gələcək, düzəngaha gələcək, Bir ailənin beş övladının biri ilə gələcək. Azadlıqda azad gələcək. Əlamətlə gələcək, günəşin özünə sarı ilə naringi rənginə rəng gələndə Gələcək. Günəşin qürubdan əvvəl vaxtına Gələcək, quraqlıq vaxtı gələcək, suların sularla olan vaxtı Gələcək.

25. Şərqdə qapı görəcək, Müqəddəs qapı görəcək. O qapını ziyarətə gələcək. İşığı ilə o Müqəddəslik qapısına İşıq gətirəcək. Duracaq, qapı önündə duracaq, müqəddəsliyi ilə, Müqəddəs qapı önündə duracaq.
26. Gələcək, — payızda gələcək, o qapıya payızda gələcək. Müqəddəsliyə Müqəddəslik gətirəcək. Böyük Deyimlərlə gələcək, kainatları, yaranışı, Qaranlıqları, varlıqlarda qaranlıqları, Qara varlığı açacaq, Qarasında qarasını deyəcək. O, Göndəriləcək, kiçik şəhərə Göndəriləcək.
27. Gələcək, amma gələcək, — bəşər istəyəcək, — bəşər gətirəcək. Biri birindən uzaqlaşan bəşər gətirəcək. Məkanımdan gələcək, Mənim Deyimlərimlə, Əbədiyyətdən gələcək.
28. Cəm kainatlarda müddət var, yaranışa müddət var, Müqəddəs müddət gün var.
29. Müqəddəsdir, — bəşəriyyətə Müqəddəsdir, həmin müddət *(gün)* müqəddəsdir. Kainatlar azad, hər varlıq azad, «O dünyada» olanlar azad, — yaranışların bağışlanma günüdür, — azad *(həftənin dördüncü günü, cümə axşamı).*
30. Yad edin, o gün yad edin: Cəm yaranışları, kainatları, İlk Müqəddəsləri, o məkanda ilk Müqəddəsləri, Yaranışı, Paklığı, Müqəddəs kitabları, Müqəddəs Deyimlərlə Göndərilənləri, o Peyğəmbərləri, müqəddəs Yerləri, Səcdələri, İbadətləri, Atəşgahları Cəm Yaranışı, Böyük Yaradanı o gün yad edin.
31. Əbədiyyətdə Əbədiyyəti, Əbədiyyətdə Müqəddəsliyi, hər yaranışı, hər cismi, hər varlığı, mehribanlığı, yaranışlara mehribanlığı o gün yad edin. Əbədiyyətə qayıdaşı, Müqəddəsliyə Qayıdışı o gün yad edin, Yaradanı, Yaranışları yad edin, — dördüncü günü, (cümə axşamını) yad edin.

# XII. Böyük Yaradandan «Yaranışın» illər ərzində Deyimlərindən

*(bə`zi fraqmentlər)*

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*





*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

23 iyul 1997. Naxçıvan şəhəri.

— Çox gözlədilər, — gələcək, isti mövsümdə gələcək, orta boylu axsaq gələcək.

— Həqq yenəcək, bərqərar gələcək, zorakılıqlar açıqlanacaq, sülh gələcək, İnam – inamlıların olacaq.

— Orta boylu, axsaq gələcək, keçəl gələcək. Amma gələcək, eynəkli *(çeşməkli, gözlüklü)* gələcək, amma gələcək.

— Asılanlar asılar, qalanlar özlərini dəyişər.

27 iyul 1997. Naxçıvan şəhəri.

— 2-ci ildir, 2-ci gündür. Paklıqdadır, varlığın Paklıqdadır.

— Yuxudan səhər oyanışdır, çayla *(səhər yeməyi)* gün başlanğıcdır.

— Müddətdir – qədərdir, – Qırxdır. Gündüzdür, — sudur – Paklıqla Sudur. Vücudun Paklığadır, Paklıqla Paklığadır. Vücudunu pak et, varlığını Pak et. O, əbədiyyətdir, Paklıqda Əbədiyyətdir.

— Paklıqla qalxacaqsan, Əbədiyyətə, Müqəddəslərə Qalxacaqsan. Paklığa Paklıqla Qalxacaqsan. — Vücudun Paksa, Əqlin Paksa, Varlığın Paksa, – o, hazırlığındır, Müqəddəsliyə hazırlığın; Əbədiyyətə Pakdır Qayıdışın. Deyimləri Eşidənsən, Deyimləri Görənsən, Paklığınla, Paklıqları, Kainatı Görənsən.

— Paklığınla, Paklıqla Qarşımda Dayanansan.

— Gündüzdür, sudur, varlığın paklığa su ilə, sudur.

— Axşamdır, yemək – qədərindir, pay qədərindir.

— Varlığınla Paklığındır, daxilin Paklığındır.

— Səhər su ilə Paklanmaqdır, günorta su ilə Paklanmaqdır, axşamdır, — su ilə Paklanmaqdır. Qırx Müddət həmişədir. Müqəddəslər uzaq olmuşdu, Qırx müddətə uzaq olmuşdu. Qırx — müddətindir, Müqəddəslərlə Müqəddəslik Müddətindir. Müddət: 28 iyul — 06 sentyabr.

30 iyul 1997 saat 01:18. Naxçıvan şəhəri.

— Dedim sənə, Dedik *(Ağ geyimlilərlə)* sənə, Göndərdim sənə, Açdım sənə.

— «Müddət» Dedim, – «vaxt-zaman» Demədim. Dedim sənə – «Gələndə», Dedim sənə. «Vaxt» Demədim, «zaman» Demədim, «müddət» – Dedim sənə, «gözlə» Dedim sənə.

— Müddətlərdə Müddət Açar, Bilgilərdə bilgi Açar, Mən Açaram.

— Gördüyüm, Göndərdiyim bəşəri Mən Görərəm, Mən Göndərərəm. Özün görməz, özün gözlərsən.

— Sən dediyin «olmaz» olar. Müddətində «olan» olar; nə tez olar, nə gec olar, müddətində olan – olar.
— Görə bilənə, gözləyə bilənə olan olar, Müddətlərdə olan olar.
— Hər an Gördüyün Mən Özüməm, Mən Nuram, Ağdanam, İşıqdanam — Ağdanam, Mən Özüməm.
— Gördüyün, Eşitdiyin Mən Özüməm. Hər an Gördüyün Mənəm, Mən Özüməm.
— «Döz» Deyən, «Gözlə» Deyən – Mən Özüməm.
— Müddətləri səsli edib, səsli Göndərən Mən Özüməm. Hazırları Hazır Edən Mən Özüməm.
— Sən Görməz idin, Görən oldun; Eşitməz idin, Eşidən oldun. Mən İstədim, – Mən Etdim.
— Dediklərini Mənlə dedin, Məni dedin, gördüklərini Mənlə Gördün, Mənlə Bildin, Mənlə Dedin. — Yenə Deyirəm sənə: «dözümsüzdün», Dözümlərdən Dözüm Mənəm, «döz» Deyən, «gözlə» Deyən – Mən Özüməm.
— Aparacağam səni, – Aparan Mənəm, Göndərdiyimi Göndərən Mənəm. Ayırdığımı Ayıran Mənəm. Müddətlərdə Hakim Mənəm.
— Mən bir İşıq, Əbədiyəm, Məkanımda Məkanlıyam. Şimalam, Şərqəm, Məkanlıyam.
— Gördüyün, Eşitdiyin Mənəm, Mən Özüməm.

27 avqust 1997. Saat 22:19. Naxçıvan şəhəri.
— Ehtiyacda yaşayan, ehtiyaca dözən, bir Əbədiyyətə Qalxar. Əbədiyyət əbədidir, Pakdır, Əbədidir.
— Sənə anları, məkanları Göstərdim; Yenə Açacaq, Göstərəcəyəm.

— Sənə Əbədiyyəti Göstərdim, Əbədiyyəti Açdım. Bəşərə İşığımı, Zərrələrimi, Məkanımı, Qədərləri Göstərmədim.
— Hər Bizdən Göndərilənlərə *(«Biz» Deyimi ilə Ağ geyimlilər də Nəzərdə Tutulur),* Bizlərlə olanlara Özümü cəm yaranışlar arasında Göstərdim.
— Sən hər an Məni Görürkən, hər an Bizləri Görürkən, hər an Bizlər arasında, O İşıqda olurkən, niyə darıxan olmusan?
— Daha Yer məkanında deyilsən; onlar arasında, Mənləsən. Bizlər arasında Bizlərləsən, niyə darıxan olmusan?
— Onlar sənə zahirən baxan kimi baxarlar. Sənə baxar, sənlə Bizlər arasında olan müddəti görərlər; amma onların gözləri Görməz olar. Niyə darıxan olmusan?
— Hər an Qayıtmaq istəyirsən, hər an Göndərdiyim məkandan Qayıtmaq istəyirsən. Tezdir, hələ, tezdir.
— Mən ilkdən Gördüyümü sən yerinə yetirməli. Tezdir, gözlə.
— O məkana İcraya Göndərildin, Bizlərdən Göndərildin. Mənə, Bizlərə Qayıdacaqsan.
— Sənə Demədimmi ki, Cəm Yaranışların Başlanğıcı Mənəm? Niyə darıxan olmusan?
— Necə səni Görmüşəmsə, — sən elə bir icraçısan. Hələ tezdir, gözlə.
— Özündə toplum-toplum İşıqlar Görürsən. O İşıq - Mənim İşığım, sən o İşıq Qədərindən qədərlisən. Niyə darıxan olmusan?
— Sənin varlığının Paklıq Müddətidir. Dörd gündür «sünnəti» Açdım. O «sünnət» dediyinin özlüyünü Açdım.
— «Sünnət»lənmək dediyiniz İlkdən göndərilən bəşərimdir, Paklıqla Paklıqdan yaranan bəşərimdir. Bəşərdən bəşər artmaz, bəşər, bəşər artırmaz.
— İlkdən ilk yaranışdan əzabsız idi, Olduğu olduğu kimi idi. Bəşər bəşərləşdi, o bir yaddaşda yaddaş oldu. Bəşərdən de-

yil yaranış, erkəklə, dişi ilə deyil yaranış. Mənim Baxışımda, tə`yinlidir hər yaranış.

— Sünnət icraatı məkanda əziyyətli olar, ağrılı olar. O, yaddaşdır, bəşərə yaddaşdır, ilk bəşərin yer məkanında pak, «təmiz» yaranışıdır.

— O, ilkdən kişi yaranışının Paklıqdan Paklıqla gəldiyinin yaddaşıdır, – İlkdən ilk kimi.

— Şərab, qumar, oğurluq, haram, zülm, dağıdıcılıqlar etməyənlər, onlardan uzaq olanlar Mənə daha tez qayıda bilərlər. Göstərdim, onları Göstərdim sənə, – onlarda İşıq yox, qaranlıq toplayar bəşər, qaranlığında İşıq yox. İşığıma qaranlıq yox.

— Məkr zahirdən görünməz, daxildən görünər. «Məkrlilərdən qorun» — Dedim sənə.

06 sentyabr 1997. Naxçıvan şəhəri.

— Məkanları Göstərdim, gördün. İşıq oldular, İşıqdan Zərrələndilər, zərrələrdə Zərrələrlə məkanlandılar. Hər bəşər Mənim İşıq payımdan, Zərrədəndirlər. Hər gördüyün Zərrə bir İşıq təzahürüdür.

— İşıq Mənəm, İşıqda Mənəm, hər cisim, hər varlıq Mənim təzahürümdəndir. Hər məkanın öz xüsusiyyəti, hər bəşərimin öz xasiyyəti, öz təfəkkürü.

— Eynilik Mənəm, Yaranışlar oxşardır, Eynilik Mənəm.

— Hər yaranmış yaranış Mənim İşıq təzahürümdür, Mən deyil. Mənim Ətrafımda olanlar, bir Müqəddəslikdədir, Paklıqdadır, Zərrədə yox, bir İşıqdadır. Eynilik Mənəm, Mənim Məkanımdır.

— Cəm yaranış eynilikdə olmuş olsa idi, – cəm məkanlar eyni olar, cəm yaranış eyni olardı. Eynilik Mənəm, Mənim Mə-

kanımdır. Mənim İşığım İşıqda, Zərrələr təzahürümdür. Təzahürümdür, təzahürdə yaranışlardır, qədərsiz yaranışlardır, – eynilik yoxdur.

— Hər cisim, hər yaranış azaddır, hər biri zərrədə olduğu kimi. Heç bir İşıq Zərrəm, yaranış zərrəm biri- birinə toxunmaz, dəyməz, tə`sir edə bilməz. Azaddırlar cəm yaranışlar, Yaranışdan azaddırlar cəm yaranışlar, Mənim Vəhdətimdədirlər yaranmış yaranışlar. Eynilik Mənəm, Mənim Məkanımdır.

— Hər gördüyün, Ağ geyimlilər də eyni deyil, müxtəlifdir, İcraçılığında müxtəlifdir. Hər Ağ geyimli cəm kainatlarda, cəm məkanlardadırlar. Hər gördüyün Cəmlər isə, Mənim ətrafımda, baxışımdadırlar. Heç bir yaranış Məndən kənarda deyil. Yaranışlar Mənim Ətrafımdadırlar.

— Onlar Mənim Ətrafımda, Nəzərimdədirlər. Hər bəşər özünə qədər yığar, qədərlənər. Qədərlərdən Qədərlərimin göndərilməsini istər. Bəşər istər qədərləri, — qədərsiz istər. Mən Ayıraram, Qədərlərdən qədərləri Mən Ayıraram.

— Yaxşı — xeyirxah istəyi, ətrafına xeyirxah istəyi. Bəşərin öz qədəri — Pis istəyi. Pis qədəri — onun qədəri. Mən Baxaram, heç bir yaranış Nəzərimdən, Baxışımdan uzaq deyil. Cəm yaranış Mənimlə, Mən cəm yaranışlarla.

— Mən cəm yaranışlarlayam, Onlar Məni görməz olarlar. Mən Özümü hər yaranışıma Açmıram. O yaranışa Özümü açar, o yaranışa Özümü Göstərirəm ki, onlar Müqəddəsliyə yaxındırlar, Müqəddəslikdəndirlər.

— Özümü hər yaranışa Açmıram, Açdıqda — qədərində Açaram. Mən Kamillikdən kamillik yaratdım. Hər yaranışa bilgilərin qədərini Göndərdim, bilgilərin qədərini Bildirdim.

— Cəm məkanlar kainatlarla Ahəng hərəkətindədirlər, həmahəng hərəkətdədirlər.

— «Ölü» – deyib gördükləri də bir hərəkətdədir. Hərəkətlər arasında bir hərəkətdədir.

— O, bir yaranışdır. Zərrə payından yaranışdır. O, toplar — qədərlərdən qədər toplar. Yaranışı Paklıqdan pak idi, qayıdar, Paklığa Qayıdar.

— Əbədi Mənəm, Təzahürlərim Əbədidir. Hər yaranış Əbədi yaranışdır, Əbədilikdən bir yaranışdır.

02 oktyabr 1997. Saat 12:00. Naxçıvan.şəhəri.

— Yaranışdır, Yaranışdır, Yaranışdır. Yaranışdandır Başlanğıc, Yaranışdadır Yaranış.

— Yaranışdır, Yaranışdır, Yaranışdır; əvvəldir, başlanğıcdır, Yaranışdır.

— Yaradandandır Yaranış. İşıqdan, Zərrədəndir Yaranış. Deyimlər Yaranışdan, Yaradandandır, İlk Anındandır Yaranış. Deyimlər Yaranışdan, özü Yaranışdan, cəm Deyimlər Yaranışdadır, Yaranışladır.

23 yanvar 1998, Saat 13:30. Naxçıvan şəhəri.

— İşıqdan yaranışdır hər yaranış, göndəriləndir hər yaranış. Rəhmimdəndir hər yaranış, Əbədidir hər yaranış.

— Qədərlidir hər yaranış, kamildir hər yaranış. Əbədidir hər yaranış, müddətlidir hər yaranış.

— Rəhmimdədir hər yaranış, İşıqlıdır hər yaranış.

— Rəhmimdədir hər yaranış, Baxışımdadır hər yaranış. Qayıdandır hər yaranış, əbədidə Əbədidir hər yaranış.

— Kainatlarda kainatlardandır hər yaranış, göndəriləndir hər yaranış, tə`yinlidir hər yaranış, qədərlidir hər yaranış.

— İşıqdandır, İşıqlıdır hər yaranış, Rəhmimdədir hər yaranış. Kainatlardandır hər yaranış, müddətlidir hər yaranış.
— Mənə dönəndir hər yaranış, Məkanına dönəndir hər yaranış. Məkanlardan göndəriləndir hər yaranış, Zərrədəndir hər yaranış. Mənə dönəndir hər yaranış, Baxışımdadır hər yaranış, Böyük Rəhmimdəndir hər yaranış, kamildir hər yaranış.

17 mart 1998. Saat 8:25 (səhər). Naxçıvan.şəhəri
— İşıq düşdü — Zər düşdü, «Ahəstə» («Avesta») gəldi, İşıqdan İşıq gəldi. İşıq düşdü — Zərdüşdü. İlk Yaranışın anlamı gəldi.
— Elm gəldi, Elm göndərildi, kainatlardan Yaranışın ilki gəldi. Zər gəldi — İşıq gəldi. Zər düşdü, — İşıq düşdü.
— Uca boy gəldi, İşıq gəldi. Zər gəldi İşıqdan Zər düşdü — «Ahəstə» gəldi, Elm gəldi. Yaranışın Deyimi gəldi. Çay kənarından, böyük şəhərdən gəldi (çay - Araz çayıdır, böyük şəhər deyimi Naxçıvanın indiki Şahtaxtı kəndinin ərazisində, keçmişdə olubdur).
— «İşıqdır» — dedi. «İşıqdandır» — dedi, «yaranışın ilkindəndir» — dedi, «Yaradanın Özündəndir» — dedi. Zər gəldi, —«Zər»-düşdü, — ad gəldi. Ad düşdü — «Azər» düşdü. Adla məkana düşdü.
— Mə`bədlər gəldi, elm gəldi, yeni anlamlar gəldi. Azərdən ətrafa İşıqdan İşıq payı düşdü. Böyük Yaradandan Müqəddəs İşıq gəldi.
— İşıq gəldi, Zər gəldi, Aləminizi İşıqla İşıqlı etdi.
— Zər gəldi, Zərdüşt gəldi, Ahəstə dedi, «Ahəstə» («Avesta») gəldi.

— Zərdən Zər göndərildi, Zər düşdü, — İşıq düşdü — Ahəstə gəldi. «Ulduzlar» deyildi, «Kainatlar» deyildi, «elm» deyildi, elmdə deyildi.

— Zər gəldi, Zər düşdü, Böyük Yaradandan yer məkanına İşıq gəldi. Deyimləri yaddaşsız etdilər, dəvamçılar gəldi, böyük elmləri deyənlər gəldi.

— İşıq Paylı Göndərildi, İşıq Paylı gəldi — çay kənarından, böyük şəhərdən gəldi. «Elm» - dedi, «elmlə» - dedi, «İşıq» - dedi.

17 aprel 1998. Naxçıvan şəhəri.

— Gün bu gündür, — Cənub (yer məkanına görə) istiqamətdə olan (çox yüksəkliklərdə) o Qara varlıq, Qara geyimli Qara varlıq; özünü qalib görən, hər an özünü qalib görən, Yaranışlar arasında, bəşər arasında özünü qalib bilən, — Uzaq oldu.

— Uzun müddətə uzaq oldu. O işıq (günəş) ətrafından, o məkandan uzaq oldu.

— Böyük Qara geyimli, bədxahlıq gətiricisi, çox kiçik oldu (yəni uzaqlaşdığına görə, məsafədə çox kiçik görünmədə oldu).

— O böyüklük kiçildi, bir nöqtədə oldu. Yer məkanından, Bəşəriyyətdən uzaq oldu.

— Cənub istiqamətdən Şimala doğru, qara nöqtədə, nöqtələndi.

— Əbədi getmədi, müddətinə getdi. Əbədi «Nöqtələnmədi», müddətinə nöqtələndi (Şimal istiqamətdə, Yer məkanından çox uzaq oldu).

— O qara varlıq təlatümlə uzaqlaşmada oldu.

— O qara varlıq özünü hakim saymaqda idi.

— O uzaq olar, — qarası uzaq olar. Yer məkanında məkan bir müddət qaranlıqlardan özünü azad edər. Qaranlıqlara İşıqlar artar, çox olar.

20 aprel 1998. Saat 22:38. Naxçıvan şəhəri.

— İşığımdan İşıqlılar Göndərilər, Mənim Göndərişimdən Göndərilər Göndərilənlər.
— Nəzərimdə olan Göndərilər. Göndərilən Qədərdən qədər deyər, qədərindən «Qədər» açar deyər — Məni deyər.
— Mən ona Açdığım Qədərləri qədərində deyər.
— O, Göndərdiyim İşığımdan İşıq Paylı olar.
— Göndərilən qədərindən Qədər açar, Məni, Böyük Yaradanı deyər.
— Hər Ayırıb Göndərdiyim, — Nəzərimdə Göndərdiyim, Adlı olar, öz adında Adlı olar. Əvəz olmaz, — öz adında Adlı olar. Qədərində Qədər deyər, müddət gələr, müddətində Qayıdar, Əbədiyyətinə, Mənə Qayıdar.
— Adlı olar, hər Göndərdiyim Adlı olar. Mənim İşığımdan Paylı olar. Mənim İşıq Payımla Paylı olan Məni Görər, Məni Deyər.
— Öz adında Adlı olar, özü olar. Əvəz olmaz, — özü olar.
— Göndərilən yenə Göndəriləcək, İşığımdan Göndərilən Göndəriləcək.
— Ucaboy, gülərüz, gülərgöz Göndəriləcək. Düzəngahdan gələcək, İşıqdan Göndəriləcək. Yeni Elmləri deyən Göndəriləcək. O, Göndəriləcək

21 aprel 1998-ci il. Naxçıvan şəhəri.

— Ulduzlar Cənubi-Şərqdən Cənuba gələndə. Öz məkanında Məkanlı Gələndə.
— İşığına (Vahid) İşıqlar Gələndə.
— Ulduzlar, məkanlar bir toplumda olanda (Üç İşığım bir topluma gələləndə). Böyük Yaradandan böyüklük gələndə.
— Parlaq İşıq gələndə.
— Deyimlər (Yazılar) ardıcıllıqda duranda, Böyük Yaradan İşığından İşıqlar düşəndə. Müddətlər müddətinə gələndə, isti mövsüm gələndə.
— İşıqlar öz Məkanında olanda, Cənuba doğru gələndə. Böyük Yaradanla bir oxda duranda.
— İşığına İşıq gələndə, gözlərinə (Vahidin) sevinc gələndə, Sətirlərin, Deyimlərin düzümü gələndə.
— Cənubdan Qara varlıq Şimalda nöqtələnəndə.
— Narıncı (rəngli) məkandan gələndə, o məkandan İşığa İşıqlı gələndə.
— Böyük Yaradandan, İşıqdan — İşıqlı, özlü Vahid gələndə.
— Adında səslənən, Adlı Vahid gələndə; özü olub, Özü Vahid gələndə. O məkana qalxıb o Məkandan gələndə: işıqlığa İşıq gələndə.
— İşıqlılarla bir İşıqda duranda, məkanlar məkanına gələndə. Məkanlar Mənlə bir oxda duranda, bir İşıqda duranda.
— Qaranlıqlara İşıqlı gələndə. Qaranlıqları İşıqlı edən gələndə.
— Böyük Yaradan Bilgiləri bir Kitabda duranda, Sətirləri bir İşıqda duranda. Cəm məkanlar İşıqla İşığa gələndə, Böyük Yaradan Əzəməti, Böyük Rəhmi Gələndə.
— Son olmayıb, bir Kitab da gələndə. Böyük Yaradan Bilgilərini «Əbədidən – Əbədidir» Deyən gələndə.

11 may 1998-ci il. Saat 11:17. Naxçıvan şəhəri.

— Məkrlə ətrafına gələnləri Göstərdim sənə, səndən uzaqlaşdıqlarını Göstərdim sənə. Böyük Rəhmimdə, Böyük Diqqətimdə, Böyük İşığımda Hifzimi Göstərdim sənə. Səni Hifz edənləri (Üç Ağ Geyimlini) Göstərdim sənə. Böyük Rəhmimi Göstərdim sənə.

— İşığımdan İşığını Göstərdim sənə. İşığımdan Göndərişi Göstərdim sənə, Elmlərlə Elmləri Göstərdim sənə.

— Səbrimdə Səbrliliyi Göstərdim sənə. Cəm Yaranışın İlk Yaranışını Göstərdim sənə. Əbədidən Əbədi Yaranışları Göstərdim sənə. Qədərlərdən qədərləri Göstərdim sənə.

— İşıqla Zərrəni Göstərdim sənə, İlkdən İlk Yaranışı Göstərdim sənə. Əbədidən Əbədi yaranışı, Əbədi Yaradan Olan Özümü Göstərdim sənə.

14 avqust 1998. Saat 24:10. Naxçıvan şəhəri.

— De, de, bu gün de ki: «dəymə xatirimə, dəymə; zülm etmə mənə, zülm etmə. Əzmək istədikcə, əzmə məni, əzmə. Qovduqca, qovma məni, qovma».

— De ki: «öz xatirinə özün dəyəcəksən, özün özünə zülm edəcəksən, əzildikcə əziləcək, qovulduqca qovulacaqsan. Dəymə xatirimə, dəymə». (Sənə əzab vermək istəklilər səndən uzaq olacaqlar).

— De, de, bu gün de.

— Səbrli ol, səbrli ol, Səbrimdə səbrli ol.

— Nəzərimdəsən, Nəzərdəsən, sənsən, Nəzərimdəsən.

— Kainatlarda Kainatlarımlasan, Cəm Yaranışlar arasında, Nəzərimdəsən.

— Səbrsizsən, səbrli ol, Səbrimdə səbrli ol.

— Dəyişən Dəyişir, dəyişəcək, Səbrli ol. Dayanma, səbrli ol, düşünmə, səbrli ol, inamsızsan, inamlı ol, Səbrimdə səbrli ol.
— Səbrli ol, səbrli ol, Baxışımdasan, səbrli ol.

10 oktyabr 1998. Naxçıvan şəhəri.
— Ya Böyük Yaradan, İşıqdan İşıqdır Payımız, Yaradandan Yaranışdır Payımız.
— Əbədidən Əbədidir Payımız.
— Diqqətdəyik, diqqətdir payımız.
— Rəhmindəyik, rəhmdir payımız,
— Səbrindəyik, səbrdir payımız.

11 oktyabr 1998 Naxçıvan şəhəri.
— «Ölən»— o, olacaqdır, qayıdan — sən.
— Qayıdan sən olacaqsan. Göndərişimə Qayıdışda sən olacaqsan.
— Məzarda məzar onun olacaqdır, qayıdışda Qayıdan sən olacaqsan.
— Məzarlarda məzardakıları görən olacaqsan.
— Kainatlara, o məkanlara qayıtmış olan bəşəri görən olacaqsan.
— Göndərişimdən Qayıdan olacaqsan. Məni deyib, İşıqlardan İşığımı açıb deyən olacaqsan.
— Əbədiliyimdə Əbədiyyətimi deyən olacaqsan. Mənim Əbədi varlığımı deyən olacaqsan. Cəm məkanlarda Məkanımı deyən olacaqsan.
— Varlığımla İşıqları, varlıqlarda İşığımı deyən olacaqsan.

— «Dünya» (1 dünya, 1 günəş) — dedikləri — çox kiçik, kainatlarla kainatları «Uca» deyəcəksən.

— Varlıqlarla Varlığımı, İşığımdan İşığımın paylı olduğunu deyən olcaqsan. Olacaq olacaq, Olacaqsan.

— Darıxanlar — darıxan, — səbrli olacaqsan. Böyük Varlığımı, «Böyük» — deyən olacaqsan.

— Göstərirkən, görmək istəməyənlər olacaq, Görən, göstərən, deyən olacaqsan.

— Böyük Yaradandan «Göndərilənlərlə Göndərilən» — deyən olacaqsan. Özünün Özü ilə özündə olduğunu deyən olacaqsan (bəşər).

— «Müqəddəs Göndərişləri tək olmayıb. Böyük Yaradan Məkanından olduğunu» — deyən olağaqsan. Deyənlərlə birgə Deyən olacaqsan.

— Onlara uzaq olanı, — sənə yaxın olduğunu — deyən olacaqsan (kainat, qalaktika).

— Onlar uzaqdaykən, yaxınlara yaxın edən olacaqsan (İşıqlara).

— Bəşər Görə bilmədiklərini, Görən sən olacaqsan. Böyüklükdən Böyüklüyü deyən sən olacaqsan.

12 oktyabr 1998. Naxçıvan şəhəri.

— Yerdə ikən, yerdə deyilsən, yerdə ikən, kainatlardasan.

— Kainatlarda ikən, Böyük Yaradan Məkanında, Böyük Yaradan İşığında bir İşıqsan.

— İşığımdan Paylısan, İşığımdasan. Cəm kainatlardasan, cəm yaranışlar arasında İşığımlasan.

— İşığımla İşıqda Ağ olarsan, İşıqtək Pak olarsan. İşığımla Pak olarsan. Varlıqlara İşıqpaylı olarsan.

— İşığımdan İşıq paylı olanlardan olarsan, İşığımdan İşıq paylısan.

— Bəşər o məkana qaranlıqlar toplar, İşıqları az edər, — İşığımdan İşıqlı Göndərişim olar, o məkana, o bəşərə İşıqlı Göndərişim olar.
— Göndərilənlər təkdir, — az deyil. Məkanlara, bəşərə Göndərilənlər — İşıqla Göndərilənlər, İşıq gətirər, İşıqlı olar, — az deyil.
— Məkanımdan Göndərilənlər az olar, Zərrələrdən təkrar yaranış çox olar.
— Tək Göndərişlər tək olar, çoxlar arasına tək göndərilər, tək olar. Yaddaşlardan uzaqlığı yaxın edər. Bəşəri biri-birinə yaxın edər.
— Sözlə, İşığımla — Müqəddəslikdən Müqəddəs İşığımla edər. O İşıqdan İşığı görən görər, görməzlər qaranlıqlardaykən, qaranlıqlardan azad olmaz.
— Cəza istər, Cəza toplar, — qaranlıqlarına cəza istər.
— O bəşər görməz, o, İşığı görməz. Tək göndərilən, cəmlər arasına Göndərilən cəmlərdən uzaq olmaz.
— Böyük Yaradan İşığına yaxın olan, — İşığımda Müqəddəs Əbədi olan.
— Yaxınında olana de ki: «Uzaq idi, yaxın Etdim, uzaqdan yaxın Etdim, Nəzərimdədir, İşığına yaxın Etdim;
— Düşünüb – düşünəndir, – özünü İşıqdan uzaq görəndir, İşıq içərisində İşıqdadır, sənin İşığınla İşıqdadır. Mənim Nəzərimlə Nəzərdədir, uzaq deyil, Nəzərimlə Nəzərdədir.
— İşığına yaxın olan, Nəzərimdə Nəzər olan — yaxındadır. Uzaq idi, yaxın Etdim, İşığına yaxın Etdim. O İşığa yaxın Etdim. İşığımla İşığa yaxın Etdim (Yanımda əyləşib; qardaşım Fikrət haqda Deyimlər idi)». *
— «Dayandı» — deyirsən, dayanmadı. İşıq axımı dayanmadı, Bilgilər Dayanmadı. Deyimlər Deyiləndir, — Dayanmadı.

(Qeyd: hər Deyimin sonunda — Deyim dayandıqda — «Dayandı» deyirdim və qeydlərin sonunda. «Dayandı» yazırdım. Böyük Yaradan Deyimin dəvamlı olacağını Deyib, Bildirdi. — Vahid). *



# BƏ`Zİ İZAHLAR VƏ DEYİMLƏRİN AÇIMLARI

*Ya Böyüklər Böyügü,*
*Ya Böyük Yaradan,*
*Ya Cəm Yaranışlara Rəhmli*
*Olan Böyük Yaradan.*

*Paklıqla.*



*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

## Gündəliyimdən parçalar

***01 İyun 1992-ci il. Naxçıvan şəhəri.***

Sübh Əzanı kainatlardan, kainatlar boyu Səslənirdi. Sübh Əzanını kainatlardan eşidən kəs özünü nə qədər də Paklığa, Uca-

lığa, Böyük Yaradana qalxmış hesab edər. Kainatlardan Səslənən Sübh Əzanı Müqəddəslikdən gəlirdi, Müqəddəs İlahi bir Səsdə idi. Bu Əzan Səsinin Ahəngi Yer məkanındakı əzanın ahənginin (səslənməsinin) eynidir, lakin çox Əzəmətli, Heyranedicidir. Əzan Səsini üç dəfə kainatlardan eşitdim, bunlardan ikisini — İranın Ələmdar şəhərində, Hacı İsfahaninin (hamı «Hacı» çağırdığından, adını soruşmamışdım) mehmanxanasında ikən, üçüncüsünü isə, bir il keçdikdən sonra, Türkiyənin İqdır şəhərində, «Parlar» otelində orucluq (ramazan) ayında eşitdim. İlahi, bu Əzanı eşidən kəs, özünü nə qədər də xoşbəxt yaranış hesab edə bilərmiş. O Əzan Səsi kainatlardan, Paklıqdan Səslənəndir; Onu eşitmək kainatlara, Sənə, Sən Yaradana qalxmaq, bir Paklığa ucalmaq deməkdir.

O halı yaşayanlar, — o halı dərk edər.

İlahi Deyimləri 1993-cü ildən hissə-hissə, Deyildikcə qeyd edirdim. Deyimlər Kainatdan, Böyük Yaradandan Deyilir və Göstərilirdi. 1971—1972-ci ildən cəm varlıqların özlükləri mənim üçün hissə- hissə Açılmağa başlamışdı. 1972-ci ilin 28 noyabrında daha Böyük Anlamlar Açıldı. Uzun illər ərzində çox sakitliklə bu hallara yanaşmışam, çünki burada qeyri-adiliyin olduğunu düşünmürdüm və mənə elə gəlirdi ki, hamı belədir — mənim kimidir. 1975-ci ilin aprel ayının axırlarından bəşərin düşüncəsini, varlıqların (cisim və əşyaların) içərisində (daxilində) və əhatəsində İşıq Zərrələrinin olduğunu, onların müəyyən bir ahənglə hərəkət etdiyini və digər hadisələrin, halların ardıcıllıqlarını görürdüm. Yenə də bu hadisələrə çox sakitliklə yanaşırdım. Özümdə heç bir qeyri-adilik hiss etmirdim və «yəqin ki, insanların hamısı belədir, — mənim kimidir, — mənim kimi Eşidir və Görürlər» — deyə düşünürdüm.

1993-cü ildən daha Böyük Deyimlər Deyilirdi. O Deyimlər ayrı-ayrı qısa Deyimlərdən ibarət idi. Onlarda kainatlar, mə-

kanlar (planetlər), varlıqlar ardıcıl olaraq, bir-bir Açılıb Göstərilirdi. Qeydləri heç kimə demədən, sakitliklə, gizlində Dəftərlərdə qeyd edirdim. Uzun illər Bunları gizli saxlamışdım.

1995-ci ilin aprel ayında, həyatimizdə, üç Qeyd Dəftərini yandırdım. Düşünürdüm ki, heç kimə bu Qeydlər lazım deyil. Yanan vərəqlərdə, görürdüm ki, Ağ Pak İşıq şö`lələnir. Yandırdığıma sonralar çox peşiman oldum.

***10 İyul 1996-cı il. Naxçıvan şəhəri.***

Böyük Yaradan məni kainatın altıncı qatından yuxarıda bərqərar tutan Öz Məkanına Vəhdətində qaldırdı. Ətrafda saysız, qədərsiz ulduzlar, planetlər var idi. Böyük Yaradan çox Əzəmətli, Təmkinli, Sakit, Qədərsiz Gözəllik, Səbr Sahibidir. Gözəlliyi, Nuru təkrarsızdır və təsəvvürlərə yatmır. O Böyük Yaradandan başqa ikinci bir Yaradıcı yoxdur. Yaranış Onun Ətrafında, Vəhdətindədir. Böyük Yaradanın Sağ Ayağı tərəfində əyləşən anlarımda, kainatların bir hissəsində dəyişikliklər olduğunu gördüm, «Ya Böyük Yaradan, onlar öldülər» — dedim. Böyük Yaradan isə. Dedi: «Onlar ölmədilər, onlar dəyişildilər. Ölüm yoxdur, Əbədidə Əbədiyyət Yaratdım, Əbədiyyətə Ölüm Yaratmadım». Böyük Yaradanı bir İşıqda — Nur İşığında, Sevincdə, Rəhmdə, Böyük Səbr Sahibi olduğunu gördüm. Bizim Yer planetinə görə Böyük Yaradan Məkanı Şimali-Şərq istiqamətdədir.

***28 İyul 1996-cı il. Naxçıvan şəhəri.***

Səhər üzümü yuyarkən Böyük Yaradan mənə «Paklan» — Dedi. İlk dəfə Paklanmanın icraatını ardıcıllığı ilə Dedi və Göstərdi. Həmin gündən «Paklanmanı» icra etmədəyəm.

***18 iyun 1997-ci il Naxçıvan şəhəri.***

Bu gün Böyük Yaradandan Özünün Deyimlərinin bir toplum halında yazılması icazəsi verildi.

***28 iyul 1997-ci il. Naxçıvan şəhəri.***

Bu gündən varlığımın paklanma günüdür.Maddi aləmdəki varlığımı qidalanmamaqla Pak etmək müddətidir. Əbədiyyətə qalxmaq paklığa qalxmaqladır. Vücudu pak etməklə Əbədiyyətə, Müqəddəsliyə qalxmaq olur. Orucluq müddəti Böyük Yaradandan Deyilib və buna vaxt tə`yinləşdirilib: hər ilin 28 iyulundan 06 sentyabrına qədər olmaqla qırx gün müddətinə.

***24 oktyabr 1998-ci il. Gündüz saat 15:00. Naxçıvan şəhəri.***

Bu gün günortadan sonra Böyük Yaradandan Deyimlərin deyilməsi başladı. Bu, o Deyimlər idi ki, üç dəftəri bilməyərək yandırmışdım. Böyük Yaradanın yenə Böyük Rəhmini gördüm. Bu, Deyimlərin bir toplum halına gətirilməsini, bir Düzümə Düzüləcəyini açdı. (Sizə təkrar Deyimləri, ilkdən olduğu Deyimləri, Böyük Yaradan Adından dedim. Bu İlahi Deyimləri özlüyümdə gətirə bilməzdim).

## Tərcümeyi-halımdan bir neçə məqam

Mən 1947-ci ilin 22 aprelində, gündüz saat 16-50-də Bakı şəhərində («Beş mərtəbə» yanındakı doğum evində) dünyaya gəlmişəm. Babalarım, atam, anam Naxçıvanlılardır. Boya-başa Naxçıvan şəhərində çatmışam. Üzeyir Hacıbəyov adına 1№-li orta məktəbdə tam təhsil almış, 1968-ci ildə Bakı Yeyinti Sənaye texnikumunun «Ət və quş məhsullarının texnologiyası» şö`bəsini bitirmişəm. Texnoloq ixtisası ilə 1972-ci ildən Dövlət Standartlaşdırma Komitəsinin Naxçıvan Standartlaşdırma və Metrologiya laboratoriyasında iyirmi il müddətində, əvvəllər texnik kimi, sonralar isə mühəndis vəzifəsində işləmişəm. 1992-ci ildən işdən azad olmuşam.

Atam Zeynalov Zeynal Məmmədbağır oğlu 1902-ci ildə Naxçıvanın Qaraçuq kəndində anadan olub. 1974-cü ilin 01 fevralında vəfat edib (Allah Rəhmət eləsin).

Anam Rzayeva Əminə Əli qızı 1917-ci ildə Naxçıvan şəhərində anadan olub. 1998-ci ilin 28 fevralında vəfat edib (Allah Rəhmət eləsin).

Atama, anama çox mehriban olmuşam. Bu istəyimə özümün övladi borcum kimi baxmışam və Böyük Yaradanın atama, anama Verdiyi övlad paylarına da çox mehribanlıqla yanaşmışam. Atamın, anamın beş övlad payının ən kiçiyi mənəm. Qardaşlarım, bacılarım qarşısında həmişə özümü ən kiçik qardaş kimi aparmaqla bərabər böyük qardaşım Fikrətə, Leylan bacıma həmişə özümü borclu bilmişəm. Böyük Yaradan məni Hifz Edib, onlar isə qoruyublar. Həmişə daxilən öz adım kimi təklik hiss etmişəm. Yaddaşımda uzun illər bir Böyük Yaradan, bir də özum idim. Böyük Yaradan hər an məni Hifz etdi. Onsuz mən bir heç idim və, indi də, bir heçəm. Həyatımın çox ağır günlərini yaşadım, məşəqqətli günlərini yaşadım, Böyük Yaradandan

«Səbrli ol, səbrli ol» deyimləri ilə uzun illər çox mə`nəvi və maddi əziyyətlərə dözdüm. Həyatımın o mərhələsi gəldi ki, öz-özümə dedim: «Bu məkanda uzun illər qapı görə bilmədim ki, döyüləsi ola; hər qapıya baxdım, arxasında yalan, laqeyidsizlik gördüm. Döyüləsi qapı görmədim, döyə bilmədim. Səslənməyən qapı açılmaz, arxasında səssizlik olan qapını açan olmaz. Örtülü gördüm, örtülü qaldı. İnsan dənizə baxdı, - ada gördü, dedi: «o təkdir, adadır». Yox, bəşər, o ada dediyinin ətrafı sudur. Vay o bəşərin halına ki, ada qədərində də yoxdur. Təklikdən təkdir. Ada ətrafında su var, təklik ətrafında təklikdən başqa təklik yox-dur. Özümə baxdım, özümü gördüm, Demə, ay Vahid, Vahid də Vahid tək Vahid imiş.»

Adımı dayım Namazov Abbas mərhum Qəzəlxan Əliağa Vahidin adı ilə çağırıb. Allah Təala hər ikisinə Rəhmət Eləsin.

**Bə`zi Deyimlərə açımlar**
(Böyük Yaradanın «Yaranış» adlı Deyimlərində **«*»** ilə qeyd olunanlar)

**1. (II—17). O Müqəddəslər On oldular...**
***Müqəddəslərin adları və məskunlaşdığı ərazilər aşağıda verilir:***

**10 Müqəddəsin Yerdəki məkanları**



| Say | Adları | Ərazi (Yerin müasir coğrafi vəziyyətinə görə) |
|---|---|---|
| 1. | MƏN | Qafqaz və, cənubi Azərbaycan daxil olmaqla, ətrafları |
| 2. | HƏM | Hindistan |
| 3. | ƏN | Ərəbistan yarımadası |
| 4. | ƏK | Cənub qütbü |
| 5. | ÜZ | Şimal qütbü |
| 6. | QİT | Afrika qit'əsinin aşağı***(cənuba doğru)** hissəsi. Hind okeanı suları altında qalan ərazi. (*Bu Müqəddəsin alnında uzununa xətt var idi*) |
| 7. | TƏK | Amerika qit'əsi |
| 8. | LAP | Yaponiya, Yamayka adaları ərazisi |
| 9. | DÖN | Afrika və Amerika qit'ələri arasında. Atlantik okeanındakı o ərazi (qit'ə) sular altında qalıb |
| 10. | ƏDD | Sakit okeandakı o qit'ə sular altında qalıb |

**2. II — 22. kainatlardan Ağ geyimlilər bir oldular, Sayda olub Sayda oldular, Mənim Ətrafıma Qayıdan oldular. Səf-səf düzümdə durub, düzümdə oldular.**

*Cəm kainatlarda Ağ geyimlilər (Mələklər) azad idi. O Müqəddəslərdən On Müqəddəs, Böyük Yaradanın Müqəddəs İşığını Özü ilə olduğunu bildilər və Ağ geyimlilər arasında Özlərini fərqli hesabladılar. O Ağ geyimlilər Böyük Yaradan Məkanından, Ətrafından kainatlara uzaq olduqda, Böyük Yaradan Kainatlarda Azadlıqda, Yaranış Azadlığında olan Müqəddəsləri Ətrafına Yığdı. O yığım nəticəli oldu, Cəm Müqəddəslər Sayda olub, bir cərgədə düzümdə düzüldülər. Böyük Yaradan hər birini kainatlarda İcraçılığa tə`yinli Etdi.*

**3. II — 36. Sizin Günəş məkanı ətrafında ilk məkan — sarı rəngdə olan ilk məkan.**

*Yer məkanının torpağı ilk əvvəllərdə sarı rəngdə idi. Yer planetində olan işıq qədəri kainatlardakı Ağ İşıq axımı ilə bir*

*vəhdət bağlılığındadır. Sarı rəng Ağ İşıq qədərlərini bərabər yayandır. Sarı rəng Müqəddəs Ağ İşıqlara çox yaxın yaradıcı rəngindədir və özündən ağ işıq qədərini yayıb səpə bilir. Müddət-müddət bəşəriyyətin gətirdiyi bəlalar, qaranlıqlar Yer məkanının səthinə tünd boz rəngi gətirdi.*

**4. II— 42. O, işıq Vəhdətimin İşığıdır, sönməz, Cəm Yaranış Mənimlədir, Mənlədir, İşığımdan Paklıdır, sönməz.**

*Böyük Yaradanın Günəşə Verdiyi Ağ İşıq Payı Günəşin Nüvəsində çox aktivdir. Nüvə daxilindən Ağ İşığın yayımı onun kütləsinə, kütlədən isə nəticədə öz qədərində ətraf məkanlara işıq payı saçılır. Günəşin özü də bir məkan olduğundan kütləsi daşladır, torpaqladır. Səthinin bə`zi yerləri bərkdir və tünd xakı rəngindədir. Günəşdə baş verən vulkanik prosseslərin nəticəsində ərinti dərinliklərdən lava şəklində üzə çıxır. Həmin ərintilərdə Ağ işıq yayımı çoxdur.*

**5. III—22. ... o məkanda o Müqəddəslər üç min il, o məkanda Müqəddəslikdə — Üç min il. O Məkanda — Müqəddəsliyi dörd min il.**

*Böyük Yaradan tərəfindən Müqəddəslər Yer məkanına üç müddətə Uzaqlaşdırılmışdı. Bu müddət Yer məkanı üçün üç min il təşkil edirdi. O Müqəddəslər Yer məkanında Müqəddəs kimi qalmalı, sonra isə Böyük Yaradan Məkanına, Böyük Yaradan Ətrafina Müqəddəs kimi də qayıtmalı idilər. Lakin onların hər biri Böyük Yaradanın Yaranış İşıqlarının Özlərinin olduğunu, Özlərinin gücü bilirdi. Amma Böyük Yaradan fərdlər Yaratmamışdı; buna görə də hər hansı yaranış ümumi Yaranış arasından özünü fərqləndirib ayırmamalıdır. Sonrakı əlavə min il ərzində O Müqəddəslərin Yer məkanında maddi aləmlərlə bir bağlılıq-*

*da, təmasda olması onları bəşəriləşməyə gətirib çıxartdı. Bu bəşərləşmə isə sonrakı bəşər yaranışlarının təməlini qoydu.*

**6. III—43. Məkan silkələnmədə, — qatlardan silkələnmədə, üz qatı — odla silkələnmədə, nüvə Nüvədə qızdı, məkan məkanda yeniləşdi.**

*Müqəddəslərin sonrakı min il ərzində Yer məkanında olması və tədricən maddi aləmlə təması yer məkanının varlığını da dəyişdi. Böyük Yaradanın Ağ işıq Payı Yerin nüvəsində aktivləşdi, orada böyük istiliklər yarandı, bunun nəticəsində qatlardan nəmlər ayrıldı, ayrılan sular üzə çıxdı Sonrakı mərhələlərdə yer üzündə güclü zəlzələlər baş verdi böyük qitələrin əmələ gəlməyi başladı. Bunlar eyni zamanda yerin dərin qatlarından odun, alovun yer səthinə çıxması ilə müşahidə olunurdu. Müqəddəslər o oda «Müqəddəs Od» kimi baxırdılar.*

*Ümumi halda Cəm kainatlarda aktiv və passiv məkanlar var. Məkanların aktivliyi onların nüvələrindəki Ağ işıq Payı yayımının müəyyən aktivliyi ilə baş verir. Passiv məkanların nüvəsində olan Ağ işıq Payı Böyük Yaradan tərəfindən aktivləşdirilməmiş vəziyyətdədir. Bu cür məkanların özlərinin nüvələrindəki Ağ işıq Paylarının sayəsində bir varlıq kimi varlıqlar cərgəsində olmalarına imkan verir. Böyük Yaradan Baxışında hər hansı planet bəşər yaşamı və yaxud günəş məkanına çevrilə bilər.*

**7. III—87. Bəşər yaranışı rəngdə deyil, rənglə deyil. Rəng — Rəngdədir, Yaranmış bəşər rənglə deyil. Müqəddəslikdən bəşərləşən rənglə deyil. İlkindəndir, yeni rəngdə deyil.**

*Yer məkanına Uzaqlaşdırılmış Müqəddəslərin hamısı zahirən bir biçimdə, bir görkəmdə deyildi. Onların hər biri Yer məkanına Uzaqlaşdırılmamışdan əvvəl Kainatda müxtəlif tərəflərdə*

*idi və o sahələrə uyğunlaşmışdı. Müqəddəslərin hər birinin zahirən qarabuğdayı, ağ, qara, sarı rənglərdə olması da buradan çıxır. Beləliklə, Yerdəki irqlərin yaranışı bu məkanın özündən olmayıb, Müqəddəslərdən gəlmə bir halıdır.*

**8. IV—38. O an — bayramdır, cəm kainatlarda Bayramdır. Bayramın anı var, — günəşin zenitdən sonrakı anı var, altı dəqiqə bir oxda tuş duran anı var.**

*İlkdən kainatların yaranış müddətinin bir Bayram olduğunu İlk Müqəddəslər Yer məkanında bəşərləşmiş bəşərə (övladlarına, nəvələrinə) dedi. «Günəşin zenitdən sonrakı anı var» — Deyimi Günəşin fırlanma oxunun Böyük Yaradan Məkanı istiqamətinə yönəlməsi və, bu anlarda da, Yer məkanının Günəş ilə Böyük Yaradan Məkanı arasında olmasına işarədir. Bu, mart ayının 17,5 — 18-nə təsadüf edir, saat 14:50 -də başlayır, saat 14:56 -da tamamlanır.*

**9. V—7. Hər məkan bucaqlıdır, bucaqlarla bucaqlıdır, hərəkətləri bucaqlıdır, bucaqlarla bucaqlıdır. Hərəkəti bucaqda, cəm kainatlarla bucaqla, məkanlar məkanlıdır, kainatda məkanlıdır.**

*Bu Deyim bizim günəş sistemimizdə olan planetlərin öz trayektoriyalarında bir-birinə nisbətən müxtəlif vəziyyətlər tutduğuna, müxtəlif nöqtələrdə olduğuna işarədir. Bu müxtəliflik Kainatdakı bütün məkanlara aiddir, lakin onlar eyni zamanda, biri birinə nisbətdə həmahəng hərəkət qanununa tabedirlər.*

**10. V—22. İşıq məkanınız (günəş) beş milyona (illərlə) qədəm qoydu (26 mart 1997-ci il, səhər saat 5:00 -da — Naxçıvan vaxtı ilə).**

*Bizim günəş sistemimiz, ümumi Kainat Hərəkəti Ahəngi, Vəhdəti daxilində yeni bir mərhələyə, fazaya qalxdı. Bu mərhələdə yeniliklər daha çox olacaq, elmlərdə, təfəkkürlərdə böyük dəyişikliklər baş verəcəkdir. Bu, həm də, daha kamil yaranışlar (insan) yaranması dövrüdür.*

**11. V—34. Kainatların gücü dönmədədir, İşıq axımı ilə dönmədədir. İki tərəfi dönmədədir, İşıq toplumunda dönmədədir.**

*Kainat ellipsoid quruluşundadır. Onun aktiv və nisbətən passiv tərəfi var. Kainatın aktiv və passiv tərəflərini tə`yin etməkdən ötrü —Günəşin zenitdə olan vaxtında üzü cənub istiqamətə tutarkən sol səmt passiv, sağ səmt isə aktiv tərəflərə düşmüş olacaqdır.*

*Ellipsoid daxilində hər məkan cəm məkanlarla həmahəng bir hərəkətdədir. Hərəkətləri nizamlayan Ellipsoidin sağ və sol küncləridir. Sağ künc cəm kainat hərəkətinə daha güclü dönmə hərəkəti verir, sol künc isə nisbətən zəif hərəkətlər yaradır. Sanki sağ sol küncə bir köməkçidir. Hərəkətləriylə hərəkətlər yaradıcılığına xidmət edir.*

— *** «Dayandı»** — deyirsən, dayanmadı. İşıq axımı dayanmadı, Bilgilər Dayanmadı. Deyimlər Deyiləndir, — Dayanmadı.

*(Qeyd: hər Deyimin sonunda — Deyim dayandıqda — «Dayandı» deyirdim və qeydlərin sonunda. «Dayandı» yazırdım. Böyük Yaradan Deyimin dəvamlı olacağını Deyib, Bildirdi. — Vahid).* *****

## Rəmzlər haqqında

Kitabdakı İlahi rəmzlərin açımları aşağıdakı kimidir:



07.08.1996-cı ildə Böyük Yaradan Göstərmiş və mənə Ondan Verilmiş bu İlahi forma — İlahi anlamdır. Bu forma rəmz-açardır və boz — Əbədiyyət rəngindədir. Bu, İlahi Deyimləri, İlahi Elmləri, İlahiyyəti olduğu kimi açılışa vasitəçi — rəmzdir.



22. 10. 1997-ci ildə Böyük Yaradan Göstərmiş və mənə Ondan Verilmiş bu forma — İlahi anlamdır. Bu, elə bir Beş Oxlu İlahi bir varlıqdır ki, öndə bir müdafiə, bir sədd, bir inam, bir mühafizə, çox-çox ucalıqlara irəliləyiş, maniələri dəf edən, öndə İlahiyyatı İlahiyyətə aparacaq rəmzdir. O, bir İlahi İşıq formasıdır. Beş Oxlu həmin əyri nazik, boz rənglidir. Boz rəng İlkdəndir, Yaranışa — İlkdən Əbədiyə Əbədi rəngdir.

**Kainatdakı günəşlərin və yaşam məkanlarının yerləşməsi sxemi (iki proyeksiya ilə):**

**Yaşam məkanları (Günəşlər haqqında)**

6 günəş ətrafında 6 Yaşam məkanı haqqında mə`lumat aşağıdakı sxemdə iki proyeksiya ilə verilir (bax şəkil və cədvələ).



| Sıra Sayı | Vaxt (Yerə nisbətdə) | Vaxt fərqi (Yerə nisbətdə) | Planetin səthindəki torpağın (qrunt) rəngi | Əhalinin əqli inkişaf səviyyəsi |
|---|---|---|---|---|
| 1 (Yer) | $12^{\underline{00}}$ | 0 | Açıq boz; (hündürdən baxdıqda – açıq göy) | nisbətdə, müqayisədə - 5-ci yerdə gedir |
| 2 | $8^{\underline{00}}$ — $8^{\underline{30}}$ | – $3^{\underline{30}}$ –$4^{\underline{00}}$ | Açıq xakı; nəm iyli (nəm meşə iyinə yaxın) | Azad yaşam (əhalinin sayı azdır) |
| 3 | $13^{\underline{07}}$ –$13^{\underline{10}}$ | + $1^{\underline{07}}$ –$1^{\underline{10}}$ | Açıq boz(uzaqdan, hündürlükdən baxdıqda) | insanları bir-birinə nisbətən mehribandırlar |
| 4 | $13^{\underline{40}}$ –$13^{\underline{45}}$ | + $1^{\underline{40}}$ –$1^{\underline{45}}$ | Qırmızıya yaxın rəngdə | Bir-birini məhv edənlər |
| 5 | $12^{\underline{45}}$ –$12^{\underline{50}}$ | + $0^{\underline{45}}$ – $0^{\underline{50}}$ | Ağ rəngdə | Yüksək əqli inkişaflı |
| 6 | $12^{\underline{25}}$–$12^{\underline{30}}$ | + $0^{\underline{25}}$ – $0^{\underline{30}}$ | Ağ rəngdə (bir qədər açıq sarı çalarlı) | Yüksək anlam qədərli; Bir-birinə yüksək bəşəri tələbli |

### *BÖYÜK YARADAN DEYİMLƏRİ OLAN "YARANIŞ" KİTABININ Azərbaycan dilində latın əlifbası ilə ilk nəşri barədə bə'zi məqamlar:*

Bu KİTAB 1999 -cu ilin mayında Bakıda "Təhsil" Elm İstehsalat Mərkəzində-N.Tusi adına ADPU-nin Mətbəəsində (Bakı, Y.Hacıbəyov küçəsi, 34) 600 nüsxədə azkiril əlifbası ilə çap olunmuşdur.

Latın əlifbası ilə ilk nəşri Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə 2023-cü ildə 240 nüsxədə “Zərdabi Nəşr” MMC nəşr olunub. Hazırki 100 nüsxədə nəşr oxucuların arzusu və onların vəsaiti ilə çap olunur.

KİTABIN ilk səhifəsində belə bir mətn gedib:

"BÖYÜK YARADAN DEYİMLƏRİNİ yazıya gətirdi: Rzayev Vahid Zeynal oğlu."

Deyimləri yazıya gətirən Vahid Rzayevin (22.04.1947 - 21.09.2018) Həmin KİTABIN Mətnlərini özündə əks etdirən (azkiril əlifbası ilə) -öz dəst-xətti ilə yazılmış əlyazma mətnləri -dəftərləri mövcuddur. Həmin mətnlər olan dəftərlərin əsli tərəfimizdən Azərbaycan Respublikasının Milli Dövlət Arxivi İdarəsinə təhvil verilmişdir. –Fond 183. Bütün dəftərlərin, materialların foto variantı "AqRA" Elmin İnkişafına Dəstək ictimai birliyinin (AqRA EİDİB) arxivində elektron formatda saxlanılır.

2018-ci ilin may -iyul ayları arasında Vahid Rzayevin səhhətində problemlər olduğu dövrdə -bizim xahişimizlə O bizə bir neçə flaşkart və disketlər təqdim etdi, bundan başqa 2015 -2018 -ci illər ərzində Fb sosial şəbəkəsində gedən yazılarını bir yerə toplayıb Özünün adlandırdığı "İŞIQ, ZƏRRƏ" adlı elektron Kitab formatına saldıq.

Vahid Rzayev dünyasını dəyişdikdən sonra isə, (21.09.2018) Onun şəxsi arxivi "AqRA" EİDİB -nin üzvləri və ailə üzvləri ilə

birgə araşdırıldı (2019-cu ilin ilk üç-dörd ayı -Naxçıvan şəhərində) "YARANIŞ" KİTABININ və Həmin Kitabın açıqlamalarına xidmət edən digər Kitablarının və müxtəlif materialların həm elektron variantları həm də 12 ədəd əlyazma dəftərləri 12 ədəd səs yazılı kasetləri ilə tanış olduq.

Oxucuların diqqətinə təqdim olunan "YARANIŞ" KİTABININ hazırkı mətni Vahid Rzayev və Fikrət Rzayev (1936 -2013) qardaşları tərəfindən hazırlanmışdır (Mətnlərin korrektoru "AqRA" EİDİB -nin İH -nin Üzvləri Həsən Yəhya oğlu İsmayılov və Mirələkbər Seyidovdur.).

"YARANIŞ" KİTABI Həzrəti Zərdüştün "Avesta"sının təkmil variantı -Vahid Rzayev Həzrəti Zərdüştün davamı -davamçısıdır.

YARADANDAN belə bir deyim var:

**"Bu, Elmdir, din deyil, İlahiyyata Elmdir, din deyil.**

Göndərən Mən, Deyən Mənəm. Bəşəriyyətə Göndərən Mənəm.

Deyimləri deməyə onu Seçən Mənəm, -sən deyilsən.

Bu Əvvəldir, son deyil; Bilgilərin qədəridir. Bilgilər məhdud deyil".

Vahid Rzayev, Fikrət Rzayev "YARANIŞ" Haqqında söhbət lll hissə" Kitabından, səhifə 141.

**Qeyd:**

"AqRA" EİDİB -nin www.aqra.az adlı övraqında "YARANIŞ" KİTABININ dərc edilmə ardıcıllığı:

-azkiril əlifbası ilə 25.04.2019;

-azkiril əlifbası ilə foto formatda 26.04.2019;

-azlatın əlifbası ilə 28.04.2019.

"AqRA" Elmin İnkişafına Dəstək ictimai birliyi adından:

Mirələkbər Seyidov, Turqutbəy Rza-ZADƏ,

Həsən İsmayılov, Təvəkkül Vəliyev, Zeynal Rzayev.

# MÜNDƏRİCAT

**I. BÖYÜK YARADAN**……………………………….3

**II. MÜQƏDDƏSLƏR İLK İDİ, YARANIŞA İLK — MÜQƏDDƏSLƏR İDİ** ........................................7

**III. YARANIŞ** .............................................................14

**IV. BƏŞƏR**..................................................................23

**V. KAİNATLAR** .....................................................47

**VI. CƏM YARANIŞ— PAKLIQDAN PAKLIQLA YARANIŞ** ..............................................................63

**VII. BƏŞƏRİN QAYIDIŞI** .........................................70

**VIII. ETMƏ, BƏŞƏR, ETMƏ !** ....................................83

**IX. BƏŞƏR QAYIDAR, — YIĞDIQLARI İLƏ QAYIDAR** ...........................................................103

**X. İLK İDİ, KAİNATLARDA, YER MƏKANINDA İLK İDİ** .............................................................107

**XI. BÖYÜK YARADANDAN GÖNDƏRİLƏNLƏR**...........................................113

**XII. BÖYÜK YARADANDAN "YARANIŞIN" İLLƏR ƏRZİNDƏ DEYİMLƏRİNDƏN (bəzi fraqmentlər)** ...............................................117

BƏ`Zİ İZAHLAR VƏ DEYİMLƏRİN AÇIMLARI .133

Tərcümeyi-halımdan bir neçə məqam .......................137

Bəzi Deyimlərə açımlar ............................................139

Rəmzlər haqqında ..................................................... 145

Yaşam məkanları haqqında (Günəşlər haqqında) ..... 145

BÖYÜK YARADAN DEYİMLƏRİ OLAN "YARANIŞ" KİTABININ Azərbaycan dilində latın əlifbası ilə ikinci nəşri barədə bə'zi məqamlar ..................................... 148

Bu Kitab “AqRA” Elmin İnkişafına Dəstək ictimai birliyinin
təşkilati dəstəyi ilə nəşr olunur.

www.aqra.az
www.aqra.az/en
www.aqra.az/ru
Email aqra.tehsil2012@gmail.com
Telefonlar:
İH – nin Sədri Mirələkbər Seyidov +99450 2100524
İH – nin Sədr Müavini – Naxçıvan Nümayəndəliyin rəhbəri Təvəkkül Vəliyev
+99470 8550419
İH – nin Sədr Müavini Həsən İsmayılov +99470 2404537
Tiraj – 100 nüsxə

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Azər Aydın***

**Korrektorlar:** ***Həsən İsmayılov***
***Mirələkbər Seyidov***

Çapa imzalanmışdır: 25.03.2026.
Formatı 60x84 1/16.
Həcmi 9.5 ç.v. Sifariş № 45. Tiraj 100

“Zərdabi Nəşr” MMC Nəşriyyat-Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73,
(050; 055; 070) 344 76 01
E-mail: zerdabi_em@mail.ru